AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

Məlumatlardan istifadə edərkən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinad etmək lazımdır.

Bu məruzə 2013-cü ilin ilkin məlumatlarını əks etdirir.

# SOSİAL, İQTİSADİ İNKİŞAF

12

YANVAR-DEKABR

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**Məruzə № 12**
**21 yanvar 2014-cü il**

## 2013-CÜ İLDƏ ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

İqtisadi və sosial tərəqqinin əsas keyfiyyət göstəricisi olan **Ümumi Daxili Məhsul** istehsalı 2013-cü il ərzində ötən illə müqayisədə 5,8 faiz artaraq 57,7 milyard manata çatmışdır. Əlavə dəyərin 46,3 faizi sənaye sahələrində, 11,8 faizi tikinti kompleksində, 5,3 faizi kənd təsərrüfatında, 4,8 faizi nəqliyyatda, 8,9 faizi ticarət və pullu xidmət sahələrində, 1,8 faizi rabitədə, 14,7 faizi digər sahələrdə istehsal olunmuşdur.

Əhalinin hər nəfərinə 6207,3 manatlıq (7912,5 ABŞ dolları) əlavə dəyər istehsal olunmuşdur.

Ümumi daxili məhsul istehsalı qeyri-neft sektorunda 10,0 faiz, neft sektorunda isə 1,0 faiz artmışdır.

**Sənaye** məhsulu istehsalı 2012-ci illə müqayisədə 1,8 faiz artaraq 33,7 milyard manata çatmış, onun 74,0 faizi və ya 24,9 milyard manatı mədənçıxarma bölməsində, 20,1 faizi, yaxud 6,8 milyard manatı emal bölməsində, 5,3 faizi və ya 1,8 milyard manatı elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində, 0,6 faizi və ya 218,7 milyon manatı su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində istehsal olunmuşdur.

Sənayenin neft sektorunda məhsul istehsalı 1,1 faiz, qeyri-neft sektorunda isə 4,8 faiz artmışdır.

Mədənçıxarma bölməsinin məhsullarından 43,1 milyon ton və ya 0,2 faiz çox xam neft, 17,9 milyard kub metr, yaxud 3,6 faiz çox əmtəəlik qaz, 1619 kq və ya 3,6 faiz çox qızıl hasil olunmuşdur.

Emal bölməsinin məhsullarından qida məhsulları istehsalı 4,2 faiz, içki istehsalı 13,6 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 30,9 faiz, poliqrafiya məhsulları istehsalı 43,4 faiz, neft məhsulları istehsalı 6,2 faiz, kimya sənayesi

məhsulları istehsalı 19,5 faiz, əczaçılıq məhsulları istehsalı 12,8 faiz, tikinti materialları istehsalı 21,0 faiz, metallurgiya məhsulları istehsalı 1,5 faiz, elektrik avadanlıqlarının istehsalı 14,6 faiz, maşın və avadanlıqların istehsalı 25,1 faiz, avtomobil və qoşquların istehsalı 28,9 faiz, sair nəqliyyat vasitələri istehsalı 2,3 dəfə, zərgərlik, musiqi, idman və tibb avadanlıqları istehsalı 11,6 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri xidmətləri 31,3 faiz artmışdır.

2013-cü ildə ölkənin elektrik stansiyalarında 20,6 milyard kVt.saat elektrik enerjisi (0,6 faiz çox) istehsal olunmuşdur.

**Aqrar** bölmədə bitkiçilik məhsullarının yığımı başa çatmışdır. 2013-cü ildə qarğıdalı da daxil olmaqla 2961,9 min ton taxıl, 992,7 min ton kartof, 1232,8 min ton tərəvəz, 44,8 min ton pambıq, 852,9 min ton meyvə və giləmeyvə, 429,7 min ton bostan məhsulları, 154,1 min ton üzüm, 181,4 min ton şəkər çuğunduru, 18,1 min ton dən üçün günəbaxan, 3,5 min ton tütün, 567,7 ton yaşıl çay yarpağı toplanmış, diri çəkidə 514,4 min ton ət, 1820,5 min ton süd, 1401,5 milyon ədəd yumurta və 16,8 min ton yun istehsal olunmuşdur.

Dəyər ifadəsində bitkiçilik məhsulları istehsalı 4,2 faiz, heyvandarlıq məhsulları istehsalı 5,5 faiz və kənd təsərrüfatının ümumi məhsulu 4,9 faiz artmışdır.

2014-cü ilin məhsulu üçün 1088,2 min hektar sahədə şum qaldırılmış, 979,1 min hektar sahədə dən üçün taxıl, o cümlədən 646,3 min hektar sahədə buğda, 332,7 min hektar sahədə arpa səpilmişdir.

İqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən **əsas kapitala** 17,9 milyard manat həcmində vəsait yönəldilmiş, 11,9 milyard manatlıq tikinti-quraşdırma işləri görülmüşdür. 2012-ci illə müqayisədə əsas kapitala yönəldilmiş vəsaitin məbləği 15,1 faiz, o cümlədən tikinti-quraşdırma işlərinin aparılmasına sərf edilmiş vəsait 25,0 faiz artmışdır. Məhsul istehsalı obyektlərinin inşasının aparılmasına investisiyanın 48,3 faizi, yaxud 8,6 milyard manat sərf olunmuşdur. Vəsaitin 76,7 faizini və ya 13,7 milyard manatını daxili investisiyalar təşkil etmişdir.

İl ərzində ümumi sahəsi 2138,8 min kv.metr olan yaşayış evləri, 34512 şagird yerlik ümumtəhsil məktəbləri, 1338 çarpayılıq xəstəxana, növbədə 638 nəfərə xidmət etməyə imkan verən ambulator-poliklinika müəssisələri, 2466 yerlik məktəbəqədər təhsil müəssisələri, 1124 yerlik klub, Bakı şəhərində Gəmi təmiri İstehsalat bazası, Gəmiqayırma zavodu, Qaz turbinli İstilik Elektrik stansiyası, "Alov qüllələri" kompleksindəki "Fairmont Baku" oteli, Naxçıvan MR-da Arpaçay Su Elektrik stansiyası, Sumqayıt şəhərində "Gilan" Tekstil parkı, Polad Boru zavodu, Şirvan şəhərində "Cənub" Elektrik stansiyası, Abşeron rayonunda Plastik qablar və priforminqlər istehsalı və "Milla" süd məhsulları və Dondurma istehsalı zavodları, Qazax rayonunda Sement zavodu, Yevlax rayonunda Hava Limanı, Gədəbəy rayonunda qızıl emalı zavodu, Qəbələ rayonunda Üzüm emalı zavodu, Heyvandarlıq-südçülük kompleksi, Hacıqabul rayonunda Seramik plitələr zavodu, Şirvan, Xaçmaz, Qax və Saatlıda Olimpiya İdman kompleksləri, Şabran rayonunda Vəlvələçay-Taxtakörpü kanalı, Taxtakörpü Su anbarı, Taxtakörpü Su Elektrik stansiyası, İsmayıllı rayonunda Tikiş fabriki, "İsmayıllı-1" Su Elektrik stansiyası, Ağcabədi rayonunda "Aqat-Aqro" Heyvandarlıq kompleksi və digər obyektlər istismara verilmişdir.

Dövlət büdcəsində tikinti üçün nəzərdə tutulmuş vəsaitin 2013-cü il ərzində 7506,8 milyon manatından istifadə olunmuşdur.

**Nəqliyyat.** Nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən il ərzində 218 milyon ton yük və 1,7 milyard nəfər sərnişin daşınmış, 2012-ci ilə nisbətən yük daşınması 3,4 faiz, sərnişin daşınması isə 8,0 faiz artmışdır. Yüklərin 10,7 faizi dəmir yolu, 57,4 faizi avtomobil nəqliyyatı, 26,6 faizi boru kəməri vasitəsilə, sərnişinlərin 87,9 faizi avtomobil nəqliyyatı, 11,8 faizi metropolitenlə daşınmışdır.

**İnformasiya və rabitə**. Rabitə müəssisələri əhaliyə, idarə və təşkilatlara 1528,1 milyon manatlıq rabitə xidməti göstərmiş və 2012-ci illə müqayisədə 10,7 faiz artmışdır. Rabitə

xidmətlərinin 902,5 milyon manatı və ya 59,1 faizi mobil rabitənin payına düşmüşdür.

**Ticarət və pullu xidmət**. 2013-cü ildə əhaliyə 19,7 milyard manatlıq istehlak malları satılmış və 9,9 faiz artmış, pullu xidmətlərin həcmi isə 8,2 faiz artaraq 6,5 milyard manata çatmışdır. İstehlak bazarından alınmış məhsulların 51,7 faizini ərzaq məhsulları, 48,3 faizini qeyri-ərzaq malları təşkil etmiş, ərzaq məhsullarının satışı 2,3 faiz, qeyri-ərzaq mallarının satışı isə 20,2 faiz artmışdır. İstehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədikləri vəsaitin 51,7 faizi qida məhsulları və içkilərin, 1,7 faizi tütün məmulatlarının, 19,3 faizi toxuculuq malları, geyim və ayaqqabının, 4,4 faizi elektrik malları və mebelin, 1,2 faizi kompyuter avadanlıqları, kitab və digər çap məmulatlarının, 1,2 faizi əczaçılıq və tibb mallarının, 6,4 faizi avtomobil yanacaqlarının, 14,1 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

2013-cü ildə ölkənin hər bir sakini ticarət şəbəkəsindən orta hesabla 2114,3 manatlıq və ya 2012-ci illə müqayisədə 200,7 manat çox müxtəlif istehlak malları almışdır.

**Xarici ticarət**. Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən yanvar-noyabr ayları ərzində ölkənin xarici ticarət dövriyyəsi 31,7 milyard dollar təşkil etmişdir. Əmtəə dövriyyəsinin 69,3 faizini və ya 22,0 milyard dollarını ölkədən ixrac olunmuş mallar, 30,7 faizini (9,7 milyard dollarını) isə idxal məhsulları təşkil etmiş, 12,3 milyard dollar məbləğində müsbət saldo yaranmışdır. Əmtəə mübadiləsinin 88,2 faizi uzaq xarici ölkələrlə, 11,8 faizi MDB üzvü dövlətləri ilə aparılmışdır.

Ölkəyə idxal olunmuş malların 76,2 faizi (7,4 milyard dolları) uzaq xarici dövlətlərdən, 23,8 faizi (2,3 milyard dolları) MDB üzvü ölkələrindən daxil olmuşdur.

İxrac olunmuş malların 93,6 faizi, yaxud 20,6 milyard dolları uzaq xarici ölkələrə, 6,4 faizi və ya 1,4 milyard dolları MDB üzvü dövlətlərinə göndərilmişdir. 2012-ci ilin müvafiq dövründəkindən daha çox çay, bitki yağları, şəkər, mineral və qazlı sular, meyvə-tərəvəz konservləri, təbii qaz və s. ixrac olunmuşdur.

Xarici ticarət əməliyyatları İtaliya, İndoneziya, Rusiya, Almaniya, Türkiyə, Tailand, Böyük Britaniya, Fransa, ABŞ, İsrail, Hindistan, Ukrayna dövlətləri ilə daha intensiv olmuşdur.

Yanvar-noyabr aylarında ölkəmizə 29,9 milyon dollarlıq humanitar və texniki yardım daxil olmuşdur.

Xam neftin ixracı barədə Dövlət Neft Şirkəti və ABƏŞ-in məlumatları nəzərə alınmaqla yanvar-noyabr aylarında xarici ticarət dövriyyəsi 39,7 milyard dollara, o cümlədən ixrac 30,0 milyard dollara bərabər olmuş və 20,3 milyard dollar məbləğində müsbət saldo yaranmışdır. 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsinin 4,0 faiz artması ilə yanaşı qeyri-neft məhsullarının ixracı da 7,4 faiz artmışdır.

**İstehlak qiymətləri və xidmət tarifləri.** İstehlak mallarının qiymətləri və xidmət tarifləri dekabr ayında noyabrla müqayisədə 1,9 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 2,6 faiz, qeyri-ərzaq mallarının qiymətləri 2,7 faiz, xidmət tarifləri isə 0,4 faiz bahalaşmışdır. 2013-cü ildə 2012-ci ilə nisbətən istehlak mallarının qiymətləri və xidmət tarifləri 2,4 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 2,2 faiz, qeyri-ərzaq mallarının qiymətləri 0,8 faiz, xidmət tarifləri 3,5 faiz bahalaşmışdır.

**Əmək haqqı**. Ölkənin iqtisadi və sosial sahələrində muzdla işləyənlərin orta aylıq əmək haqqı 2012-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 6,6 faiz çoxalaraq 419,0 manat təşkil etmişdir. İqtisadiyyatın ayrı-ayrı sahələrində işləyənlərin orta aylıq əmək haqqı daha yüksək olmuş və sənayedə 645,7 manat, tikinti kompleksində 616,8 manat, nəqliyyatda 532,2 manat, informasiya və rabitə sahəsində 671,3 manat təşkil etmişdir.

**Əhalinin gəlirləri** əvvəlki illə müqayisədə 8,0 faiz artaraq 37,6 milyard manata, hər nəfərə düşən məbləği isə 6,6 faiz artaraq 4039,6 manata çatmışdır. Gəlirlərin 64,3 faizi son istehlaka, 8,3 faizi vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə, 25,6 faizi isə əmanətlərin və kapitalın artırılmasına sərf olunmuşdur.

**Əhalinin əmanətləri**. Əhalinin banklardakı əmanətləri 2012-ci ilin on bir ayının göstəriciləri ilə müqayisədə 34,8 faiz artaraq 6,4 milyard manata çatmışdır. Əmanətlərin 3,9 milyard manatını və ya 61,6 faizini milli valyuta, 2,5 milyard manatını isə xarici valyuta təşkil etmiş, vəsaitin 4,8 milyard manatı özəl banklara qoyulmuşdur.

**Kredit qoyuluşu**. Yanvar-noyabr aylarında maliyyə-kredit təşkilatları tərəfindən ölkənin hüquqi və fiziki şəxslərinə verilmiş kreditlərin məbləği 30,0 faiz artaraq əvvəlki illərdə verilmiş kreditlər də nəzərə alınmaqla 15,2 milyard manata çatmışdır. Kreditlərin 77,6 faizi uzun müddətə verilmiş, 5,2 faizinin ödəmə vaxtı keçmişdir.

2014-cü ilin əvvəlinə **ölkə əhalisinin sayı** 9477,1 min nəfər təşkil edərək 2013-cü ilin əvvəlinə nisbətən 120,6 min nəfər və yaxud 1,3 faiz artmışdır.

**Manatın məzənnəsi**. 2013-cü ilin dekabr ayında manatın 1 ABŞ dollarına orta aylıq məzənnəsi 0,78 manat, 1 Avroya 1,07 manat, 100 Rusiya rubluna 2,39 manat, ilin əvvəlindən isə müvafiq olaraq 0,78, 1,04 və 2,47 manat olmuşdur.

# MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| | 2013-cü ildə faktiki, milyon manat | 2013-cü il 2012-ci ilə nisbətən, faizlə | Məlumat üçün 2012-ci il 2011-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|
| Ümumi daxili məhsul | 57 708,2 | 105,8 | 102,2 |
| o cümlədən qeyri-neft ÜDM-si | 32 637,9 | 110,0 | 109,7 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) ümumi həcmi | 33 696,7 | 101,8 | 97,7 |
| o cümlədən qeyri-neft sənayesi | 6 776,6 | 104,8 | 107,8 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər | 17 872,1 | 115,1 | 118,0 |
| o cümlədən qeyri-neft sektoruna | 13 047,3 | 112,1 | 118,3 |
| Kənd təsərrüfatı məhsulu | 5 244,6 | 104,9 | 106,6 |
| Nəqliyyat sektorunda yük daşınması, mlyn. ton | 218,0 | 103,4 | 103,5 |
| o cümlədən qeyri-neft yüklərinin daşınması | 153,8 | 107,0 | 107,5 |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 1 528,1 | 110,7 | 115,9 |
| Pərakəndə ticarət dövriyyəsi | 19 655,9 | 109,9 | 109,6 |
| Əhaliyə göstərilən pullu xidmətlər | 6 527,3 | 108,2 | 108,0 |
| Əhalinin gəlirləri | 37 555,5 | 108,0 | 113,9 |
| Hər nəfərə düşən gəlirlər, manat | 4 039,6 | 106,6 | 112,4 |
| Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı, manat | 419,0[x)] | 106,6[xx)] | 109,5[xxx)] |
| İstehlak qiymətlərinin indeksi | x | 102,4 | 101,1 |

...ardı

| | 2013-cü ildə faktiki, milyon manat | 2013-cü il 2012-ci ilə nisbətən, faizlə | Məlumat üçün 2012-ci il 2011-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|
| **Statistika məlumatı[1)]** | | | |
| Xarici ticarət dövriyyəsi, mlyn. ABŞ $ | 39 702,9[x)] | 104,0[3)] | x |
| o cümlədən: ixrac | 29 974,3[x)] | 101,0[3)] | x |
| ondan qeyri-neft məhsulu ixracı | 1 615,2[x)] | 107,4[3)] | 110,0[4)] |
| idxal | 9 728,6[x)] | 113,2[3)] | 97,2[4)] |
| **Gömrük məlumatı[2)]:** | | | |
| Xarici ticarət dövriyyəsi, mlyn. ABŞ $ | 31 721,8[x)] | 107,4[3)] | 88,7[4)] |
| o cümlədən: ixrac | 21 993,2[x)] | 104,9[3)] | 85,5[4)] |
| idxal | 9 728,6[x)] | 113,2[3)] | 97,2[4)] |

Qeyd:

[1)] Ölkə sərhədini keçərək faktiki ixrac olunmuş, lakin hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməyən xam neft və təbii qazın həcmi və statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla.

[2)] Xam neft və təbii qaz ixracında gömrük rəsmiləşdirilməsi tarixi ilə bu məhsulların faktiki ixrac tarixi (ölkə sərhədini keçmə tarixi) üst-üstə düşmədiyi üçün ölkə üzrə ixracın ümumi həcminə ixrac edilmiş xam neft və təbii qazın hesabat dövründə gömrük orqanlarında yalnız rəsmiləşdirilən həcminə dair məlumatlar daxil edilmişdir.

[3)]2013-cü ilin yanvar-noyabrı 2012-ci ilin yanvar-noyabrına nisbətən, müqayisəli qiymətlərlə;

[4)] 2012-ci ilin yanvar-noyabrı 2011-ci ilin yanvar-noyabrına nisbətən, müqayisəli qiymətlərlə;

[x)] 2013-cü ilin yanvar-noyabrı;

[xx)] 2013-cü ilin yanvar-noyabrı 2012-ci ilin yanvar-noyabrına nisbətən;

[xxx)] 2012-ci ilin yanvar-noyabrı 2011-ci ilin yanvar-noyabrına nisbətən.

# Ümumi Daxili Məhsul

İlkin hesablamalara görə 2013-cü ildə ölkədə istehsal olunmuş ümumi daxili məhsul əvvəlki ilə nisbətən 5,8 faiz artaraq 57,7 milyard manata çatmışdır. ÜDM-nin hər nəfərə düşən həcmi 6207,3 manat (7912,5 ABŞ dolları) təşkil etmiş və 4,4 faiz artmışdır.

Bu dövrdə cari qiymətlərlə 84,8 milyard manatlıq məhsul və xidmətlər istehsal olunmuş, məhsul istehsalına sərf edilmiş mal və xidmətlərin dəyəri 27,1 milyard manat və ya məhsul və xidmətlər buraxılışının 32,0 faizini təşkil etmişdir.

Yola saldığımız ildə iqtisadiyyatın qeyri-neft sektoru 10,0 faiz artmış, onun ÜDM-də xüsusi çəkisi əvvəlki ildəki 53,5 faizdən 56,6 faizədək yüksəlmişdir. Ümumi daxili məhsulun 43,4 faizi neft-qaz istehsalı və emalı sahələrinin payına düşmüş və əvvəlki ilə nisbətən 1,0 faiz artmışdır.

2013-cü ildə sənayenin qeyri-neft sahələrində əlavə dəyər 4,2 faiz, tikintidə 23,0 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 16,0 faiz, informasiya və rabitədə 10,7 faiz, ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində 9,9 faiz, nəqliyyat və anbar təsərrüfatında 6,3 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, sosial və digər xidmətlər sahələrinin hər birində 4,9 faiz artmışdır.

ÜDM-in 46,3 faizi sənayedə, 11,8 faizi tikintidə, 7,1 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində, 5,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda, 4,8 faizi nəqliyyat və anbar təsərrüfatında, 1,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə xidmətləri sahəsində, 1,8 faizi informasiya və rabitədə, 14,7 faizi sosial və digər xidmət sahələrində istehsal olunmuş, məhsula və idxala görə ödənilmiş xalis vergilərin payı 6,4 faiz təşkil etmişdir.

# Ümumi daxili məhsul istehsalı

milyon manat

| | 2013 | 2012* | 2013-cü il 2012-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|
| **Ümumi Daxili Məhsul** | **57708,2** | **54743,7** | **105,8** |
| **Məhsulların istehsalı** | **36588,2** | **35394,7** | **104,9** |
| o cümlədən: Sənaye | 26701,5 | 27073,1 | 101,2 |
| ondan: – mədənçıxarma sənayesi | 23078,7 | 23605,9 | 100,7 |
| – emal sənayesi | 2439,6 | 2318,7 | 105,8 |
| – elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 1111,3 | 1082,2 | 103,2 |
| – su təchizatı, tullantıların təmizlənməsi və emalı | 71,9 | 66,3 | 111,6 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 3057,8 | 2813,7 | 104,9 |
| Tikinti | 6828,9 | 5507,9 | 123,0 |
| **Xidmətlərin istehsalı** | **17429,7** | **15957,0** | **107,2** |
| o cümlədən: Ticarət; nəqliyyat vasitələrinin təmiri | 4092,0 | 3654,0 | 109,9 |
| Nəqliyyat və anbar təsərrüfatı | 2781,6 | 2693,6 | 106,3 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1055,6 | 897,4 | 116,0 |
| İnformasiya və rabitə | 1008,5 | 945,1 | 110,7 |
| Sosial və digər xidmətlər | 8492,0 | 7766,9 | 104,9 |
| **Məhsula və idxala xalis vergilər** | **3690,3** | **3392,0** | **108,5** |
| **Deflyator** | **99,6** | **102,9** | **x** |

## Neft və qeyri-neft sektorlarında ümumi daxili məhsul istehsalı

milyon manat

| | 2013 | 2012* | 2013-cü il 2012-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|
| **Ümumi Daxili Məhsul** | **57708,2** | **54743,7** | **105,8** |
| o cümlədən: | | | |
| – neft sektoru | 25070,3 | 25481,7 | 101,0 |
| – qeyri-neft sektoru | 32637,9 | 29262,0 | 110,0 |

*) 2012-ci ilin göstəriciləri ilin yekun məlumatları əsasında dəqiqləşdirilmişdir.

## 2013-cü ildə ümumi daxili məhsulun strukturu



## Sənaye

2013-cü ildə sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 33,7 milyard manat təşkil edərək əvvəlki illə müqayisədə 1,8 faiz artmışdır. Qeyri-neft bölməsində 4,8 faizlik, neft bölməsində isə 1,1 faizlik artım müşahidə olunmuşdur. Sənaye məhsulunun 74,0 faizi mədənçıxarma, 20,1 faizi emal, 5,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində istehsal olunmuşdur.

Özəl bölmədə istehsalın həcmi sənaye məhsulunun 81,4 faizini təşkil etmiş, ümumi istehsalın 93,1 faizi sənaye mallarının (əmtəələrin) istehsalı, 6,9 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

**Sənaye məhsulu istehsalı indeksləri,**
sabit qiymətlərlə, faizlə

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, artan yekunla |
|---|---|---|
| **2012** | | |
| Yanvar | 115,9 | 100,0 |
| Fevral | 92,0 | 100,2 |
| Mart | 108,6 | 99,7 |
| Aprel | 94,0 | 97,4 |
| May | 106,8 | 97,1 |
| İyun | 92,8 | 97,0 |
| İyul | 103,2 | 97,2 |
| Avqust | 99,5 | 96,7 |
| Sentyabr | 85,2 | 96,5 |
| Oktyabr | 98,0 | 96,1 |
| Noyabr | 105,1 | 96,7 |
| Dekabr | 111,5 | 97,7 |
| **2013** | | |
| Yanvar | 107,2 | 100,1 |
| Fevral | 91,1 | 99,6 |
| Mart | 104,7 | 98,2 |
| Aprel | 100,8 | 99,3 |
| May | 106,0 | 99,8 |
| İyun | 94,2 | 100,3 |
| İyul | 100,5 | 100,4 |

…ardı

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, artan yekunla |
|---|---|---|
| Avqust | 100,8 | 100,6 |
| Sentyabr | 87,4 | 100,9 |
| Oktyabr | 101,2 | 101,5 |
| Noyabr | 100,1 | 101,7 |
| Dekabr | 111,3 | 101,8 |

## Sənayenin bölmələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | | |
|---|---|---|---|---|
| | mədənçıxarma sənayesi | emal sənayesi | elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | su təchizatı, tullantıların təmizlənməsi və emalı |
| **2012-ci il** | | | | |
| Yanvar | 97,2 | 107,9 | 125,3 | 111,6 |
| Yanvar-fevral | 96,4 | 124,1 | 114,8 | 110,1 |
| Yanvar-mart | 96,4 | 121,9 | 110,4 | 107,1 |
| Yanvar-aprel | 94,7 | 115,5 | 105,6 | 105,0 |
| Yanvar-may | 94,6 | 114,6 | 103,4 | 102,5 |
| Yanvar-iyun | 94,6 | 113,6 | 104,3 | 104,8 |
| Yanvar-iyul | 95,2 | 110,3 | 105,0 | 103,1 |
| Yanvar-avqust | 94,5 | 108,9 | 107,4 | 102,7 |
| Yanvar-sentyabr | 94,3 | 107,9 | 108,8 | 102,6 |
| Yanvar-oktyabr | 93,8 | 107,6 | 111,0 | 102,5 |
| Yanvar-noyabr | 94,5 | 107,5 | 111,3 | 102,3 |
| Yanvar-dekabr | 95,8 | 105,4 | 111,6 | 101,3 |
| **2013-cü il** | | | | |
| Yanvar | 98,2 | 113,8 | 102,8 | 98,4 |
| Yanvar-fevral | 97,4 | 115,5 | 101,1 | 101,4 |
| Yanvar-mart | 96,2 | 110,4 | 101,0 | 102,0 |
| Yanvar-aprel | 97,7 | 110,2 | 99,8 | 107,5 |
| Yanvar-may | 98,4 | 108,8 | 100,2 | 104,2 |
| Yanvar-iyun | 99,1 | 109,0 | 100,0 | 106,3 |
| Yanvar-iyul | 99,2 | 108,0 | 100,1 | 108,9 |
| Yanvar-avqust | 99,6 | 106,0 | 99,7 | 109,4 |
| Yanvar-sentyabr | 99,7 | 105,3 | 100,2 | 110,8 |
| Yanvar-oktyabr | 100,8 | 105,0 | 100,9 | 111,6 |
| Yanvar-noyabr | 101,0 | 105,2 | 102,9 | 110,3 |
| Yanvar-dekabr | 100,7 | 105,8 | 103,2 | 111,6 |

İstehsal edilmiş sənaye məhsulunun əksər hissəsi istehlakçılara göndərilmiş, müəssisələrin anbarlarında 251,3 milyon manatlıq məhsul ehtiyatı qalmışdır.

Ehtiyatların 65,0 faizi Bakı, 9,6 faizi Sumqayıt, 1,6 faizi Gəncə, 1,4 faizi Şirvan və 0,3 faizi Mingəçevir şəhərlərinin, qalan hissəsi isə digər rayonların sənaye müəssisələrinin anbarlarında qalmışdır. Sənaye müəssisələrinin anbarlarında satış üçün nəzərdə tutularaq başqa müəssisələrdən alınmış 18,2 milyon manatlıq digər mallar da mövcud olmuşdur.

## Sənayenin fəaliyyət növləri üzrə məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2013-cü ildə istehsal edilmişdir, milyon manat | Əvvəlki ilə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| **CƏMİ *)** | 33 696,7 | 101,8 |
| o cümlədən:<br>**dövlət sektoru** | 6 262,3 | 105,1 |
| **qeyri-dövlət sektoru** | 27 434,4 | 101,1 |
| **Mədənçıxarma sənayesi** | 24 938,2 | 100,7 |
| **Emal sənayesi** | 6 769,2 | 105,8 |
| o cümlədən:<br>qida məhsullarının istehsalı | 2 584,2 | 104,2 |
| içki istehsalı | 185,4 | 113,6 |
| tütün məmulatlarının istehsalı | 13,1 | 70,5 |
| toxuculuq sənayesi | 46,8 | 77,3 |
| geyim istehsalı | 27,2 | 79,7 |
| dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 19,9 | 130,9 |
| ağac emalı və ağacdan məmulatların istehsalı | 3,6 | 97,9 |
| kağız və karton istehsalı | 17,2 | 92,4 |
| poliqrafiya fəaliyyəti | 41,7 | 143,4 |
| neft məhsullarının istehsalı | 2 090,0 | 106,2 |
| kimya sənayesi | 200,2 | 119,5 |
| əczaçılıq məhsullarının istehsalı | 2,6 | 112,8 |
| rezin və plastmas məmulatların istehsalı | 67,7 | 92,7 |
| tikinti materiallarının istehsalı | 345,4 | 121,0 |
| metallurgiya sənayesi | 303,4 | 101,5 |

…ardı

| Fəaliyyət növlərinin adı | 2013-cü ildə istehsal edilmişdir, milyon manat | Əvvəlki ilə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| hazır metal məmulatlarının istehsalı | 97,3 | 53,2 |
| kompyuter və digər elektron avadanlıqların istehsalı | 106,0 | 72,4 |
| elektrik avadanlıqlarının istehsalı | 131,3 | 114,6 |
| maşın və avadanlıqların istehsalı | 246,5 | 125,1 |
| avtomobil və qoşquların istehsalı | 3,7 | 128,9 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 12,5 | 2,3 d. |
| mebel istehsalı | 35,7 | 101,0 |
| zərgərlik, musiqi, idman və tibb avadanlıqlarının istehsalı | 6,2 | 111,6 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 181,6 | 131,3 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | 1 770,6 | 103,2 |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | 218,7 | 111,6 |

*) ev təsərrüfatlarında sənaye məhsulu istehsalının, habelə hüquqi şəxs yaratmadan fərdi sahibkar kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işinin qiymətləndirilməsi də nəzərə alınmaqla

**Mədənçıxarma bölməsində** istehsalın həcmi 24,9 milyard manat olmaqla əvvəlki ilin səviyyəsini 0,7 faiz üstələmişdir.

Sahənin əsas məhsulu olan xam neft hasilatı 43,1 milyon ton olmaqla 0,2 faiz, əmtəəlik təbii qaz hasilatı isə 17,9 milyard kub metr təşkil etməklə 3,6 faiz artmışdır.

**Neft və qaz hasilatının aylıq dinamikası**




Mədənçıxarma bölməsində fəaliyyət göstərən sahibkarlar tərəfindən yanvar-dekabr aylarında 2,0 milyon ton tikinti qumu, 382,1 min ton inşaat üçün əhəng daşı, 1,6 ton qızıl, 630,0 kq gümüş və s. istehsal edilmişdir.

**Emal bölməsinin** müəssisələri və fərdi sahibkarları (ev təsərrüfatlarının sənaye istehsalı da nəzərə alınmaqla) tərəfindən 6,8 milyard manat dəyərində və ya əvvəlki ilə nisbətən 5,8 faiz çox məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

**Qida və içki istehsalı** müəssisələri tərəfindən 2,8 milyard manat həcmində məhsul istehsal edilmiş, əvvəlki illə müqayisədə qida məhsullarının istehsalında 4,2 faiz, içki istehsalında isə 13,6 faiz artım müşahidə olunmuşdur. Bu sahələrin əsas məhsullarından qənd və şəkər tozunun istehsalı 16,6 faiz artaraq 414,1 min ton, üzlü süd istehsalı 1,3 faiz artaraq 830,4 min ton, pendir və kəsmik istehsalı 1,2 faiz artaraq 47,5 min ton, pivə istehsalı 10,0 faiz artaraq 5,3 mlyn. dkl, alkoqolsuz içkilərin istehsalı 6,8 faiz artaraq 25,9 mlyn. dkl təşkil etmişdir.

**Qida məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




**Toxuculuq, geyim, dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı** sahələri üzrə ixtisaslaşan müəssisələr tərəfindən əsas növ məhsul kimi 11,3 min ton pambıq lifi, 15,5 min ton pambıq iplik, 447,2 min kv. metr pambıq parça, 4,5 milyon cüt corab məmulatları, 287,1 min cüt üstü dəridən olan ayaqqabılar və s. olmaqla 93,9 milyon manatlıq məhsul istehsal edilmişdir. 2014-cü il yanvarın 1-nə sahə müəssisələrinin anbarlarında 27,2 milyon manatlıq və ya ölkə sənayesi üzrə olan hazır məhsul ehtiyatının 10,8 faizi qədər hazır məhsul qalığı mövcud olmuşdur.

**Neft məhsullarından** avtomobil benzininin istehsalı 8,5 faiz, ağ neftin 12,2 faiz, dizel yanacağının 5,3 faiz, neft bitumunun istehsalı 8,6 faiz artmışdır. Neft emalı müəssisələrinin anbarlarında 38,1 milyon manatlıq və ya ölkə sənayesi üzrə olan hazır məhsul ehtiyatının 15,1 faizi qədər hazır məhsul qalmışdır.

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastmas məmulatların istehsalı** müəssisələri tərəfindən 270,5 milyon manatlıq məhsul istehsal edilmişdir. Əvvəlki illə müqayisədə kimya sənayesində 19,5 faiz, əczaçılıq məhsullarının istehsalında 12,8 faiz artım, rezin və plastmas məmulatların istehsalında isə 7,3 faiz azalma müşahidə olunmuşdur. Əsas kimya məhsullarından izopropil spirtinin istehsalı 1,9 dəfə,

polietilenin istehsalı 13,9 faiz və lak-boya məmulatlarının istehsalı 20,3 faiz, propilenin istehsalı isə 6,0 faiz artmışdır. Rezin və plastmas məmulatlarından polimer örtüklərin istehsalı 45,8 faiz, məsaməli poliuretan lövhələrin istehsalı 2,6 faiz və polietilen boruların istehsalı 0,2 faiz artmışdır.

**Kimya məhsulu istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




**Tikinti materialları sənayesi** müəssisələri tərəfindən istehsal edilmiş məhsulun həcmi 21,0 faiz artaraq 345,4 milyon manat təşkil etmiş, o cümlədən sement istehsalı 3,8 faiz artaraq 2,0 milyon ton, tikinti gipsi 14,3 faiz artaraq 170,4 min ton, tikinti kərpici 1,6 dəfə artaraq 393,8 min kub metr, hörmə üçün hazır beton qarışığı 12,2 faiz artaraq 1373,4 min ton olmuşdur. 2014-cü il yanvarın 1-nə müəssisələrin anbarlarında 17,4 milyon manat həcmində və ya ölkə sənayesi üzrə olan hazır məhsul ehtiyatının 6,9 faizi qədər hazır məhsul ehtiyatı olmuşdur.

**Tikinti materialları istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı** müəssisələrində 400,7 milyon manatlıq məhsul istehsal olunmuş və xidmətlər göstərilmiş, istehsalın həcmi metallurgiya sənayesində 1,5 faiz artmış, hazır metal məmulatlarının istehsalı sahəsində isə 46,8 faiz azalmışdır. İl ərzində sahə üzrə 1,9 min ton və ya 49,7 faiz çox çuqun tökmə, 377,7 ton və ya 2,3 dəfə çox alüminium çubuqlar, millər və profillər, 8,0 min ton və ya 1,9 dəfə çox qara metallardan konstruksiyalar, 234,8 min ton və ya 4,1 faiz az armatur istehsal edilmişdir.

**Kompyuter, elektron və elektrik avadanlıqlarının istehsalı** sahəsində məhsul istehsalının həcmi 237,3 milyon manat olmuşdur. Əvvəlki illə müqayisədə kompyuter və digər elektron avadanlıqlarının istehsalı 27,6 faiz azalmış, elektrik avadanlıqlarının istehsalı isə 14,6 faiz artmışdır. İl ərzində 173 ədəd güc transformatoru, 6,7 min ədəd məişət soyuducusu, 24,4 min ədəd televizor istehsal edilmiş, əvvəlki illə müqayisədə məişət soyuducularının və televizorların istehsalı müvafiq olaraq 29,0 faiz və 1,7 faiz artmışdır. 2014-cü il yanvarın 1-nə müəssisələrin anbarlarında 21,2 milyon manat həcmində və ya ölkə sənayesi üzrə olan hazır məhsul ehtiyatının 8,4 faizi qədər hazır məhsul ehtiyatı qalmışdır.

**Maşın və avadanlıqların istehsalı, nəqliyyat vasitələri, avtomobil və qoşquların istehsalı** sahələrində məhsul istehsalının həcmi 262,7 milyon manat olmaqla 246 ədəd yük avtomobili, 424 ədəd minik avtomobili, 739 ədəd traktor və s. məhsullar istehsal edilmişdir. İstehsalçı müəssisələrin anbarlarında 28,0 milyon manat həcmində və ya ölkə sənayesi üzrə olan hazır məhsul ehtiyatının 11,1 faizi qədər hazır məhsul ehtiyatı qalmışdır.

**Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin** müəssisələri tərəfindən cari il ərzində 1,8 milyard manat həcmində məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir. Əvvəlki illə müqayisədə sahədə 3,2 faizlik artım əldə olunmuşdur. Ölkədə 20,6 milyard kVt-saat elektrik enerjisi istehsal olunmuş, onun 6,6 faizi su elektrik stansiyalarının, 93,4 faizi isə istilik elektrik stansiyalarının payına düşmüşdür.

**Su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində** məhsul və xidmətlərin istehsalı 11,6 faiz artmışdır.

**Sənayedə istehsal olunmuş əsas məhsul növləri**

| Məhsul növləri | 2013-cü ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Xam neft və təbii qaz hasilatı** | | | |
| Xam neft (qaz kondensatı daxil olmaqla), min ton | 43 083,3 | 100,2 | 198,4 |
| Təbii qaz (əmtəəlik), milyon kub metr | 17 857,6 | 103,6 | - |
| **Metal filizlərinin hasilatı** | | | |
| Dəmir filizi, min ton | 141,4 | 68,2 | 38,1 |
| Mis filizləri və konsentratları, ton | 342,0 | 67.8 | 293,3 |
| Qiymətli metal filizləri və konsentratları, kq | 2249.2 | 102,8 | 71,9 |
| o cümlədən : qızıl | 1 619,2 | 103,6 | 52,5 |
| gümüş | 630,0 | 100,7 | 19,4 |

…ardı…

| Məhsul növləri | 2013-cü ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Daş, qum, çınqıl, duz və digər mədənçıxarma sənayesi məhsullarının hasilatı** | | | |
| Tikinti qumu (ümumi), min ton | 2 014,4 | 93,5 | 32,8 |
| İnşaat üçün əhəng daşı, min ton | 382,1 | 100,0 | 980,0 |
| Çınqıl, qırmadaş, xırda çay daşı və çaxmaq daşı (ümumi), min ton | 1 774,3 | 43,7 | 174,6 |
| Duz (ümumi), min ton | 30,6 | 106,7 | 0,1 |
| **Qida məhsullarının istehsalı** | | | |
| Ət (quş əti daxil olmaqla), min ton | 284,5 | 102,6 | - |
| Kolbasa məmulatları, ton | 1 749,6 | 87,3 | 1,0 |
| Üzlü süd, min ton | 830,4 | 101,3 | 0,6 |
| Qaymaq və xama, ton | 4 559,2 | 102,2 | 0 |
| Pendir və kəsmik, min ton | 47,5 | 101,2 | 0,1 |
| Kərə yağı, min ton | 22,0 | 100,6 | 0,1 |
| Cem və marmeladlar, ton | 10 683,9 | 94,9 | 766,9 |
| Təmizlənmiş duru bitki yağları, ton | 53 035,6 | 84,0 | 872,3 |
| Marqarin, min ton | 24,5 | 106,3 | - |
| Qənd və şəkər tozu, min ton | 414,1 | 116,6 | 1,2 |
| Çörək və çörək-bulka məmulatları, min ton | 741,8 | 101,0 | - |
| **İçki istehsalı** | | | |
| Şampan şərabı, min dkl | 16,0 | 28,4 | 4,5 |
| Araq, min dkl | 726,7 | 104,4 | 56,4 |
| Üzüm şərabı, min dkl | 797,3 | 62,3 | 711,3 |
| Pivə, min dkl | 5 323,6 | 110,0 | 195,9 |
| Brendi (konyak), min dkl | 71,3 | 81,7 | 23,7 |
| Alkoqolsuz içkilər, min dkl | 25 858,1 | 106,8 | 686,9 |
| **Tütün məmulatlarının istehsalı** | | | |
| Fermentləşdirilmiş tütün, ton | 2 112,0 | 107,6 | - |
| Papiros və siqaretlər, milyon ədəd | 1 006,8 | 57,1 | 31,4 |
| **Toxuculuq sənayesi** | | | |
| Pambıq lifi, ton | 11 324,5 | 52,2 | 6 961,6 |
| Hazır pambıq parçalar, min kv.m | 447,2 | 214,1 | 383,1 |
| Pambıq iplik, ton | 15 453,7 | 101,0 | 1138,8 |

…ardı…

| Məhsul növləri | 2013-cü ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Corab məmulatları, min cüt | 4 499,3 | 80,2 | 9,0 |
| Pambıq yataq ağları, min ədəd | 269,0 | 64,0 | 0,8 |
| **Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı** | | | |
| Dəri, min kv.m | 865,6 | 99,2 | 291,2 |
| Üstü dəridən olan ayaqqabılar, min cüt | 287,1 | 78,1 | 46,7 |
| **Neft məhsullarının istehsalı** | | | |
| Avtomobil benzini, min ton | 1 407,2 | 108,5 | 26,7 |
| Neft-kimya sənayesində istifadə üçün benzin, min ton | 125,0 | 84,2 | 2,1 |
| Ağ neft, min ton | 703,0 | 112,2 | 26,7 |
| Dizel yanacağı, min ton | 2 495,2 | 105,3 | 48,7 |
| Sürtkü yağları, min ton | 46,8 | 74,4 | 7,3 |
| Neft bitumu, min ton | 312,7 | 108,6 | 5,1 |
| **Kimya sənayesi** | | | |
| Yod, ton | 249,1 | 103,6 | 23,3 |
| Barium sulfat, min ton | 59,2 | 99,8 | 5,1 |
| Propilen, min ton | 29,1 | 106,0 | 0,6 |
| Polietilen, min ton | 76,0 | 113,9 | 1,1 |
| İzopropil spirti (mütləq), min ton | 13,8 | 190,8 | 0,7 |
| Lak-boya məmulatları, ton | 4 172,7 | 120,3 | 55,0 |
| **Rezin və plastmas məmulatların istehsalı** | | | |
| Bərk polietilen borular, borucuqlar, şlanqlar, qollar, ton | 27 332,6 | 100,2 | 1 555,5 |
| Liflə armaturlaşdırılmış sair bərk plastik borular, borucuqlar, qollar, şlanqlar, ton | 920,1 | 49,6 | 47,9 |
| Məsaməli poliuretan lövhələri və zolaqları, ton | 643,0 | 102,6 | 26,2 |
| Rezin lövhələr, təbəqələr və zolarlar, ton | 13,6 | 65,1 | 161,8 |
| Polimer örtüklər, ton | 29,3 | 145,8 | 20,8 |
| Butullar, butulkalar və həcmi 2 litrdən çox olmayan oxşar plastik məmulatlar, min ədəd | 8 629,5 | 22,4 | 7 178,4 |
| Plastik yemək və mətbəx qabları, ton | 199,8 | 93,7 | 12,3 |

…ardı…

| Məhsul növləri | 2013-cü ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Tikinti materiallarının istehsalı** | | | |
| Sement, min ton | 2 039,9 | 103,8 | 17,8 |
| Tikinti gipsi, min ton | 170,4 | 114,3 | 1,6 |
| Betondan yığma tikinti konstruksiyaları, min kub m | 27,8 | 72,0 | 1,2 |
| Emal edilmiş mərmər, travertin, alebastr və onlardan məmulatlar, ton | 1 291,4 | 362,0 | - |
| Asfalt (ümumi), min ton | 382,5 | 68,4 | - |
| Hörmə üçün hazır beton qarışığı (ümumi), min ton | 1 373,4 | 112,2 | - |
| Tikinti kərpici (ümumi), min kub-metr | 393,8 | 157,8 | 13,0 |
| **Metallurgiya sənayesi** | | | |
| Çuqun tökmə, ton | 1 885,4 | 149,7 | 714,6 |
| Polad tökmə, min ton | 219,9 | 96,0 | - |
| Qeyri-cins poladdan dəstələr şəklində katankalar (armatur), min ton | 234,8 | 95,9 | 3,5 |
| Polad borular, min ton | 60,8 | 98,4 | - |
| Alüminium çubuqlar, millər və profillər, ton | 377,7 | 228,4 | 214,9 |
| **Hazır metal məmulatlarının istehsalı** | | | |
| Mayelər üçün çənlər, sisternlər, baklar, ton | 380,2 | 68,2 | 84,2 |
| Qara metallardan sair konstruksiyalar, ton | 8 017,5 | 185,3 | 1179,6 |
| Metallardan qapı və pəncərə, ədəd | 2 046 | 81,5 | - |
| Misdən elektrik izolyasiyası olmayan çoxdamarlı məftil, tros və kabellər, ton | 12 148,5 | 125,0 | - |
| **Kompyuter, elektron və elektrik avadanlıqlarının istehsalı** | | | |
| Meteorologiya məqsədləri üçün sair elektron cihazlar, min ədəd | 59,8 | 105,1 | 1,9 |

…sonu

| Məhsul növləri | 2013-cü ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Qəbuledici qurğuları olmayan radio və televiziya verişləri aparatları, ədəd | 6 733 | 86,1 | 1 166 |
| Güc transformatorları, ədəd | 173 | 91,1 | - |
| Televizorlar, ədəd | 24 372 | 101,7 | 3 615 |
| Məişət soyuducuları, ədəd | 6 662 | 129,0 | 1 016 |
| **Maşın və avadanlıqların istehsalı, avtomobil və qoşquların istehsalı** | | | |
| Ştanqlı quyu nasosları, ədəd | 6 118 | 105,7 | 493 |
| Elektrik ötürücüsü olan liftlər və skip qaldırıcıları, ədəd | 66 | 108,2 | 85 |
| Mancanaq dəzgahları, ədəd | 239 | 185,3 | 102 |
| Məişət kondisionerləri, ədəd | 9 435 | 164,8 | 2 145 |
| Dondurulmuş ərzaq məhsullarına saxlanması üçün soyuducu vitrinlər və piştaxtalar, ədəd | 434 | 180,1 | - |
| Traktorlar, ədəd | 739 | 119,6 | - |
| Kotanlar, ədəd | 706 | 138,2 | - |
| Yük avtomobilləri, ədəd | 246 | 152,8 | 2 |
| Minik avtomobilləri, ədəd | 424 | 78,2 | 167 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | | | |
| Elektrik enerjisi (əmtəəlik), milyon kVt-saat | 20 629,5 | 100,6 | - |
| su elektrik stansiyalarının istehsalı | 1 369,5 | 78,3 | - |
| istilik elektrik stansiyalarının istehsalı | 19 260,0 | 102,7 | - |
| **Su təchizatı; tullantıların təmizlənməsi və emalı** | | | |
| Suyun təmizlənməsi və bölüşdürülməsi, milyon kub-metr | 254,8 | 104,1 | - |

*) Qeyd. Ümumi və əmtəəlik məhsul göstəriciləri arasındakı fərq istehsalçılar tərəfindən hazır məhsulun bir qisminin öz istehsal ehtiyaclarının ödənilməsinə yönəldilməsi ilə izah olunur.

2013-cü ilin yanvar-noyabr aylarında ölkənin sənaye sahələrində çalışan muzdlu işçilərin sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,1 faiz artaraq 182,8 min nəfər təşkil etmiş, onların orta aylıq əmək haqqı 8,0 faiz yüksələrək 645,7 manat olmuşdur. İşçilərin 37,6 min nəfəri mədənçıxarma, 91,4 min nəfəri emal, 30,1 min nəfəri elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 23,7 min nəfəri isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində cəmləşmişdir.

**Sənaye işçilərinin sayının sahə bölgüsü, yekuna nisbətən**




**B** – Mədənçıxarma sənayesi; **C** – Emal sənayesi;
**D** – Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı;
**E** – Su təchizatı, tullantıların təmizlənməsi və emalı.

Əmək haqlarının daha çox artımı emal bölməsində elektrik avadanlıqlarının, dəri və dəri məmulatlarının, sair nəqliyyat vasitələrinin, geyim, qida məhsullarının, içki, kağız və karton, ağac emalı və ağacdan məmulatların, tikinti materiallarının, mebel, neft məhsullarının, zərgərlik, musiqi, idman və tibb avadanlıqlarının, metallurgiya, rezin və plastmas məmulatların istehsalı müəssisələrində müşahidə olunmuşdur. Qeyri-dövlət bölməsində işçilərin orta aylıq əmək haqqı 8,0 faiz artaraq 749,6 manat təşkil etmişdir.

## Sənayenin fəaliyyət növləri üzrə bir işçinin orta aylıq əmək haqqı, manat

| | 2013-cü il yanvar-noyabr | 2012-ci il yanvar-noyabr | 2012-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Sənaye üzrə - cəmi** | **645,7** | **598,1** | **108,0** |
| **Mədənçıxarma sənayesi** | **1 511,8** | **1 399,2** | **108,0** |
| **Emal sənayesi** | **435,4** | **397,1** | **109,6** |
| o cümlədən: qida məhsullarının istehsalı | 307,4 | 253,4 | 121,3 |
| içki istehsalı | 370,4 | 315,4 | 117,4 |
| tütün məhsullarının istehsalı | 316,6 | 310,6 | 101,9 |
| toxuculuq sənayesi | 249,8 | 258,9 | 96,5 |
| geyim istehsalı | 362,4 | 283,0 | 128,1 |
| dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 472,3 | 345,5 | 136,7 |
| ağac emalı və ağacdan istehsalı məmulatların | 494,3 | 435,0 | 113,6 |
| kağız və karton istehsalı | 454,2 | 391,5 | 116,0 |
| poliqrafiya fəaliyyəti | 303,4 | 276,1 | 109,9 |
| neft məhsullarının istehsalı | 733,5 | 660,0 | 111,1 |
| kimya sənayesi | 461,4 | 438,9 | 105,1 |
| əczaçılıq məhsullarının istehsalı | 336,8 | 337,1 | 99,9 |
| rezin və plastmas məmulatların istehsalı | 343,4 | 312,7 | 109,8 |
| tikinti materiallarının istehsalı | 552,4 | 488,5 | 113,1 |
| metallurgiya sənayesi | 603,4 | 546,4 | 110,4 |
| hazır metal məmulatlarının istehsalı | 460,3 | 646,9 | 71,2 |
| kompyuter və digər elektron avadanlıqların istehsalı | 356,4 | 335,1 | 106,4 |
| elektrik avadanlıqlarının istehsalı | 468,7 | 239,2 | 195,9 |
| maşın və avadanlıqların istehsalı | 343,3 | 316,7 | 108,4 |
| avtomobil və qoşquların istehsalı | 231,8 | 246,2 | 94,2 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 368,9 | 274,5 | 134,4 |
| mebel istehsalı | 328,4 | 290,0 | 113,2 |

…ardı

| | 2013-cü il yanvar-noyabr | 2012-ci il yanvar-noyabr | 2012-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| zərgərlik, musiqi, idman və tibb avadanlıqlarının istehsalı | 266,0 | 240,3 | 110,7 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 621,1 | 664,2 | 93,5 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | **463,3** | **438,1** | **105,8** |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | **315,4** | **272,2** | **115,9** |

# Tikinti

## Əsas kapitala yönəldilmiş vəsaitlər

2013-cü ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17872,1 milyon manat vəsait yönəldilmiş, onun 66,3 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir. Əvvəlki illə müqayisədə əsas kapitala yönəldilmiş vəsaitin həcmi 15,1 faiz, tikinti-quraşdırma işlərinə sərf edilmiş vəsaitin həcmi 25,0 faiz artmışdır. Dövlət mülkiyyətində olan müəssisə və təşkilatlar əsas kapitala 10326,3 milyon manat, qeyri-dövlət müəssisələri isə 7545,8 milyon manat vəsait sərf etmişlər. Məhsul istehsalı obyektlərinin inşasında 8635,7 milyon manat, xidmət sahələri üzrə obyektlərin tikintisində 9236,4 milyon manat vəsait istifadə edilmişdir.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi əvvəlki illə müqayisədə 11,9 faiz artaraq ümumi sərmayənin 76,7 faizini təşkil etmiş, onun 70,7 faizi dövlət, 29,3 faizi isə qeyri-dövlət bölməsinin payına düşmüşdür.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 8012,1 milyon manat (ümumi vəsaitdə 44,8 faiz), bank kreditləri 860,6 milyon manat (4,8 faiz),

büdcə vəsaitləri 7829,2 milyon manat (43,8 faiz), büdcədənkənar fondların vəsaitləri 558,7 milyon manat (3,2 faiz), əhalinin şəxsi vəsaitləri 469,1 milyon manat (2,6 faiz), sair vəsaitlər 142,4 milyon manat (0,8 faiz) təşkil etmişdir.

### Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər

| | 2013-cü ildə, milyon manat | Əvvəlki ilə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **17 872,1** | **115,1** | **100,0** |
| o cümlədən: Müəssisə və təşkilatların vəsaitləri | 8 012,1 | 118,2 | 44,8 |
| Bank kreditləri | 860,6 | 103,3 | 4,8 |
| Büdcə vəsaitləri | 7 829,2 | 113,4 | 43,8 |
| Büdcədənkənar fondların vəsaitləri | 558,7 | 98,1 | 3,2 |
| Əhalinin şəxsi vəsaiti | 469,1 | 114,5 | 2,6 |
| Sair vəsaitlər | 142,4 | 4,2 d. | 0,8 |

### Əsas kapitala yönəldilmiş vəsaitlərin maliyyə mənbələri üzrə strukturu, faizlə



2013-cü ildə əsas kapitala yönəldilmiş ümumi vəsaitin 39,6 faizi sənaye sahələrinin inkişafına, 19,6 faizi nəqliyyat və anbar təsərrüfatına, 7,5 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlara, 6,7 faizi dövlət idarəetməsinə, 5,5 faiz tikintiyə, 4,8 faizi istirahət, əyləncə və incəsənətə, 4,4 faizi təhsilə, 3,2 faizi kənd təsərrüfatına, 2,6 faizi ticarətə, 2,2 faizi səhiyyəyə, 2,0 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsinə, 1,1 faizi informasiya və rabitəyə, 0,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşəyə, 0,3 faizi digər sahələrdə xidmətlərin göstərilməsinə, 0,1 faizi peşə, elmi və texniki fəaliyyətə sərf edilmişdir.

**İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi**

| Sahələrin adı | 2013-cü ildə, milyon manat | Əvvəlki ilə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **CƏMİ** | **17 872,1** | **115,1** | **100,0** |
| o cümlədən: neft bölməsi | 4 824,8 | 124,2 | 27,0 |
| qeyri-neft bölməsi | 13 047,3 | 112,1 | 73,0 |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **573,4** | **87,7** | **3,2** |
| **Sənaye** | **7 082,4** | **116,4** | **39,6** |
| o cümlədən: Mədənçıxarma sənayesi | 4 688,8 | 120,6 | 26,2 |
| Emal sənayesi | 975,2 | 112,4 | 5,5 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 390,5 | 68,5 | 2,2 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 1 027,9 | 135,0 | 5,7 |
| **Tikinti** | **979,9** | **194,8** | **5,5** |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **456,2** | **83,2** | **2,6** |

…ardı

| Sahələrin adı | 2013-cü ildə, milyon manat | Əvvəlki ilə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Nəqliyyat və anbar təsərrüfatı** | **3 497,2** | **132,4** | **19,6** |
| o cümlədən: Nəqliyyat | 3 486,9 | 132,5 | 19,5 |
| Poçt və kuryer fəaliyyəti | 10,3 | 94,7 | 0,1 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **65,0** | **46,6** | **0,4** |
| **İnformasiya və rabitə** | **202,2** | **60,9** | **1,1** |
| o cümlədən: Rabitə | 183,5 | 57,1 | 1,0 |
| **Maliyyə və sığorta fəaliyyəti** | **12,0** | **15,4** | **0,0** |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | **1 339,4** | **95,6** | **7,5** |
| ondan mənzil tikintisi | 1 323,1 | 95,9 | 7,4 |
| **Peşə, elmi və texniki fəaliyyət** | **16,3** | **58,3** | **0,1** |
| **İnzibati və yardımçı xidmətlərin göstərilməsi** | **359,7** | **136,4** | **2,0** |
| **Dövlət idarəetməsi və müdafiə; sosial təminat** | **1 191,2** | **110,7** | **6,7** |
| **Təhsil** | **789,8** | **98,7** | **4,4** |
| **Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi** | **386,7** | **150,8** | **2,2** |
| **İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət** | **867,8** | **124,5** | **4,8** |
| **Digər sahələrdə xidmətlərin göstərilməsi** | **52,9** | **2,4 d.** | **0,3** |

2013-cü ildə 4824,8 milyon manat həcmində vəsait neft bölməsinə yönəldilmişdir. Qeyri-neft bölməsinin inkişafına sərf edilmiş vəsaitin həcmi əvvəlki ilə nisbətən 12,1 faiz artaraq 13047,3 milyon manat (ümumi sərmayənin 73,0 faizi) təşkil etmiş, o cümlədən 2257,5 milyon manat (12,6 faizi) qeyri-neft sənaye bölməsinin inkişafında istifadə edilmişdir. Qeyri-neft bölməsinə yönəldilmiş vəsaitin 71,8 faizi dövlət, 28,2 faizi qeyri-dövlət mülkiyyətli müəssisə və təşkilatların payına düşmüşdür.

## Neft və qeyri-neft bölməsi üzrə əsas kapitala yönəldilmiş vəsaitlər

| | Neft bölməsi | | Qeyri-neft bölməsi | |
|---|---|---|---|---|
| | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə |
| **2012-ci il** Yanvar | 230,3 | 50,1 | 229,1 | 49,9 |
| Fevral | 254,5 | 34,5 | 482,5 | 65,5 |
| Mart | 274,8 | 30,4 | 628,2 | 69,6 |
| Aprel | 297,6 | 25,3 | 877,9 | 74,7 |
| May | 343,3 | 28,6 | 855,2 | 71,4 |
| İyun | 295,0 | 20,3 | 1 156,5 | 79,7 |
| İyul | 274,0 | 22,8 | 927,2 | 77,2 |
| Avqust | 305,4 | 24,3 | 952,5 | 75,7 |
| Sentyabr | 284,0 | 19,4 | 1 182,6 | 80,6 |
| Oktyabr | 317,0 | 24,7 | 968,2 | 75,3 |
| Noyabr | 341,6 | 23,1 | 1 137,7 | 76,9 |
| Dekabr | 430,5 | 15,8 | 2 292,9 | 84,2 |
| **2013-cü il** Yanvar | 230,2 | 37,3 | 387,5 | 62,7 |
| Fevral | 472,0 | 44,4 | 590,4 | 55,6 |
| Mart | 376,7 | 30,8 | 845,4 | 69,2 |
| Aprel | 335,7 | 24,9 | 1 014,8 | 75,1 |
| May | 430,9 | 28,5 | 1 079,0 | 71,5 |
| İyun | 405,1 | 25,3 | 1 194,1 | 74,7 |
| İyul | 393,5 | 27,4 | 1 043,5 | 72,6 |
| Avqust | 398,1 | 25,2 | 1 181,9 | 74,8 |
| Sentyabr | 389,9 | 26,9 | 1 057,8 | 73,1 |
| Oktyabr | 505,0 | 40,0 | 758,4 | 60,0 |
| Noyabr | 405,0 | 27,0 | 1 097,4 | 73,0 |
| Dekabr | 482,7 | 14,7 | 2 797,1 | 85,3 |

2013-cü ildə **Bakı şəhərində** Gəmi təmiri istehsalat bazası, Gəmiqayırma və Çörək zavodları, Heydər Əliyev Beynəlxalq Aeroportunda anqar kompleksi və Beynəlxalq Logistika Mərkəzi, Qaz Turbinli İstilik Elektrik Stansiyası, Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikası, "Alov qüllələri" kompleksindəki "Fairmont Baku" oteli, "Qələbə Meydanı" müxtəlif səviyyəli tunel tipli yol qovşağı, Yeraltı avtomobil dayanacağı, **Şərur rayonunda** Arpaçay Su Elektrik Stansiyası, **Sumqayıt şəhərində** "Gilan" Tekstil Parkı, Polad boru zavodu,

”Sağlam qida” Aqrar Sənaye Kompleksi, **Şirvan şəhərində** “Cənub” Elektrik Stansiyası, Olimpiya İdman Kompleksi və Şirvan-Muğan qrup su kəməri, **Abşeron rayonunda** Birdəfəlik plastik qablar və priforminqlər istehsalı və “Milla” süd məhsulları və dondurma istehsalı zavodları, **Ağcabədi rayonunda** “Aqat-Aqro” heyvandarlıq kompleksi, Mərkəzi Xəstəxana, Gənclər Mərkəzi, **Ağstafa rayonunda** Peyntbol və Atıcılıq Mərkəzi**, Astara rayonunda** Boks Mərkəzi, **Balakən rayonunda** Soyuducu anbar kompleksi, **Cəlilabad rayonunda** Mərkəzi Xəstəxana**, Gədəbəy rayonunda** Qızıl emalı zavodu, Aşıq musiqi məktəbi, Soyuducu anbar kompleksi, **Qazax rayonunda** Sement zavodu**, Qəbələ rayonunda** Üzüm emalı zavodu, Heyvandarlıq-südçülük kompleksi, Aqrar Sənaye Kompleksi, “Qafqaz Karvansaray” otel kompleksi, **Qobustan rayonunda** İdman Kompleksi, **Quba rayonunda** Milli Qolf Klubu, Gənclər Mərkəzi, “Rixos Quba Azerbaijan” oteli, **Qusar rayonunda** “Şahdağ” və “Pik Palas” otelləri, **Hacıqabul rayonunda** Seramik plitələr istehsalı zavodu, **Xaçmaz, Qax, Saatlı rayonlarında** Olimpiya İdman kompleksləri, **İsmayıllı rayonunda** Tikiş fabriki, “İsmayıllı-1” Su Elektrik Stansiyası, **Sabirabad rayonunda** Kür çayı üzərində körpü, İstixana Kompleksi, **Lənkəran**, **Siyəzən rayonlarında** Gənclər Mərkəzi, **Şabran rayonunda** Vəlvələçay-Taxtakörpü kanalı, Taxtakörpü su anbarı, Taxtakörpü Su Elektrik Stansiyası, **Şəmkir rayonunda** “Zəka” İntellektual Gənclər Mərkəzi, “Excelsior Hotel Shamkir” mehmanxanası, **Tovuz rayonunda** Hemodializ Mərkəzi, **Yevlax rayonunda** Hava Limanı, Mərkəzi Xəstəxana, bütün maliyyə mənbələri hesabına ölkədə ümumi sahəsi 2138,8 min kvadrat metr olan yeni yaşayış evləri, 1338 çarpayılıq xəstəxana, növbədə 638 nəfəri qəbul edən ambulatoriya-poliklinika müəssisələri, 34512 şagird yerlik ümumtəhsil məktəbləri, 2466 yerlik məktəbəqədər təhsil müəssisələri, 1124 yerlik klub və s. obyektlər istifadəyə verilmişdir.

## Xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala yönəldilmiş vəsaitlər

2013-cü ildə xarici mənbələrdən əsas kapitala 4167,2 milyon manat vəsait yönəldilmişdir.

## Daxili və xarici mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitlər

| | Daxili | | Xarici | |
|---|---|---|---|---|
| | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə |
| **2012-ci il** Yanvar | 216,9 | 47,2 | 242,5 | 52,8 |
| Fevral | 581,4 | 78,9 | 155,6 | 21,1 |
| Mart | 730,9 | 80,9 | 172,1 | 19,1 |
| Aprel | 916,6 | 78,0 | 258,9 | 22,0 |
| May | 975,0 | 81,4 | 223,5 | 18,6 |
| İyun | 1 195,5 | 82,4 | 256,0 | 17,6 |
| İyul | 995,8 | 82,9 | 205,3 | 17,1 |
| Avqust | 1 000,0 | 79,5 | 257,9 | 20,5 |
| Sentyabr | 1 210,3 | 82,5 | 256,3 | 17,5 |
| Oktyabr | 961,5 | 74,8 | 323,7 | 25,2 |
| Noyabr | 952,3 | 64,4 | 527,1 | 35,6 |
| Dekabr | 2 343,4 | 86,0 | 380,0 | 14,0 |
| **2013-cü il** Yanvar | 398,8 | 64,6 | 218,9 | 35,4 |
| Fevral | 691,5 | 65,1 | 370,9 | 34,9 |
| Mart | 887,8 | 72,6 | 334,3 | 27,4 |
| Aprel | 1 094,4 | 81,0 | 256,1 | 19,0 |
| May | 1 157,0 | 76,6 | 352,9 | 23,4 |
| İyun | 1 282,2 | 80,2 | 317,0 | 19,8 |
| İyul | 1 064,8 | 74,1 | 372,2 | 25,9 |
| Avqust | 1 184,1 | 74,9 | 395,9 | 25,1 |
| Sentyabr | 1 082,9 | 74,8 | 364,8 | 25,2 |
| Oktyabr | 869,7 | 68,8 | 393,7 | 31,2 |
| Noyabr | 1 102,6 | 73,4 | 399,8 | 26,6 |
| Dekabr | 2 889,1 | 88,1 | 390,7 | 11,9 |

Xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən yönəldilmiş vəsaitin 3632,2 milyon manatı (87,2 faizi) Böyük Britaniya, ABŞ, Norveç, Yaponiya, Çexiya, Türkiyə və Fransa sərmayədarlarına məxsus olmuşdur.

## Xarici ölkələr və beynəlxalq təşkilatlar üzrə əsas kapitala yönəldilmiş xarici vəsaitin həcmi

| Ölkələrin və beynəlxalq təşkilatların adı | 2013-cü ildə, min manat | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|
| **Cəmi** | **4 167 217,5** | **100,0** |
| o cümlədən:<br>Böyük Britaniya | 1 495 003,6 | 35,9 |
| Norveç | 513 789,8 | 12,3 |
| ABŞ | 489 122,1 | 11,8 |
| Yaponiya | 388 358,8 | 9,3 |
| Türkiyə | 310 955,6 | 7,5 |
| Çexiya | 275 652,1 | 6,6 |
| Fransa | 159 337,4 | 3,8 |
| Rusiya | 124 977,6 | 3,0 |
| İran | 123 787,7 | 3,0 |
| Cənubi Koreya | 24 297,8 | 0,6 |
| Sinqapur | 18 576,6 | 0,4 |
| Almaniya | 1 327,1 | 0,0 |
| Niderland | 1 113,1 | 0,0 |
| İtaliya | 274,5 | 0,0 |
| Lüksemburq | 10,8 | 0,0 |
| Dünya Bankı | 149 907,3 | 3,6 |
| Asiya İnkişaf Bankı | 60 645,4 | 1,5 |
| İslam İnkişaf Bankı | 17 929,3 | 0,4 |
| Avropa Yenidənqurma və İnkişaf Bankı | 3 440,1 | 0,1 |
| Avropa Birliyi Maliyyə Yardımı | 3 347,5 | 0,1 |
| WWF Qafqaz Proqramının Azərbaycan Fondu | 3 210,2 | 0,1 |
| Avropa Şurası | 2 153,1 | 0,0 |

**2013-cü ildə əsas kapitala yönəldilmiş vəsaitin xarici ölkələr və beynəlxalq təşkilatlar üzrə strukturu (ümumi yekuna görə, faizlə)**




Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin həcmi müqayisə edilən ilin səviyyəsini 4,1 faiz üstələyərək 8098,5 milyon manat təşkil etmiş, ondan 66,1 faizi yeni tikinti, yenidənqurma və genişləndirmə, 18,4 faizi əsaslı təmir, 2,9 faizi cari təmir, 12,6 faizi isə sair tikinti işlərinə sərf edilmişdir. Ümumi inşaat işlərinin 80,5 faizini qeyri-dövlət mülkiyyətli tikinti müəssisələri yerinə yetirmişlər.

2013-cü ilin yanvar-noyabr aylarında inşaat bölməsində çalışmış işçilərin orta siyahı sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,4 faiz artaraq 100,6 min nəfər olmuşdur. Tikintidə çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,3 faiz artaraq 616,8 manat təşkil etmişdir. Mülki təyinatlı inşaat işlərində işləyən işçilərin əmək haqları 24,2 faiz, ixtisaslaşdırılmış tikinti işlərində 4,9 faiz, binaların tikintisində isə 0,6 faiz artmışdır.

## Tikintidə fəaliyyət növləri üzrə işçilərin əmək haqqı

| Fəaliyyət növləri | Bir işçinin orta aylıq əmək haqqı | |
|---|---|---|
| | 2013-cü ilin yanvar-noyabr aylarında, manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **Cəmi** | **616,8** | **105,3** |
| o cümlədən: Dövlət bölməsi | 502,7 | 106,5 |
| Qeyri-dövlət bölməsi | 669,3 | 102,1 |
| Ümumi yekundan fəaliyyət növləri üzrə: **Binaların tikintisi** | **561,8** | **100,6** |
| **Mülki təyinatlı inşaat işləri** | **603,8** | **124,2** |
| **İxtisaslaşdırılmış tikinti işləri** | **748,3** | **104,9** |

# Kənd təsərrüfatı

**Kənd təsərrüfatı.** Kənd təsərrüfatı sektoruna dövlət tərəfindən göstərilən diqqət və qayğı nəticəsində ölkənin aqrar bölməsi 2013-cü ili uğurla başa vurmuşdur. Kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 5244,6 milyon manat olmuş, onun sabit qiymətlərlə dəyəri 2012-ci ildəkinə nisbətən 4,9 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 4,2 faiz, heyvandarlıq məhsulları üzrə isə 5,5 faiz artmışdır. Bitkiçilik və heyvandarlıq məhsullarının faktiki qiymətlərlə xüsusi çəkisi aşağıdakı qrafikdə verilmişdir.




**Bitkiçilik.** İlkin məlumatlara görə 2013-cü ildə qarğıdalı da daxil olmaqla 1073,7 min hektar sahədən, hər hektardan orta hesabla 27,6 sentner olmaqla, ilkin çəkidə 2961,9 min ton taxıl məhsulu toplanmışdır. 2012-ci ilə nisbətən onun istehsalı 5,7 faiz və ya 159,7 min ton artmışdır.

Dənli və dənli paxlalıların tərkibində payızlıq və yazlıq buğda əsas yer tutur. İstehsal olunmuş taxıl məhsulunun 64,1 faizini və ya 1898,1 min tonunu buğda, 7,0 faizini və ya 208,2 min tonunu qarğıdalı təşkil etmişdir.

2013-cü ildə 44,8 min ton xam pambıq və 3,5 min ton tütün istehsal edilmişdir.

Ölkədə ötən il 5,5 min hektar sahədə emal üçün şəkər çuğundurunun əkini aparılmış və həmin sahələrdən 181,4 min ton məhsul götürülmüşdür.

Hesabat ilində sahələrdən 992,7 min ton kartof, 1232,8 min ton tərəvəz, 429,7 min ton bostan məhsulları toplanmış və keçən ilin müvafiq dövrünə nisbətən kartofun istehsalı 2,5 faiz, tərəvəzin istehsalı 1,4 faiz və bostan məhsullarının istehsalı 0,4 faiz artmışdır. Müsbət hal kimi qeyd edilməlidir ki, 2013-cü ildə hektarın orta məhsuldarlığı şəkər çuğunduru və pambıq istisna olmaqla qalan bitkilər üzrə artmışdır.

2013-cü ildə meyvə və giləmeyvə istehsalı 2012-ci ilə nisbətən 42,9 min ton (5,3 faiz), üzüm istehsalı 3,1 min ton (2,1 faiz) artaraq müvafiq olaraq 852,9 min tona və 154,1 min tona çatmış, çay yarpağı istehsalı isə təqribən keçən illə eyni səviyyədə (568 ton) olmuşdur.

## Bitkiçilik məhsullarının istehsalı və məhsuldarlığı

| | İstehsal, min ton | | | Məhsuldarlıq, sent/ha | | |
|---|---|---|---|---|---|---|
| | 2013 | 2012 | 2013-cü il 2012-ci ilə, %-lə | 2013 | 2012 | 2013-cü il 2012-ci ilə, %-lə |
| Dənli və dənli paxlalıların cəmi*) | 2 961,9 | 2 802,2 | 105,7 | 27,6 | 27,2 | 101,5 |
| ondan: yazlıq və payızlıq buğda | 1 898,1 | 1 847,4 | 102,7 | 27,5 | 26,9 | 102,2 |
| dən üçün qarğıdalı | 208,2 | 181,9 | 114,4 | 53,9 | 51,0 | 105,7 |
| Pambıq | 44,8 | 57,0 | 78,7 | 19,2 | 19,5 | 98,5 |
| Dən üçün günəbaxan*) | 18,1 | 20,0 | 90,4 | 19,4 | 18,2 | 106,6 |
| Şəkər çuğunduru*) | 181,4 | 175,7 | 103,2 | 334 | 337 | 99,1 |
| Tütün | 3,5 | 4,3 | 80,7 | 28,4 | 27,9 | 101,8 |
| Kartof | 992,7 | 968,5 | 102,5 | 152 | 147 | 103,4 |
| Tərəvəz | 1 232,8 | 1 216,2 | 101,4 | 156 | 150 | 104,0 |
| Bostan məhsulları | 429,7 | 428,0 | 100,4 | 151 | 143 | 105,6 |
| Meyvə və giləmeyvə | 852,9 | 810,0 | 105,3 | 74,4 | 73,8 | 100,8 |
| Üzüm | 154,1 | 151,0 | 102,1 | 92,0 | 88,6 | 103,8 |
| Yaşıl çay yarpağı, ton | 567,7 | 567,9 | 100,0 | 12,1 | 10,5 | 115,2 |

*) ilkin çəkidə

Keçən il payız-tarla işləri müvəffəqiyyətlə başa çatdırılmışdır. Payızlıq əkinlər üçün qaldırılmış 1088,2 min hektar şumun 91,5 faizi əkin üçün istifadə edilmiş və 2014-cü ilin məhsulu ücün 995,5 min hektarda dən və yaşıl yem üçün payızlıq bitkilər səpilmişdir. Bunun 979,1 min hektarı və ya 98,4 faizi dən üçün nəzərdə tutulmuşdur. Dənlik taxılın 66,0 faizi və ya 646,3 min hektarı buğda, 34,0 faizi və ya 332,7 min hektarı arpa əkini sahəsidir. Əvvəlki ilin müvafiq dövrünə nisbətən dən üçün arpanın əkin sahəsi 8,4 faiz genişlənmiş, buğdanın əkin sahəsi isə 6,4 faiz azalmışdır.

**Heyvandarlıq.** Heyvandarlıq kənd təsərrüfatının vacib sahəsidir və son illər sürünün cins tərkibinin yaxşılaşdırılması istiqamətində görülmüş tədbirlər heyvanların məhsuldarlıqlarının yüksəldilməsinə və mal-qaranın baş sayının sabitləşdirilməsinə səbəb olmaqla yanaşı, məhsul istehsalına da öz müsbət təsirini göstərmişdir. Belə ki, hesabat ilində diri çəkidə 514,4 min ton ət, 1820,5 min ton süd, 1401,5 milyon ədəd yumurta və 16,8 min ton yun istehsal edilmişdir. Ət istehsalı 2012-ci illə müqayisədə 4,2 faiz, süd istehsalı 5,9 faiz, yumurta istehsalı 14,2 faiz və yun istehsalı 1,9 faiz artmışdır.

2013-cü il yanvarın 1-nə mövcud inək və camışların sayına hesablamaqla orta süd sağımı 1363 kiloqrama (2012-ci il 1307 kq) bərabər olmuşdur.

Respublikada iri və xırdabuynuzlu mal-qaranın yetişdirilməsi heyvandarlığın inkişaf etmiş ənənəvi sahələrindəndir. İlkin məlumatlara görə 2014-cü il yanvarın 1-i vəziyyətinə ölkə üzrə 2735,4 min baş iribuynuzlu mal-qara, o cümlədən 1316,2 min baş inək və camış, 8733,6 min baş qoyun və keçi mövcud olmuşdur. 2013-cü il yanvarın 1-nə nisbətən iribuynuzlu mal-qaranın sayı 22,7 min baş (0,8 faiz), o cümlədən inək və camışların sayı 10,6 min baş (0,8 faiz) və qoyun və keçilərin sayı 68,4 min baş (0,8 faiz) artmışdır. İribuynuzlu mal-qaranın 48,1 faizini inək və camışlar təşkil edir.

Heyvandarlıq məhsullarının istehsalı və mal-qaranın sayına dair məlumatlar aşağıdakı cədvəllərdə verılmişdir.

## Heyvandarlıq məhsullarının istehsalı, min ton

| | 2013-cü il | 2012-ci ilə faizlə | 2012-ci il | 2011-ci ilə faizlə |
|---|---|---|---|---|
| Ət (diri çəkidə) | 514,4 | 104,2 | 493,4 | 107,5 |
| Süd | 1820,5 | 105,9 | 1719,6 | 106,0 |
| Yumurta, milyon ədəd | 1401,5 | 114,2 | 1226,7 | 121,3 |
| Yun | 16,8 | 101,9 | 16,5 | 101,6 |

## Mal-qaranın sayı, ilin axırına min baş

| | 2013-cü il | 2012-ci ilə faizlə | 2012-ci il | 2011-ci ilə faizlə |
|---|---|---|---|---|
| İribuynuzlu mal-qara | 2735,4 | 100,8 | 2 712,7 | 101,2 |
| o cümlədən: | | | | |
| inək və camışlar | 1316,2 | 100,8 | 1 305,6 | 101,4 |
| Qoyun və keçilər | 8733,6 | 100,8 | 8 665,2 | 101,2 |
| Donuzlar | 6,7 | 103,4 | 6,5 | 105,7 |

**Meşə təsərrüfatı.** 2013-cü ildə ölkənin meşəçilik təsərrüfatlarında istehsal edilmiş mal və xidmətlərin faktiki qiymətlərlə dəyəri 10,8 milyon manat olmuşdur.

**Balıqçılıq təsərrüfatı.** Ötən il balıqçılıq təsərrüfatları və fiziki şəxslər tərəfindən 190,8 milyon manat dəyərində 57,5 min ton balıq ovlanmışdır.

## Kənd, meşə və balıqçılıq təsərrüfatlarının ümumi məhsulu

(müvafiq illərin faktiki qiymətləri ilə, min manatla)

| | 2013-cü il | 2012-ci il |
|---|---|---|
| **Cəmi** | **5 446 189,6** | **5 037 058,3** |
| o cümlədən: | | |
| kənd təsərrüfatı | 5 244 639,7 | 4 844 628,4 |
| meşə təsərrüfatı | 10 782,0 *) | 10 097,1 |
| balıqçılıq təsərrüfatı | 190 767,9 *) | 182 332,8 |

*) ilkin məlumat

# Nəqliyyat

2013-cü ildə nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 218,0 milyon ton və ya ötən ilin müvafiq dövrünə nisbətən 3,4 faiz çox yük daşınmış, qeyri-neft yüklərinin həcmi 7,0 faiz artmışdır. Nəqliyyat vasitələri ilə daşınmış yüklərin 57,4 faizi avtonəqliyyat, 26,6 faizi boru kəməri, 10,7 faizi dəmir yolu, 5,3 faizi dəniz nəqliyyatı vasitələri ilə həyata keçirilmişdir.

**Yük daşınmasının ayrı-ayrı nəqliyyat növləri üzrə strukturu, yekuna nisbətən**




Ötən ildə qeyri-dövlət bölməsində yük daşınması 5,0 faiz artmış, bu bölməyə məxsus nəqliyyat vasitələri ilə yük daşınmasının payı nəqliyyat sektorunda 75,0 faiz təşkil etmişdir.

İl ərzində nəqliyyatçılar 1746,1 milyon nəfərə və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,0 faiz çox sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 87,9 faizi avtomobil, 11,8 faizi metro nəqliyyatının xidmətlərindən istifadə etmişlər.

**Dəmir yolu nəqliyyatı** ilə yük daşınması 2013-cü ildə 23,2 milyon ton olmuş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,5 faiz artmışdır. Orta hesabla sutkada 662 vaqon yüklənmiş, 585 vaqon boşaldılmışdır.

Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 25,0 min ton, Qərb istiqaməti üzrə 6,4 min ton və Cənub istiqaməti üzrə 5,8 min ton yüklənmə işi yerinə yetirilmişdir.

**Dəniz nəqliyyatında** daşınmış yüklərin həcmi 11,5 milyon ton təşkil etmişdir. Yüklərin 56,4 faizini neft yükləri, 43,6 faizini isə quru yüklər təşkil etmiş və bütün daşımalar xarici əlaqə üzrə həyata keçirilmişdir. Dəniz limanlarında 12,4 milyon ton yükləmə-boşaltma işləri həyata keçirilmişdir. İşlənmiş yüklərin 85,0 faizini beynəlxalq tranzit yüklər təşkil etmışdır. 2013-cü il dekabr 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 113,3 min ton və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 38,8 faiz çox idxal yüklərin qalığı olmuşdur.

**Nəqliyyat sektorunda yük daşınması, min ton**




Nəqliyyat sektorunda daşımaların həcminə görə ən böyük paya malik olan **avtomobil nəqliyyatı** ilə 125,2 milyon ton yük, 1535,2 milyon sərnişin daşınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 6,0 faiz və 8,3 faiz artım qeydə alınmışdır. Sərnişinlərin 96,3 faizi avtobus, 3,7 faizi isə minik

taksilərinin xidmətlərindən istifadə etmişlər. Yük dövriyyəsi 6,1 faiz, sərnişin dövriyyəsi isə 9,2 faiz artmışdır.

**Metro nəqliyyatının** xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 206,7 milyon nəfər olmaqla 5,6 faiz artmışdır.

**Hava nəqliyyatı** ilə 1665,6 min və ya 4,2 faiz çox sərnişin daşınmış, daşınmanın 99,6 faizi dövlət, 0,4 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə yükdaşıma 1,5 dəfə artaraq 121,9 min tona çatmışdır.

**Magistral neft kəmərləri** ilə 43,5 milyon ton neft nəql edilmişdir. Nəqletmənin dörddə üç hissəsi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və ötən il ərzində bu kəmər vasitəsilə 33,0 milyon ton neft ötürülmüşdür. Dövr ərzində gəmilər vasitəsilə ölkəyə gətirilərək Səngəçal terminalından BTC kəməri ilə 3,3 milyon ton tranzit Türkmənistan nefti nəql edilmişdir.

**Magistral qaz kəmərləri** ilə 20,0 milyard kub-metr qaz nəql edilmiş və 3,9 faiz artım qeydə alınmışdır. Nəql edilmiş qazın 23,6 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 4,7 milyard kub-metr qaz ötürülmüşdür.

2013-cü ilin yanvar-noyabr aylarında **"İpək yolu" nəqliyyat dəhlizinin** Azərbaycan ərazisində 54,1 milyon ton və ya 4,2 faiz çox yük, 260,0 milyon nəfər və ya 9,4 faiz çox sərnişin daşınmışdır. Yüklərin 24,9 milyon tonu və ya 46,1 faizi avtomobil nəqliyyatı, 19,7 milyon tonu və ya 36,4 faizi dəmir yolu nəqliyyatı, 9,5 milyon tonu və ya 17,5 faizi dəniz nəqliyyatı ilə daşınmışdır.

Yük daşımaları fəaliyyətindən 421,0 milyon manat, sərnişin daşınmasından isə 86,6 milyon manat gəlir əldə olunmuş və müvafiq olaraq 7,3 faiz və 15,8 faiz artmışdır.

# İnformasiya və rabitə

2013-cü ildə informasiya və rabitə sektorunda təsərrüfat subyektlərinə və əhaliyə 1528,1 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 10,7 faiz çox xidmət göstərilmişdir. Əhaliyə göstərilmiş informasiya və rabitə xidmətlərinin payı 72,4 faiz təşkil etmişdir.

Xidmətlərdən əldə olunmuş gəlirlərin 59,1 faizi mobil telefon rabitəsindən yaranmış və 2012-ci ilin eyni dövrü ilə müqayisədə bu xidmətlərin həcmi 17,4 faiz artaraq 902,5 milyon manat təşkil etmişdir.

# İstehlak bazarı

2013-cü ildə istehlakçıların tələbatlarının ödənilməsi məqsədi ilə ölkənin istehlak bazarında satılmış əmtəə və xidmətlərin həcmi 27,0 milyard manat olmaqla 2012-ci il ilə müqayisədə 9,6 faiz artmışdır.

Pərakəndə ticarət və xidmət şəbəkələrində satılmış əmtəələrin və göstərilmiş xidmətlərin ümumi həcminin 94,2 faizi özəl bölmənin fəaliyyəti sayəsində formalaşmış, bu bölmə üzrə pərakəndə əmtəə dövriyyəsinin və əhaliyə göstərilən xidmətlərin həcmi 10,2 faiz artaraq 25,4 milyard manat olmuşdur.

İstehlak bazarı üzrə əsas göstəricilər aşağıdakı kimi olmuşdur:

| | 2013-cü il, milyon manatla | 2013-cü il 2012-ci ilə nisbətən, sabit qiymətlərlə, faizlə |
|---|---|---|
| **İstehlak bazarında satılmış əmtəələrin və göstərilmiş xidmətlərin ümumi həcmi** | **26 983,3** | **109,6** |
| o cümlədən: hüquqi şəxslər üzrə | 7 612,3 | 106,1 |
| ondan dövlət mülkiyyəti üzrə | 1 563,8 | 101,6 |
| fiziki şəxslər üzrə | 19 371,0 | 111,1 |

İstehlak bazarı üzrə real artımın 18,4 faizi hüquqi şəxslərin, 81,6 faizi fiziki şəxslərin təsərrüfat subyektlərində yaranmışdır.

## Əmtəə bazarı

2013-cü ildə pərakəndə əmtəə dövriyyəsinin həcmi 19,7 milyard manat olmaqla 2012-ci il ilə müqayisədə 9,9 faiz artmışdır. İstehlak mallarının 99,8 faizi özəl təsərrüfat subyektlərində, o cümlədən 11,7 faizi hüquqi şəxs statuslu özəl müəssisələrdə, 51,1 faizi fərdi sahibkarlara məxsus ticarət subyektlərində, 37,0 faizi əmtəə bazarlarında satılmışdır. Özəl bölmə üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmi 2012-ci ilin səviyyəsini 10,1 faiz üstələyərək 19,6 milyard manat olmuşdur.

Əmtəə bazarı aşağıdakı məlumatlarla xarakterizə olunur:

| | 2013-cü il, milyon manatla | 2013-cü il 2012-ci ilə nisbətən, sabit qiymətlərlə, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **19 655,9** | **109,9** |
| o cümlədən: hüquqi şəxslər | 2 346,4 | 102,9 |
| fiziki şəxslər | 17 309,5 | 110,9 |
| ondan: əmtəə bazarları | 7 261,8 | 105,4 |

Pərakəndə əmtəə dövriyyəsi üzrə real artımın 3,8 faizi hüquqi şəxslərin, 75,1 faizi hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların ticarət subyektlərində, 21,1 faizi isə əmtəə bazarlarında yaranmışdır.

## 2013-cü ildə pərakəndə ticarət dövriyyəsinin quruluşu




2013-cü ildə pərakəndə ticarət şəbəkəsindən hər bir istehlakçı orta hesabla ayda 176,2 manatlıq və ya 2012-ci il ilə müqayisədə 16,7 manat çox əmtəə almışdır.

Pərakəndə ticarət dövriyyəsinin dinamikası aşağıdakı kimi olmuşdur:

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, sabit qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Pərakəndə ticarət dövriyyəsi | o cümlədən: | |
| | | ərzaq malları üzrə | qeyri-ərzaq malları üzrə |
| **2012-ci il** | | | |
| Yanvar | 109,4 | 102,9 | 123,5 |
| Yanvar-fevral | 109,0 | 102,4 | 121,9 |
| Yanvar-mart | 109,3 | 104,3 | 118,6 |
| Yanvar-aprel | 109,1 | 101,3 | 122,9 |
| Yanvar-may | 109,4 | 101,2 | 123,4 |
| Yanvar-iyun | 109,2 | 100,9 | 123,2 |
| Yanvar-iyul | 109,3 | 101,1 | 122,8 |
| Yanvar-avqust | 109,2 | 101,0 | 122,1 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, sabit qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Pərakəndə ticarət dövriyyəsi | o cümlədən: | |
| | | ərzaq malları üzrə | qeyri-ərzaq malları üzrə |
| Yanvar-sentyabr | 109,0 | 101,5 | 120,6 |
| Yanvar-oktyabr | 109,4 | 101,9 | 120,5 |
| Yanvar-noyabr | 109,4 | 102,4 | 119,9 |
| Yanvar-dekabr | 109,6 | 102,1 | 120,7 |
| **2013-cü il** | | | |
| Yanvar | 109,1 | 100,9 | 122,5 |
| Yanvar-fevral | 108,8 | 102,1 | 118,6 |
| Yanvar-mart | 109,5 | 102,2 | 120,4 |
| Yanvar-aprel | 109,4 | 102,0 | 119,9 |
| Yanvar-may | 108,8 | 100,2 | 120,8 |
| Yanvar-iyun | 109,1 | 100,4 | 121,2 |
| Yanvar-iyul | 109,2 | 100,2 | 121,8 |
| Yanvar-avqust | 109,4 | 100,5 | 121,6 |
| Yanvar-sentyabr | 109,6 | 101,0 | 121,3 |
| Yanvar-oktyabr | 109,7 | 101,4 | 121,2 |
| Yanvar-noyabr | 109,7 | 101,3 | 120,9 |
| Yanvar-dekabr | 109,9 | 102,3 | 120,2 |

Əmtəə dövriyyəsinin ümumi həcmində qeyri-ərzaq mallarının xüsusi çəkisi artaraq 2012-ci il ilə müqayisədə 44,6 faizdən 48,3 faizədək yüksəlmişdir. Pərakəndə şəbəkədə satılmış qeyri-ərzaq mallarının həcmi 20,2 faiz artaraq 9485,5 milyon manata çatmış, əmtəə dövriyyəsi üzrə real artımın 87,6 faizi qeyri-ərzaq mallarının satışı hesabına təmin edilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində ərzaq mallarının payı 51,7 faiz təşkil edərək 10170,4 milyon manata bərabər olmuş və 2012-ci ilin səviyyəsini 2,3 faiz üstələmişdir.

Hər bir istehlakçı fərdi istehlak məqsədi ilə pərakəndə ticarət müəssisələrində orta hesabla ayda 91,2 manatlıq ərzaq, 85,0 manatlıq qeyri-ərzaq malları almışdır. 2012-ci ilin müvafiq göstəricisi ilə müqayisədə istehlakçılar tərəfindən qeyri-ərzaq mallarının alınmasına 13,9 manat daha çox vəsait xərcləndiyi halda, ərzaq malları üzrə bu məbləğ 2,8 manata bərabər olmuşdur.

## Ərzaq və qeyri-ərzaq malları üzrə pərakəndə əmtəə dövriyyəsinin dinamikası (2010 =100)




2013-cü ildə istehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 51,7 faizi qida məhsulları və içkilərin, 1,7 faizi tütün məmulatlarının, 19,3 faizi toxuculuq malları, geyim və ayaqqabının, 4,4 faizi elektrik malları və mebelin, 1,2 faizi kompyuter avadanlıqları, kitab və digər çap məmulatlarının, 1,2 faizi əczaçılıq və tibbi malların, 6,4 faizi benzin və digər neft məhsullarının, 14,1 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

**2013 - cü ildə**
**pərakəndə ticarət dövriyyəsinin strukturu**




2013-cü ildə pərakəndə elektron ticarət dövriyyəsinin real həcmi 1,6 dəfə artaraq 2586,0 min manat olmuşdur. Elektron ticarət üzrə istehlak mallarının satışının 82,6 faizi hüquqi şəxslər, 17,4 faizi hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin ticarət subyektləri tərəfindən həyata keçirilmişdir.

2013-cü ildə elektron ticarət dövriyyəsinin 89,7 faizini təşkil edən qeyri-ərzaq mallarının satışı 2012-ci il ilə müqayisədə 1,5 dəfə artaraq 2319,0 min manata bərabər olmuşdur. Elektron ticarət əsasında istehlakçılara 267,0 min manatlıq və ya 2012-ci il ilə müqayisədə 2,4 dəfə çox ərzaq malları satılmışdır.

**Pərakəndə ticarət şəbəkəsində istehlak mallarının satışı və istehlak qiymətləri indeksinin dinamikası (əvvəlki aya nisbətən, faizlə)**




2013-cü ildə istehlakçılara 34,2 faizini dizel yanacağı, 20,6 faizini avtomobil benzini, 10,1 faizini aviasiya üçün ağ neft, 4,6 faizini neft bitumu, 3,9 faizini maye qaz, 3,8 faizini mazut yanacağı, 0,8 faizini sürtkü yağları, 22,0 faizini isə digər məhsullar təşkil etməklə 6,8 milyon ton və ya ötən illə müqayisədə 3,9 faiz çox neft məhsulları (ixrac da daxil olmaqla) göndərilmişdir.

## Neft məhsullarının istehlak strukturu, faizlə




2013-cü ildə neft məhsullarının 77,5 faizi daxili bazarın tələbatının ödənilməsinə yönəldilmiş, 22,5 faizi isə ixrac olunmuşdur.

Ölkə istehlakçılarına 5,2 milyon ton, yaxud 2012-ci ilə nisbətən 9,1 faiz çox neft emalı məhsulları göndərilmişdir.

Mazut yanacağı və sürtkü yağları istisna olmaqla, qalan neft məhsullarının həcmi artmışdır.

**Daxili bazarın tələbatının ödənilməsinə yönəldilmiş əmtəəlik neft emalı məhsullarının strukturu, min ton**

| | 2013-cü il | 2012-ci il | Əvvəlki ilə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **5 241,2** | **4 805,7** | **109,1** |
| o cümlədən: avtomobil benzini | 1 380,7 | 1 281,8 | 107,7 |
| dizel yanacağı | 1 410,0 | 1 289,0 | 109,4 |
| aviasiya üçün ağ neft | 553,4 | 490,6 | 112,8 |
| mazut yanacağı | 254,2 | 283,3 | 89,7 |
| neft bitumu | 311,6 | 275,9 | 112,9 |
| maye qaz | 169,9 | 125,1 | 135,8 |
| sürtkü yağları | 13,2 | 14,3 | 92,3 |
| digər neft məhsulları | 1 148,2 | 1 045,7 | 109,8 |

# İctimai iaşə xidmətləri

2013-cü ildə ictimai iaşə dövriyyəsinin həcmi 2012-ci illə müqayisədə 16,0 faiz artaraq 800,1 milyon manata çatmışdır. İctimai iaşə dövriyyəsinə dair əsas göstəricilər aşağıdakı kimi olmuşdur:

| | 2013-cü il, min manatla | 2012-ci ilə nisbətən, faizlə |
|---|---|---|
| **İctimai iaşə dövriyyəsinin həcmi** | **800 081,2** | **116,0** |
| o cümlədən: dövlət mülkiyyəti | 13 832,1 | 113,8 |
| qeyri-dövlət mülkiyyəti | 786 249,1 | 116,1 |
| ondan: hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar | 413 961,7 | 115,2 |

Özəl sektorda ictimai iaşə dövriyyəsinin 47,3 faizi hüquqi şəxs statuslu müəssisələrin, 52,7 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların payına düşür. Hüquqi şəxs statuslu müəssisələrdə dövriyyənin həcmi 2012-ci illə müqayisədə 17,0 faiz artaraq 372,3 milyon manat təşkil etmişdir.

## Əhaliyə göstərilən pullu xidmətlər

2013-cü ilin yanvar-dekabr aylarında əhaliyə göstərilən pullu xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 8,2 faiz artaraq 6527,3 milyon manat olmuşdur. Artımın 64,1 faizi hüquqi şəxslərin müəssisələrində yaranmış və bu müəssisələrdə əhaliyə 4879,8 milyon manatlıq və ya 7,0 faiz çox pullu xidmətlər göstərilmişdir.

Pullu xidmətlərin həcmi aşağıdakı məlumatlarla xarakterizə olunur:

| | 2013-cü ilin yanvar-dekabr ayları, milyon manatla | 2013-cü ilin yanvar-dekabr ayları 2012-ci ilin yanvar-dekabr aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pullu xidmətlərin ümumi həcmi-cəmi** | **6527,3** | **108,2** |
| dövlət mülkiyyəti | 1512,9 | 103,7 |
| qeyri-dövlət mülkiyyəti | 5014,4 | 109,7 |
| ondan: hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar | 1647,5 | 112,1 |

Hesabat dövründə hər bir ölkə sakini hər ay orta hesabla 58,5 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,6 manat çox müxtəlif pullu xidmətlərdən istifadə etmişdir.

Əhaliyə göstərilən pullu xidmətlərin indekslərinin dinamikası aşağıdakı kimi olmuşdur:

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Əhaliyə göstərilən pullu xidmətlər | o cümlədən: | |
| | | hüquqi şəxslər üzrə | hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər üzrə |
| **2012-ci il** | | | |
| Yanvar | 110,3 | 107,4 | 121,0 |
| Yanvar-fevral | 108,3 | 106,7 | 114,1 |
| Yanvar-mart | 109,4 | 108,6 | 112,3 |
| Yanvar-may | 108,7 | 108,1 | 110,7 |
| Yanvar-may | 108,8 | 107,8 | 112,2 |
| Yanvar-iyun | 108,0 | 107,0 | 111,6 |
| Yanvar-iyul | 107,5 | 107,1 | 109,1 |
| Yanvar-avqust | 107,5 | 106,9 | 109,5 |
| Yanvar-sentyabr | 107,7 | 107,0 | 110,1 |
| Yanvar-noyabr | 107,7 | 107,1 | 109,7 |
| Yanvar-noyabr | 107,9 | 107,1 | 110,4 |
| Yanvar-dekabr | 108,0 | 106,3 | 113,5 |
| **2013-cü il** | | | |
| Yanvar | 108,4 | 107,1 | 112,8 |
| Yanvar – fevral | 107,2 | 105,0 | 114,6 |
| Yanvar – mart | 107,5 | 104,8 | 116,7 |
| Yanvar-aprel | 107,3 | 104,9 | 115,5 |
| Yanvar-may | 107,3 | 105,5 | 113,4 |
| Yanvar-iyun | 107,5 | 105,5 | 114,2 |
| Yanvar-iyul | 106,8 | 105,1 | 112,8 |
| Yanvar-avqust | 106,8 | 105,2 | 112,2 |
| Yanvar-sentyabr | 107,2 | 105,7 | 112,3 |
| Yanvar-oktyabr | 106,9 | 105,4 | 111,7 |
| Yanvar-noyabr | 107,3 | 106,0 | 111,3 |
| Yanvar-dekabr | 108,2 | 107,0 | 112,1 |

## 2013-cü ilin yanvar-dekabr aylarında əhaliyə göstərilən pullu xidmətlərin mülkiyyət formaları üzrə quruluşu



## Əhaliyə göstərilən pullu xidmətlər üzrə qiymət və fiziki həcm indeksləri

(əvvəlki aya nisbətən, faizlə)



# Qiymət və tarif indeksləri

## İstehlak mallarının qiymətləri və xidmət tarifləri

2013-cü ilin dekabr ayında istehlak mallarının qiymətləri və xidmət tarifləri əvvəlki ayla müqayisədə 1,9 faiz, əvvəlki ilin yanvar-dekabr aylarına nisbətən isə 2,4 faiz bahalaşmışdır.

Qiymət və tariflərin məcmu və qruplar üzrə indeksləri aşağıdakı kimi olmuşdur:

(faizlə)

| | 2013-cü ilin dekabr ayı 2013-cü ilin noyabr ayına nisbətən | 2013-cü ilin yanvar-dekabr ayları 2012-ci ilin yanvar-dekabr aylarına nisbətən |
|---|---|---|
| Cəmi mallar və xidmətlər üzrə | 101,9 | 102,4 |
| Ərzaq məhsulları, içkilər, tütün | 102,6 | 102,2 |
| Qeyri-ərzaq malları | 102,7 | 100,8 |
| Xidmətlər | 100,4 | 103,5 |

Dekabr ayında ərzaq məhsullarından "Çörək məmulatları və yarmalar" qrupu məhsullarının qiymətləri 0,2 faiz, "Ət məhsulları" qrupu 0,3 faiz, "Balıq məhsulları" qrupu 5,3 faiz, "Süd məhsulları, pendir və yumurta" qrupu 0,7 faiz, "Yağ və piylər" qrupu 0,7 faiz, "Meyvələr" qrupu 6,2 faiz, "Tərəvəzlər" qrupu 9,9 faiz, "Qənd, cem, bal, şokalad və konfetlər" qrupu 0,1 faiz, "Qəhvə, çay, kakao" qrupu 0,2 faiz, "Spirtli içkilər" və "Tütün məmulatları" qrupları üzrə məhsulların qiymətləri müvafiq olaraq 0,1 və 9,0 faiz bahalaşmışdır.

Ay ərzində qeyri-ərzaq mallarından "İri alət və avadanlıqlar" qrupu mallarının qiymətləri 0,3 faiz, "Minik avtomobili" qrupu 0,2 faiz, "Telefon faksimil cihazlar" qrupu 0,1 faiz, "Zərgərlik məmulatları" qrupu mallarının qiymətləri 0,7 faiz ucuzlaşmış, "Geyim" və "Ayaqqabı" qrupu mallarının qiymətləri müvafiq olaraq 0,1 və 0,4 faiz, "Duru yanacaq" qrupu 9,2 faiz, "Yanacaq və sürtkü materialları" qrupu mallarının qiymətləri isə 29,4 faiz bahalaşmışdır.

Əhaliyə göstərilən pullu xidmətlərdən beynəlxalq reyslər üzrə dəmiryol və hava sərnişindaşıma nəqliyyatı tarifləri dekabr ayında bahalaşmışdır.

Ölkənin iqtisadi rayonları üzrə 2013-cü ilin dekabr ayında istehlak qiymətləri indeksinin dəyişməsi aşağıdakı kimi olmuşdur:

(faizlə)

| | Cəmi mallar və xidmətlər üzrə | Ərzaq məhsulları, içkilər, tütün | Qeyri-ərzaq malları | Xidmətlər |
|---|---|---|---|---|
| Bakı şəhəri | 101,5 | 101,9 | 102,7 | 100,4 |
| Abşeron | 101,9 | 102,7 | 102,9 | 100,1 |
| Gəncə-Qazax | 102,0 | 102,9 | 102,7 | 100,2 |
| Şəki-Zaqatala | 102,3 | 103,1 | 103,1 | 100,4 |
| Lənkəran | 101,5 | 101,5 | 103,0 | 100,5 |
| Quba-Xaçmaz | 102,9 | 103,7 | 104,4 | 100,6 |
| Aran | 101,9 | 102,7 | 102,5 | 100,3 |
| Yuxarı Qarabağ | 102,0 | 102,8 | 102,8 | 100,0 |
| Dağlıq Şirvan | 102,1 | 102,5 | 103,3 | 100,1 |
| Naxçıvan | 100,7 | 101,0 | 101,1 | 100,0 |

2013-cü ilin dekabr ayında **istehlak qiymətlərinin bazis indeksi** 2013-cü ilin noyabr ayı ilə müqayisədə 0,5 faiz, əvvəlki ilin yanvar-dekabr aylarına nisbətən isə 0,7 faiz bahalaşmışdır.

**İstehlak qiymətləri indeksi və istehlak qiymətlərinin bazis indeksinin dəyişməsi**

faizlə




## Sənaye məhsullarının istehsalçı qiymətləri

2013-cü ilin dekabr ayında sənaye məhsullarının istehsalçı qiymətləri indeksi əvvəlki aya nisbətən 1,6 faiz artmış, 2012-ci ilin müvafiq dövrünə nisbətən isə 3,9 faiz aşağı düşmüşdür.

(faizlə)

| Fəaliyyət növlərinin adı | 2013-cü ilin dekabr ayı 2013-cü ilin noyabr ayına nisbətən | 2013-cü ilin yanvar-dekabr ayları 2012-ci ilin yanvar-dekabr aylarına nisbətən |
|---|---|---|
| **Sənaye məhsullarının istehsalçı qiymətləri indeksi** | **101,6** | **96,1** |
| **Mədənçıxarma sənayesi** | **101,7** | **94,6** |
| o cümlədən: xam neft və təbii qaz hasilatı | 101,7 | 94,6 |
| metal filizlərinin hasilatı | 96,6 | 88,4 |
| daş, qum, çınqıl, duz və digər mədənçıxarma sənayesi məhsullarının hasilatı | 100,1 | 101,2 |

…ardı

| Fəaliyyət növlərinin adı | 2013-cü ilin dekabr ayı 2013-cü ilin noyabr ayına nisbətən | 2013-cü ilin yanvar-dekabr ayları 2012-ci ilin yanvar-dekabr aylarına nisbətən |
|---|---|---|
| **Emal sənayesi** | **100,8** | **102,0** |
| o cümlədən: qida məhsullarının istehsalı | 97,7 | 107,2 |
| içki istehsalı | 101,3 | 104,5 |
| tütün məmulatlarının istehsalı | 101,5 | 101,8 |
| toxuculuq sənayesi | 99,7 | 105,2 |
| geyim istehsalı | 100,0 | 107,0 |
| dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 98,9 | 100,2 |
| ağac emalı və ağacdan məmulatların istehsalı | 100,0 | 98,9 |
| kağız və karton istehsalı | 100,0 | 92,0 |
| poliqrafiya fəaliyyəti | 100,0 | 102,6 |
| neft məhsullarının istehsalı | 102,2 | 100,0 |
| kimya sənayesi | 102,0 | 110,1 |
| əczaçılıq məhsullarının istehsalı | 100,0 | 103,8 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 93,7 | 94,1 |
| tikinti məmulatlarının istehsalı | 100,5 | 102,6 |
| metallurgiya sənayesi | 99,9 | 104,2 |
| maşın və avadanlıqlardan başqa hazır metal məmulatlarının istehsalı | 100,0 | 106,2 |
| kompüter və digər elektron avadanlıqların istehsalı | 100,0 | 104,2 |
| elektrik avadanlıqlarının istehsalı | 98,0 | 99,7 |
| maşın və avadanlıqların istehsalı | 100,0 | 98,4 |
| avtomobil və qoşquların istehsalı | 100,0 | 100,2 |
| mebel istehsalı | 98,7 | 104,0 |
| zərgərlik, musiqi, idman və tibb avadanlıqlarının istehsalı | 100,0 | 95,4 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 100,2 | 90,5 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | **100,0** | **100,2** |
| **Su təchizatı; tullantıların təmizlənməsi və emalı** | **100,0** | **100,0** |

2013-cü ilin dekabr ayında mədənçıxarma sənayesi bölməsində istehsalçı qiymətləri metal filizlərinin hasilatı üzrə 3,4 faiz ucuzlaşmış, daş, qum, çınqıl, duz və digər mədənçıxarma sənayesi məhsullarının hasilatı üzrə 0,1 faiz, xam neft və təbii qaz hasilatı üzrə istehsalçı qiymətləri isə 1,7 faiz bahalaşmışdır.

Dekabr ayında emal sənayesi bölməsində istehsalçı qiymətləri rezin və plastik kütlə məmulatlarının istehsalı üzrə 6,3 faiz, qida məhsullarının istehsalı üzrə 2,3 faiz, elektrik avadanlıqlarının istehsalı üzrə 2,0 faiz, mebel istehsalı üzrə 1,3 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı üzrə 1,1 faiz, toxuculuq sənayesi üzrə 0,3 faiz, metallurgiya sənayesi üzrə 0,1 faiz ucuzlaşmış, neft məhsullarının istehsalı üzrə istehsalçı qiymətləri 2,2 faiz, kimya sənayesi üzrə 2,0 faiz, tütün məmulatlarının istehsalı üzrə 1,5 faiz, içki istehsalı üzrə 1,3 faiz, tikinti məmulatlarının istehsalı üzrə 0,5 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri üzrə isə istehsalçı qiymətləri 0,2 faiz bahalaşmışdır.

Ay ərzində elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsi və su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsi üzrə isə heç bir dəyişiklik müşahidə olunmamışdır.

**Sənaye məhsullarının istehsalçı qiymətləri indekslərinin sahələr üzrə dəyişməsi**

əvvəlki aya nisbətən, faizlə




## Nəqliyyat, poçt və rabitə tarifləri

2013-cü ilin dekabr ayında nəqliyyat və poçt tarifləri indeksi noyabr ayına nisbətən 0,3 faiz artmış, keçən ilin müvafiq dövrünə nisbətən isə 2,7 faiz aşağı düşmüşdür. Rabitə tarifləri əvvəlki ayla müqayisədə 6,5 faiz, keçən ilin müvafiq dövrü ilə müqayisədə isə 1,4 faiz ucuzlaşmışdır.

(faizlə)

| | 2013-cü ilin dekabr ayı 2013-cü ilin noyabr ayına nisbətən | 2013-cü ilin yanvar-dekabr ayları 2012-ci ilin yanvar-dekabr aylarına nisbətən |
|---|---|---|
| **Nəqliyyat və poçt tarifləri indeksi** | **100,3** | **97,3** |
| o cümlədən: **Poçt və kuryer tarifləri indeksi** | **100,0** | **100,9** |
| o cümlədən: Milli poçtların fəaliyyəti | 100,0 | 100,9 |

…ardı…

| | 2013-cü ilin dekabr ayı 2013-cü ilin noyabr ayına nisbətən | 2013-cü ilin yanvar-dekabr ayları 2012-ci ilin yanvar-dekabr aylarına nisbətən |
|---|---|---|
| Kuryer fəaliyyəti | 100,0 | 102,2 |
| **Nəqliyyatda yükdaşıma tarifləri indeksi** | **100,0** | **95,6** |
| o cümlədən: | | |
| Dəniz | 100,0 | 96,5 |
| o cümlədən: digər xarici ölkələrə | 100,0 | 95,6 |
| MDB ölkələrinə | 100,0 | 98,7 |
| Hava | 100,0 | 100,0 |
| o cümlədən: digər xarici ölkələrə | 100,0 | 100,0 |
| MDB ölkələrinə | 100,0 | 99,3 |
| Boru kəməri | 100,0 | 90,7 |
| o cümlədən: neftin nəqli | 100,0 | 89,5 |
| qazın nəqli | 100,0 | 102,4 |
| Avtomobil | 100,0 | 107,7 |
| o cümlədən: | | |
| işəmuzd tarif | 100,0 | 97,2 |
| o cümlədən: | | |
| yerli əlaqə | 100,0 | 99,3 |
| beynəlxalq əlaqədə | 100,0 | 87,5 |
| bir saatlıq işə görə tarif | 100,0 | 119,1 |
| **Nəqliyyatda sərnişindaşıma tarifləri indeksi** | **101,4** | **100,1** |
| o cümlədən: | | |
| Dəmir yolu | 108,1 | 90,4 |
| o cümlədən: | | |
| yerli əlaqə | 100,0 | 100,0 |
| beynəlxalq əlaqə | 116,9 | 81,9 |
| Dəniz | 102,3 | 98,1 |
| Hava | 104,1 | 101,7 |
| o cümlədən: | | |
| yerli əlaqə | 100,0 | 100,0 |
| MDB ölkələrinə | 103,5 | 106,3 |
| digər xarici ölkələrə | 108,9 | 106,0 |
| Avtomobil | 100,0 | 99,9 |

...sonu

| | 2013-cü ilin dekabr ayı 2013-cü ilin noyabr ayına nisbətən | 2013-cü ilin yanvar-dekabr ayları 2012-ci ilin yanvar-dekabr aylarına nisbətən |
|---|---|---|
| o cümlədən:<br>yeli əlaqə | 100,0 | 99,7 |
| o cümlədən:<br>şəhərdaxili nəqliyyat | 100,0 | 100,0 |
| şəhərlərarası nəqliyyat | 100,0 | 98,6 |
| şəhərətrafı nəqliyyat | 100,0 | 100,0 |
| beynəlxalq nəqliyyat | 100,0 | 113,6 |
| Metro | 100,0 | 100,0 |
| Taksi | 100,0 | 100,0 |
| **Rabitə tarifləri indeksi** | **93,5** | **98,6** |
| o cümlədən:<br>Simli rabitə xidmətləri | 100,0 | 100,0 |
| o cümlədən:<br>simli telekommunikasiya | 100,0 | 100,0 |
| telefon rabitəsi | 100,0 | 100,0 |
| Mobil telefon rabitəsi | 90,7 | 99,4 |
| İnternet rabitəsi | 99,3 | 80,8 |

2013-cü ilin dekabr ayında dəmir yolu nəqliyyatında MDB ölkələrinə sərnişindaşıma tarifləri 16,9 faiz bahalaşmışdır.

Hava nəqliyyatında sərnişindaşıma tarifləri MDB ölkələri və digər xarici ölkələr üzrə uyğun olaraq 3,5 və 8,9 faiz bahalaşmış, yükdaşıma tarifləri isə əvvəlki ayla eyni səviyyədə qalmışdır.

Dekabr ayında dəniz nəqliyyatında sərnişindaşıma tarifləri 2,3 faiz bahalaşmış, yükdaşıma tarifləri isə sabit qalmışdır.

Avtomobil nəqliyyatında yükdaşıma və sərnişindaşıma tarifləri əvvəlki ayla müqayisədə dəyişməmişdir.

Ay ərzində boru kəməri vasitəsilə neft və qazın nəql olunma tarifi üzrə və həmçinin poçt və kuryer tarifləri üzrə dəyişiklik müşahidə olunmamışdır.

# Satılmış kənd təsərrüfatı, balıqçılıq və meşə təsərrüfatı məhsullarının istehsalçı qiymətləri

2013-cü ilin dekabr ayında bitkiçilik və heyvandarlıq məhsullarının istehsalçı qiymətləri əvvəlki ayla müqayisədə 0,4 faiz, yanvar-dekabr aylarında isə 2012-ci ilin müvafiq dövrünə nisbətən 3,2 faiz bahalaşmışdır.

(faizlə)

| | 2013-cü ilin dekabr ayı 2013-cü ilin noyabr ayına nisbətən | 2013-cü ilin yanvar-dekabr ayları 2012-ci ilin yanvar-dekabr aylarına nisbətən |
|---|---|---|
| **Kənd təsərrüfatı məhsulları** | **100,4** | **103,2** |
| **Birillik bitkilər** | **100,6** | **103,6** |
| Dənli (düyü istisna olmaqla) bitkilər, paxlalı bitkilər və yağlı toxumlar | 99,4 | 104,2 |
| o cümlədən: buğda | 99,1 | 106,6 |
| qarğıdalı | 95,0 | 96,3 |
| arpa, çovdar və yulaf | 101,2 | 103,1 |
| yaşıl paxlalı tərəvəzlər | 100,1 | 101,9 |
| qabıqdan çıxarılmış, qurudulmuş paxlalı tərəvəzlər | 100,1 | 90,5 |
| Tərəvəz, bostan məhsulları, kökümeyvəli və köküyumrular | 101,3 | 103,1 |
| o cümlədən: yarpaqlı və gövdəli tərəvəzlər | 100,0 | 101,5 |
| qarpız və yemiş | 100,0 | 99,6 |
| bar verən sair tərəvəzlər | 99,8 | 109,4 |
| kökümeyvəli, soğanaqlı və ya köküyumrulu tərəvəzlər | 101,2 | 97,8 |
| tərkibində yüksək miqdarda nişasta olan süfrə kökümeyvəli və köküyumrular | 103,5 | 95,5 |
| o cümlədən: kartof | 103,5 | 95,0 |
| şəkər çuğunduru | 100,0 | 100,0 |
| Lifli bitkilər | 100,0 | 99,4 |
| o cümlədən: xam pambıq | 100,0 | 99,4 |

...ardı...

| | 2013-cü ilin dekabr ayı 2013-cü ilin noyabr ayına nisbətən | 2013-cü ilin yanvar-dekabr ayları 2012-ci ilin yanvar-dekabr aylarına nisbətən |
|---|---|---|
| Yem bitkiləri | 100,9 | 99,5 |
| **Çoxillik bitkilər** | **98,2** | **98,2** |
| Üzüm | 100,0 | 91,3 |
| Tropik və subtropik meyvələr | 100,2 | 105,3 |
| Sitrus meyvələri | 89,2 | 95,4 |
| Tumlu və çəyirdəkli meyvələr | 95,3 | 95,4 |
| Sair meyvə ağacları, kol meyvələri və qoz-fındıq | 102,0 | 94,7 |
| o cümlədən: giləmeyvələr və turuncu meyvələr | 100,0 | 96,0 |
| qoz-fındıq | 102,1 | 94,7 |
| İçki istehsalı üçün kənd təsərrüfatı bitkiləri | 100,0 | 101,4 |
| **Bitki xammalı: soğanaqlar, köküyumrular və köklər, şitil və qələmlər; göbələk telləri** | **100,0** | **75,5** |
| **Diri heyvanlar və heyvandarlıq məhsulları** | **100,7** | **103,7** |
| İri-buynuzlu mal-qara və onların məhsulları (törəməsi) | 100,7 | 101,6 |
| o cümlədən: iri-buynuzlu mal-qara, buzovlardan başqa | 100,4 | 103,2 |
| mal əti (diri çəkidə) | 100,0 | 106,3 |
| südverən mal-qaradan alınan süd | 101,1 | 99,2 |
| digər iri-buynuzlu mal-qara və camışlar | 100,1 | 101,1 |
| Qoyun və keçilər, onların çiy südü və yunu | 99,8 | 103,5 |
| o cümlədən: diri qoyun və keçilər | 99,8 | 103,8 |
| qoyun əti (diri çəkidə) | 99,7 | 103,5 |
| qoyun və keçilərin çiy südü | 100,0 | 101,1 |
| qoyun və keçilərin qırxılmış, yuyulmamış yunu | 100,0 | 100,4 |
| Donuz əti (diri çəkidə) | 100,0 | 104,6 |

…sonu

| | 2013-cü ilin dekabr ayı 2013-cü ilin noyabr ayına nisbətən | 2013-cü ilin yanvar-dekabr ayları 2012-ci ilin yanvar-dekabr aylarına nisbətən |
|---|---|---|
| Diri ev quşları və yumurtalar | 102,2 | 111,2 |
| o cümlədən: diri ev quşları | 100,0 | 111,3 |
| quş əti (diri çəkidə) | 100,3 | 104,1 |
| təzə qabıqlı yumurtalar | 106,5 | 111,8 |
| Sair diri ferma heyvanları və heyvan məhsulları | 99,7 | 100,7 |
| o cümlədən: təbii bal | 99,7 | 100,7 |
| **Meşə təsərrüfatı** | **100,0** | **100,7** |
| **Balıq və sair balıqçılıq məhsulları** | **101,6** | **103,6** |

2013-cü ilin dekabr ayında birillik bitkilər üzrə qiymət indeksi əvvəlki aya nisbətən 100,6 faiz təşkil etmişdir. Bu bölmədə dənli (düyü istisna olmaqla) bitkilər, paxlalı bitkilər və yağlı toxumların istehsalçı qiymətləri 0,6 faiz ucuzlaşmış, tərəvəz, bostan məhsulları, kökümeyvəli və köküyumruların istehsalçı qiymətləri 1,3 faiz, yem bitkilərinin istehsalçı qiymətləri isə 0,9 faiz bahalaşmışdır.

Çoxillik bitkilərdən sitrus meyvələrinin istehsalçı qiymətləri 10,8 faiz, tumlu və çəyirdəkli meyvələrin istehsalçı qiymətləri 4,7 faiz ucuzlaşmış, tropik və subtropik meyvələrin istehsalçı qiymətləri 0,2 faiz, sair meyvə ağacları, kol meyvələri və qoz-fındığın istehsalçı qiymətləri isə 2,0 faiz bahalaşmışdır.

Heyvandarlıq bölməsində qoyun və keçilər, onların çiy südü və yununun istehsalçı qiymətləri 0,2 faiz, sair diri ferma heyvanları və heyvan məhsullarının istehsalçı qiymətləri 0,3 faiz ucuzlaşmış, iri-buynuzlu mal-qara və onların məhsullarının istehsalçı qiymətləri 0,7 faiz, diri ev quşları və yumurtanın istehsalçı qiymətləri isə 2,2 faiz bahalaşmışdır.

Ay ərzində balıq və sair balıqçılıq məhsullarının istehsalçı qiymətləri 1,6 faiz bahalaşmış, meşə təsərrüfatı məhsullarının istehsalçı qiymətlərində isə əvvəlki ayla müqayisədə heç bir dəyişiklik müşahidə olunmamışdır.

**2012-ci və 2013-cü illər üzrə kənd təsərrüfatı, balıqçılıq və meşə təsərrüfatı məhsullarının istehsalçı qiymətlərinin dəyişməsi**

(faizlə)



# Mənzil bazarında qiymətlər

Mənzil bazarında qiymət indeksi 2013-cü ilin IV rübündə 2013-cü ilin III rübü ilə müqayisədə 3,3 faiz, əvvəlki ilin müvafiq rübünə nisbətən isə 6,5 faiz artmışdır.

İlkin mənzil bazarında qiymətlər əvvəlki rüblə müqayisədə 3,2 faiz, əvvəlki ilin müvafiq rübünə nisbətən 3,8 faiz, təkrar mənzil bazarında qiymətlər əvvəlki rüblə müqayisədə 3,3 faiz, əvvəlki ilin müvafiq rübü ilə müqayisədə isə 6,5 faiz artmışdır.

| | 2013-cü ilin IV rübü 2013-cü ilin III rübünə nisbətən | 2013-cü ilin IV rübü 2012-ci ilin IV rübünə nisbətən |
|---|---|---|
| **Mənzil bazarında qiymət indeksi** | **103,3** | **106,5** |
| o cümlədən:<br>**İlkin mənzil bazarında qiymət indeksi** | **103,2** | **103,8** |
| o cümlədən:<br>birtipli mənzillər | 100,0 | 100,5 |
| yaxşı layihələndirilmiş mənzillər | 108,6 | 109,5 |
| elit mənzillər | 98,5 | 98,1 |
| **Təkrar mənzil bazarında qiymət indeksi** | **103,3** | **106,5** |
| o cümlədən:<br>aşağı keyfiyyətli mənzillər | 102,0 | 106,1 |
| birtipli mənzillər | 102,9 | 107,7 |
| yaxşı layihələndirilmiş mənzillər | 100,3 | 103,7 |
| elit mənzillər | 105,6 | 106,1 |

## Mənzil bazarında qiymətlərin dəyişməsi



# İdxal və ixrac olunan malların qiymətləri

Respublikaya idxal olunan malların qiymət indeksi 2013-cü ilin noyabr ayında əvvəlki aya nisbətən 99,5 faiz, MDB ölkələrindən idxal olunan mallar üzrə 98,8 faiz, digər ölkələrdən idxal olunan mallar üzrə isə 99,8 faiz təşkil etmişdir.

Təsnif edilmiş emal mərhələləri üzrə idxal edilmiş investisiya mallarının qiymətləri 1,4 faiz, aralıq məhsulların qiymətləri 0,4 faiz və istehlak mallarının qiymətləri 0,1 faiz ucuzlaşmış, digər malların qiymətləri isə 0,1 faiz bahalaşmışdır.

İdxal olunan malların məcmu və qruplar üzrə indeksləri aşağıdakı kimi olmuşdur:

(faizlə)

| | 2013-cü ilin noyabr ayı 2013-cü ilin oktyabr ayına nisbətən | 2013-cü ilin yanvar-noyabr ayları 2012-ci ilin yanvar-noyabr aylarına nisbətən |
|---|---|---|
| **Bütün mallar üzrə** | **99,5** | **101,8** |
| **Emal mərhələləri üzrə** | | |
| İnvestisiya malları | 98,6 | 100,9 |
| Aralıq məhsullar | 99,6 | 102,4 |
| o cümlədən: energetika məhsulları | 100,0 | 97,2 |
| digər aralıq məhsullar | 99,6 | 102,5 |
| İstehlak malları | 99,9 | 100,2 |
| o cümlədən: qısa müddət üçün nəzərdə tutulan istehlak malları | 99,9 | 101,7 |
| uzun müddət üçün nəzərdə tutulan istehlak malları | 99,8 | 98,3 |
| ikili istifadə xüsusiyyətli mallar | 100,0 | 101,3 |
| Digər mallar | 100,1 | 99,5 |

Respublikadan ixrac olunan malların qiymət indeksi 2013-cü ilin noyabr ayında əvvəlki aya nisbətən 107,7 faiz, MDB ölkələrinə ixrac olunan mallar üzrə 100,6 faiz, digər ölkələrə ixrac olunan mallar üzrə isə 108,2 faiz təşkil etmişdir.

Emal mərhələləri üzrə ixrac olunan aralıq məhsulların qiymətləri 0,4 faiz, investisiya mallarının qiymətləri 1,0 faiz və digər malların qiymətləri 0,1 faiz ucuzlaşmış, istehlak mallarının qiymətləri isə 3,8 faiz bahalaşmışdır.

İxrac olunan malların məcmu və qruplar üzrə indeksləri aşağıdakı kimi olmuşdur:

(faizlə)

| | 2013-cü ilin noyabr ayı 2013-cü ilin oktyabr ayına nisbətən | 2013-cü ilin yanvar-noyabr ayları 2012-ci ilin yanvar-noyabr aylarına nisbətən |
|---|---|---|
| **Bütün mallar üzrə** | **107,7** | **94,9** |
| **o cümlədən:**<br>**Neft və neft məhsulları daxil olmadan** | **100,0** | **100,2** |
| **Emal mərhələləri üzrə** | | |
| İnvestisiya malları | 99,0 | 99,4 |
| Aralıq məhsullar | 99,6 | 93,6 |
| o cümlədən:<br>energetika məhsulları | 99,7 | 91,6 |
| digər aralıq məhsullar | 99,5 | 99,9 |
| İstehlak malları | 103,8 | 98,5 |
| o cümlədən:<br>qısa müddət üçün nəzərdə tutulan istehlak malları | 104,0 | 98,0 |
| uzun müddət üçün nəzərdə tutulan istehlak malları | 99,8 | 104,4 |
| ikili istifadə xüsusiyyətli mallar | 101,1 | 113,0 |
| Digər mallar | 99,9 | 98,2 |

## 2013-cü ilin noyabr ayında ayrı-ayrı qruplar üzrə idxal və ixrac olunan malların qiymət indekslərinin dəyişməsi

(faizlə)

| | İdxal | | İxrac | |
|---|---|---|---|---|
| | 2013-cü ilin noyabr ayı 2013-cü ilin oktyabr ayına nisbətən | 2013-cü ilin yanvar-noyabr ayları 2012-ci ilin yanvar-noyabr aylarına nisbətən | 2013-cü ilin noyabr ayı 2013-cü ilin oktyabr ayına nisbətən | 2013-cü ilin yanvar-noyabr ayları 2012-ci ilin yanvar-noyabr aylarına nisbətən |
| Diri heyvanlar və heyvan mənşəli məhsullar | 99,8 | 99,3 | 105,1 | 92,0 |
| MDB ölkələri | 100,0 | 99,5 | 100,0 | 91,1 |
| Digər ölkələr | 99,7 | 99,3 | 105,8 | 92,0 |
| Bitki mənşəli məhsullar | 97,3 | 96,3 | 97,1 | 110,3 |
| MDB ölkələri | 96,5 | 94,5 | 96,7 | 111,9 |
| Digər ölkələr | 100,5 | 102,6 | 100,9 | 99,5 |
| Heyvan və ya bitki mənşəli piylər və yağlar | 97,8 | 108,9 | 97,3 | 89,3 |
| MDB ölkələri | 95,3 | 114,8 | 100,2 | 85,7 |
| Digər ölkələr | 100,0 | 102,8 | 97,2 | 99,1 |
| Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün | 100,0 | 104,0 | 102,8 | 90,5 |
| MDB ölkələri | 99,6 | 104,8 | 99,8 | 102,7 |
| Digər ölkələr | 100,4 | 102,7 | 104,4 | 83,2 |
| Mineral məhsullar | 96,9 | 102,8 | 108,1 | 94,5 |
| MDB ölkələri | 98,1 | 105,5 | 101,6 | 99,5 |
| Digər ölkələr | 96,1 | 101,5 | 108,5 | 94,3 |
| Kimya sənayesi məhsulları | 99,7 | 99,6 | 100,1 | 99,7 |
| MDB ölkələri | 99,9 | 94,4 | 100,0 | 98,4 |
| Digər ölkələr | 99,7 | 101,3 | 100,4 | 104,3 |
| Plastik kütlələr, kauçuk, rezin, onlardan hazırlanan məhsullar | 98,9 | 103,0 | 100,4 | 107,2 |

...ardı...

| | İdxal | | İxrac | |
|---|---|---|---|---|
| | 2013-cü ilin noyabr ayı 2013-cü ilin oktyabr ayına nisbətən | 2013-cü ilin yanvar-noyabr ayları 2012-ci ilin yanvar-noyabr aylarına nisbətən | 2013-cü ilin noyabr ayı 2013-cü ilin oktyabr ayına nisbətən | 2013-cü ilin yanvar-noyabr ayları 2012-ci ilin yanvar-noyabr aylarına nisbətən |
| MDB ölkələri | 91,5 | 113,1 | 100,2 | 108,2 |
| Digər ölkələr | 99,7 | 101,6 | 100,5 | 106,8 |
| Emal olunmamış gön aşılanmış dəri, təbii xəz, onlardan hazırlanan məmulatlar | 100,1 | 103,1 | 109,8 | 107,8 |
| MDB ölkələri | 100,0 | 100,1 | 100,0 | 100,0 |
| Digər ölkələr | 100,1 | 103,1 | 109,9 | 107,9 |
| Oduncaq, mantar və onlardan hazırlanan məmulatlar, hörmə məhsulları | 100,0 | 114,6 | 100,1 | 85,8 |
| MDB ölkələri | 99,8 | 116,8 | 100,6 | 91,5 |
| Digər ölkələr | 100,5 | 103,8 | 100,0 | 84,4 |
| Oduncaqdan hazırlanan kütlə, kağız və karton, onlardan hazırlanan məmulatlar | 99,3 | 99,8 | 115,8 | 102,4 |
| MDB ölkələri | 98,4 | 96,7 | 103,0 | 109,8 |
| Digər ölkələr | 99,8 | 101,9 | 116,6 | 100,6 |
| Toxuculuq materialları və məmulatları | 100,1 | 103,3 | 99,6 | 109,1 |
| MDB ölkələri | 100,7 | 102,5 | 99,2 | 110,5 |
| Digər ölkələr | 100,0 | 103,3 | 100,9 | 101,7 |
| Ayaqqabı, baş geyimləri, çətirlər, çəliklər, lələklər, süni güllər | 100,3 | 99,2 | 99,6 | 95,8 |
| MDB ölkələri | 100,1 | 83,4 | 100,0 | 95,7 |
| Digər ölkələr | 100,3 | 99,8 | 86,7 | 98,1 |

...ardı...

| | İdxal | | İxrac | |
|---|---|---|---|---|
| | 2013-cü ilin noyabr ayı 2013-cü ilin oktyabr ayına nisbətən | 2013-cü ilin yanvar-noyabr ayları 2012-ci ilin yanvar-noyabr aylarına nisbətən | 2013-cü ilin noyabr ayı 2013-cü ilin oktyabr ayına nisbətən | 2013-cü ilin yanvar-noyabr ayları 2012-ci ilin yanvar-noyabr aylarına nisbətən |
| Daş, gips, sement, asbest, slyuda, keramika və şüşə məmulatları | 100,8 | 100,7 | 100,3 | 99,0 |
| MDB ölkələri | 101,5 | 99,0 | 100,6 | 98,5 |
| Digər ölkələr | 100,5 | 101,4 | 99,4 | 104,1 |
| Mirvari, qiymətli daşlar və metallar, onlardan hazırlanan məmulatlar | 96,1 | 92,4 | 98,7 | 86,2 |
| MDB ölkələri | 100,0 | 109,5 | 100,0 | 149,9 |
| Digər ölkələr | 96,0 | 92,3 | 98,7 | 86,2 |
| Azqiymətli metallar və onlardan hazırlanan məmulatlar | 99,4 | 103,1 | 100,7 | 105,0 |
| MDB ölkələri | 98,9 | 103,4 | 101,0 | 100,1 |
| Digər ölkələr | 99,8 | 102,7 | 100,6 | 105,7 |
| Maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, aparatura | 99,8 | 102,2 | 99,9 | 96,0 |
| MDB ölkələri | 99,8 | 104,5 | 99,9 | 95,7 |
| Digər ölkələr | 99,8 | 101,8 | 99,9 | 97,2 |
| Quru nəqliyyat vasitələri, uçan aparatlar, üzən nəqliyyat vasitələri | 100,0 | 98,8 | 99,5 | 100,0 |
| MDB ölkələri | 100,8 | 101,6 | 95,6 | 99,0 |
| Digər ölkələr | 99,9 | 98,3 | 100,0 | 100,0 |

...sonu

| | İdxal | | İxrac | |
|---|---|---|---|---|
| | 2013-cü ilin noyabr ayı 2013-cü ilin oktyabr ayına nisbətən | 2013-cü ilin yanvar-noyabr ayları 2012-ci ilin yanvar-noyabr aylarına nisbətən | 2013-cü ilin noyabr ayı 2013-cü ilin oktyabr ayına nisbətən | 2013-cü ilin yanvar-noyabr ayları 2012-ci ilin yanvar-noyabr aylarına nisbətən |
| Optik, fotoqrafik, ölçü, nəzarət, tibbi alət və aparatlar, saatlar, musiqi alətləri | 100,3 | 102,1 | 98,6 | 100,0 |
| MDB ölkələri | 100,2 | 101,3 | 98,0 | 100,4 |
| Digər ölkələr | 100,3 | 102,1 | 99,9 | 99,9 |
| Müxtəlif sənaye malları | 98,8 | 102,2 | 100,1 | 111,2 |
| MDB ölkələri | 93,0 | 104,8 | 100,1 | 113,1 |
| Digər ölkələr | 99,1 | 102,0 | 100,0 | 100,0 |
| İncəsənət əsərləri, kolleksiya əşyaları və antikvariat | 100,1 | 100,5 | 99,9 | 98,2 |
| MDB ölkələri | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Digər ölkələr | 100,1 | 100,5 | 99,8 | 97,9 |

# Kredit qoyuluşları

Mərkəzi Bankın məlumatına görə, 2013-cü ilin dekabr ayının 1-i vəziyyətinə ölkənin bank-kredit təşkilatları tərəfindən verilmiş kreditlərin həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 30,0 faiz artaraq 15,2 milyard manata çatmışdır. Qüvvədə olan kreditlərin 34,2 faizi dövlət, 62,9 faizi özəl banklar, 2,9 faizi isə bank olmayan kredit təşkilatlarının payına düşmüşdür.

Kreditlərin 77,6 faizini uzunmüddətli kreditlər təşkil etmiş, 5,2 faizinin ödənilmə vaxtı keçmişdir.

## İqtisadiyyata kredit qoyuluşu

| | 2013-cü il dekabrın 1-i vəziyyətinə, milyon manat |
|---|---|
| **Kredit qoyuluşları – cəmi** | 15245,3 |
| ondan:<br>- qısamüddətli | 3419,4 |
| - uzunmüddətli | 11825,9 |
| Ödənilmə vaxtı keçmiş kreditlər | 795,0 |
| Kreditlərin ümumi həcmində vaxtı keçmiş kreditlərin xüsusi çəkisi, %-lə | 5,2 |

## Məşğulluq və işsizlik

2014-cü il yanvarın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 4757,8 min nəfər olmuş, onlardan 4521,2 min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil etmişdir.

2013-cü il dekabrın 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1505,9 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət bölməsində 901,8 min nəfər, qeyri-dövlət bölməsində isə 604,1 min nəfər təşkil etmişdir. İqtisadiyyatın neft sektorunda 37,6 min nəfər, qeyri-neft sektorunda isə 1468,3 min nəfər çalışmışdır. Muzdla işləyənlərin tərkibində qeyri-kənd təsərrüfatı sahəsində əmək fəaliyyəti ilə məşğul olanlar 1463,1 min nəfər təşkil etmişdir.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,3 faizi məhsul istehsalı sahələrində, onlardan 7,1 faizi tikintidə, 6,2 faizi emal sənayesində, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 2,5 faizi mədənçıxarma sənayesində, 2,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində, 1,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində məşğul olmuşlar.

Xidmət sahəsində çalışanların 22,7 faizi təhsil, 18,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 1,8 faizi maliyyə və sığorta fəaliyyəti, 1,8 faizi informasiya və rabitə, 1,6 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 1,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 0,8 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində cəmlənmişdir.

2014-cü il yanvarın 1-i vəziyyətinə məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 36,2 min nəfər olmuş, onların 41,5 faizini qadınlar

təşkil etmişdir. İşsizliyə görə müavinətin orta məbləği 268,5 manat olmuşdur.

2014-cü il yanvar ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanları tərəfindən işsiz statusu verilmiş şəxslərin və işsizlik müavinəti alanların sayı ölkənin iqtisadi rayonları üzrə aşağıdakı kimi səciyyələnir:

nəfər

| | İşsiz statusuna malik olanlar | onlardan işsizliyə görə müavinət alanlar |
|---|---|---|
| **Ölkə üzrə – cəmi** | **36 206** | **636*** |
| **Bakı şəhəri – cəmi** | **13 303** | **228** |
| **Abşeron iqtisadi rayonu – cəmi** | **1 509** | **95** |
| o cümlədən:<br>Xızı rayonu | 97 | 2 |
| Abşeron rayonu | 302 | 17 |
| Sumqayıt şəhəri | 1 110 | 76 |
| **Gəncə-Qazax iqtisadi rayonu – cəmi** | **2 359** | **61** |
| o cümlədən:<br>Gəncə şəhəri | 596 | 20 |
| Qazax rayonu | 729 | 3 |
| Ağstafa rayonu | 108 | - |
| Tovuz rayonu | 134 | 15 |
| Şəmkir rayonu | 377 | 7 |
| Gədəbəy rayonu | 190 | 8 |
| Daşkəsən rayonu | 4 | 1 |
| Samux rayonu | 24 | 3 |
| Göygöl rayonu | 99 | 2 |
| Goranboy rayonu | 51 | 2 |
| Naftalan şəhəri | 47 | - |
| **Şəki-Zaqatala iqtisadi rayonu – cəmi** | **1 069** | **39** |
| o cümlədən:<br>Balakən rayonu | 223 | - |
| Zaqatala rayonu | 53 | 3 |
| Qax rayonu | 294 | 9 |
| Şəki rayonu | 260 | 11 |
| Oğuz rayonu | 49 | 7 |
| Qəbələ rayonu | 190 | 9 |
| **Lənkəran iqtisadi rayonu – cəmi** | **1 031** | **21** |
| o cümlədən:<br>Astara rayonu | 112 | 2 |
| Lənkəran rayonu | 347 | 9 |

...ardı...

| | İşsiz statusuna malik olanlar | onlardan işsizliyə görə müavinət alanlar |
|---|---|---|
| Lerik rayonu | 40 | - |
| Yardımlı rayonu | 169 | 1 |
| Masallı rayonu | 111 | 3 |
| Cəlilabad rayonu | 252 | 6 |
| **Quba-Xaçmaz iqtisadi rayonu – cəmi** | **1 145** | **34** |
| o cümlədən:<br>Qusar rayonu | 396 | 19 |
| Xaçmaz rayonu | 65 | 3 |
| Quba rayonu | 430 | 7 |
| Şabran rayonu | 159 | 3 |
| Siyəzən rayonu | 95 | 2 |
| **Aran iqtisadi rayonu – cəmi** | **10 023** | **107** |
| o cümlədən:<br>Göyçay rayonu | 462 | 12 |
| Beyləqan rayonu | 93 | 3 |
| Ağcabədi rayonu | 382 | 16 |
| Bərdə rayonu | 3 263 | 8 |
| Neftçala rayonu | 233 | - |
| Biləsuvar rayonu | 570 | 9 |
| Salyan rayonu | 131 | 8 |
| Yevlax rayonu | 604 | 7 |
| Mingəçevir şəhəri | 1 614 | 3 |
| Ağdaş rayonu | 36 | 3 |
| Ucar rayonu | 36 | 6 |
| Zərdab rayonu | 34 | 2 |
| Kürdəmir rayonu | 468 | 4 |
| İmişli rayonu | 392 | 3 |
| Saatlı rayonu | 29 | 6 |
| Sabirabad rayonu | 475 | 5 |
| Hacıqabul rayonu | 494 | 6 |
| Şirvan şəhəri | 707 | 6 |
| **Yuxarı Qarabağ iqtisadi rayonu – cəmi** | **3 347** | **30** |
| o cümlədən:<br>Cəbrayıl rayonu | 160 | - |
| Füzuli rayonu | 515 | 1 |
| Ağdam rayonu | 1 890 | 17 |

... sonu

| | İşsiz statusuna malik olanlar | onlardan işsizliyə görə müavinət alanlar |
|---|---|---|
| Tərtər rayonu | 583 | 8 |
| Xocalı rayonu | 70 | 1 |
| Şuşa rayonu | 41 | - |
| Xocavənd rayonu | 88 | 3 |
| Xankəndi şəhəri | - | - |
| **Kəlbəcər-Laçın iqtisadi rayonu – cəmi** | **1 433** | **5** |
| o cümlədən:<br>Kəlbəcər rayonu | 926 | - |
| Laçın rayonu | 193 | 2 |
| Qubadlı rayonu | 209 | 1 |
| Zəngilan rayonu | 105 | 2 |
| **Dağlıq Şirvan iqtisadi rayonu – cəmi** | **987** | **16** |
| o cümlədən:<br>Qobustan rayonu | 83 | 4 |
| İsmayıllı rayonu | 384 | 1 |
| Ağsu rayonu | 300 | 4 |
| Şamaxı rayonu | 220 | 7 |
| **Naxçıvan iqtisadi rayonu – cəmi** | **-** | **-** |
| o cümlədən:<br>Naxçıvan şəhəri | - | - |
| Sədərək rayonu | - | - |
| Şərur rayonu | - | - |
| Babək rayonu | - | - |
| Şahbuz rayonu | - | - |
| Culfa rayonu | - | - |
| Ordubad rayonu | - | - |
| Kəngərli rayonu | - | - |

* “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2 iyul 2001-ci il tarixli Qanununa əsasən işsizlik statusuna malik olan şəxslərdən bir qismi işsizlik müavinəti almışlar (müavinətin ödənilməsi müddəti Qanunda nəzərdə tutulmuş hallardan başqa 12 aylıq dövr ərzində 26 təqvim həftəsindən çox ola bilməz).

# Xarici ticarət

2013-cü ilin yanvar-noyabr aylarında Azərbaycan Respublikasının rezidentləri dünyanın 148 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 102 ölkəyə əmtəə ixrac olunmuş, 140 ölkədən idxal olunmuşdur.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən 2013-cü ilin on bir ayında xarici ölkələrlə 31,7 milyard ABŞ dolları məbləğində ticarət, o cümlədən 22,0 milyard dollarlıq ixrac və 9,7 milyard dollarlıq idxal əməliyyatları aparılmış, 12,3 milyard dollarlıq müsbət saldo yaranmışdır. 2012-ci ilin müvafiq dövrünə nisbətən əmtəə mübadiləsinin dəyəri müqayisəli qiymətlərlə 7,4 faiz, o cümlədən ixracın həcmi 4,9 faiz, idxalın həcmi isə 13,2 faiz artmışdır. Ticarət əlaqələrinin 88,2 faizi və ya 28,0 milyard dolları MDB üzvü dövlətləri istisna olmaqla digər dövlətlərlə, o cümlədən 43,3 faizi və ya 13,7 milyard dolları Avropa İttifaqı ölkələri ilə, 11,8 faizi, yaxud 3,7 milyard dolları MDB üzvü dövlətləri ilə həyata keçirilmiş və bu ölkə qrupları ilə ticarət dövriyyəsinin fiziki həcmi müvafiq olaraq 6,8 faiz və 15,7 faiz artmışdır. Xarici ticarət dövriyyəsi iştirakçılarının 29-u Amerika, 49-u Avropa, 38-i Asiya ölkələri və digərləridir.

MDB üzvü dövlətləri istisna olmaqla digər dövlətlərə ixrac olunmuş malların dəyəri müqayisəli qiymətlərlə 3,9 faiz artmış və 20,6 milyard dollar həcmində məhsul göndərilmişdir. MDB ölkələrinə ixrac olunmuş malların həcmi də 28,5 faiz artaraq 1,4 milyard dollar təşkil etmişdir. İxracın 6,4 faizi MDB, 47,2 faizi və ya 10,4 milyard dolları Avropa İttifaqı ölkələri ilə, qalan 46,4 faizi və ya 10,2 milyard dolları isə digər dövlətlərlə həyata keçirilmişdir.

2013-cü ilin yanvar-noyabr aylarında ölkəmizə idxal olunmuş malların 7,4 milyard dollarlığı MDB üzvü dövlətləri istisna olmaqla digər ölkələrdən daxil olmuşdur. İdxalın 23,8 faizi və ya 2,3 milyard dolları MDB üzvü dövlətlərinin, 34,3 faizi və ya 3,3 milyard dolları Avropa İttifaqı ölkələrinin, qalan 41,9

faizi və ya 4,1 milyard dolları isə digər dövlətlərin hesabına formalaşmışdır.

Qeyri-neft məhsullarının 1615,2 milyon dollar dəyərində ixracı 2012-ci ilin yanvar-noyabr aylarının səviyyəsini 7,4 faiz üstələmişdir. Hər nəfərə düşən qeyri-neft məhsullarının ixracı 10,1 dollar artaraq 172,9 dollara bərabər olmuşdur.

Xarici ticarət dövriyyəsinin beşdə dörd hissəsindən çoxu (83,0 faizi) İtaliya, İndoneziya, Rusiya, Almaniya, Türkiyə, Tailand, Böyük Britaniya, Fransa, Amerika Birləşmiş Ştatları, İsrail, Hindistan, Ukrayna, Yunanıstan, Çin, Gürcüstan, Portuqaliya və Tayvan (Çinin əyaləti) dövlətlərinin hesabına formalaşmışdır.

Mal mübadiləsinin 87,9 faizi, o cümlədən ixracın 93,8 faizi və idxalın 74,4 faizi sərbəst dönərli valyuta ilə hesablaşmalar əməliyyat növü ilə həyata keçirilmiş və bu hesablaşmaların həcmi 2012-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 0,3 faiz artmışdır.

Ölkəmizə idxal olunmuş malların ümumi həcminin 14,2 faizi Rusiyanın, 14,0 faizi Türkiyənin, 12,2 faizi Böyük Britaniyanın, 7,3 faizi Almaniyanın, 5,5 faizi Çinin, 5,4 faizi Ukraynanın, 4,1 faizi Fransanın, 3,6 faizi Braziliyanın, 3,5 faizi Amerika Birləşmiş Ştatlarının, 2,9 faizi Qazaxıstanın, 2,8 faizi Yaponiyanın, 2,2 faizi Koreyanın, 2,1 faizi İtaliyanın, 2,0 faizi İranın, 1,7 faizi Niderlandın, 1,6 faizi İsveçrənin, 1,2 faizi Gürcüstanın, 13,7 faizi isə digər ölkələrin payına düşür.

**2013-cü ilin yanvar-noyabr aylarında idxalda daha çox paya malik olan dövlətlər**
(milyon ABŞ dolları ilə)




İdxal olunmuş malların ümumi dəyərinin 10,7 faizini yeyinti məhsulları, 3,2 faizini tütün və tütün məmulatları, 1,5 faizini sement, 2,3 faizini əczaçılıq məhsulları, 2,8 faizini oduncaq və ondan hazırlanan məmulatlar, 10,7 faizini qara metallar və onlardan hazırlanan məmulatlar, 25,5 faizini maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar və onların hissələri, 13,5 faizini nəqliyyat vasitələri və onların hissələri, 0,8 faizini mebel və onun hissələri, 29,0 faizini digər mallar təşkil etmişdir.

On bir ay ərzində ölkəmizə 6051 çeşiddə mal idxal olunmuşdur. İdxalın ümumi həcminin 54,4 faizini avtomobil, 24,4 faizini dəmiryolu, 17,2 faizini hava, 3,8 faizini dəniz nəqliyyatı vasitələri ilə gətirilmiş malların dəyəri təşkil etmişdir.

2012-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə mal əti idxalı 31,2 faiz, kartof 27,1 faiz, çay 8,8 faiz, buğda 6,1 faiz, xam şəkər və şəkər 3,6 faiz, sement klinkerləri və sement 30,5 faiz, mineral gübrələr 4,2 faiz, rezin şinlər 6,6 faiz, polad prokatı 3,3 faiz, qara metallardan borular 10,3 faiz, qara metallardan künclüklər və şvellerlər 3,3 faiz, mebel 7,6 faiz artmış, quş əti və əlavə ət məhsulları 76,4 faiz, kərə yağı, digər süd yağları və pastaları 23,2 faiz, təzə tərəvəz 66,7 faiz, təzə meyvələr 77,8 faiz,

bitki yağları 11,9 faiz, polietilen 41,0 faiz, qara metallardan çubuqlar və armaturlar 10,7 faiz, məişət kondisionerləri 32,3 faiz, məişət soyuducuları 50,7 faiz, paltaryuyan maşınlar 24,7 faiz, hesablama maşınları, blok və qurğuların idxalı isə 16,8 faiz azalmışdır.

2013-cü ilin yanvar-noyabr aylarında ölkəyə 85174 ədəd minik avtomobili, 740 ədəd avtobus, 7000 ədəd yük avtomobili idxal olunmuşdur.

İxrac olunmuş malların 24,3 faizi İtaliyaya, 12,4 faizi İndoneziyaya, 7,6 faizi Tailanda, hər birində 5,2 faiz olmaqla Almaniya və İsrailə, 4,8 faizi Fransaya, 4,6 faizi Rusiyaya, 4,5 faizi Hindistana, 4,0 faizi Amerika Birləşmiş Ştatlarına, 3,4 faizi Yunanıstana, 2,4 faizi Portuqaliyaya, 2,2 faizi Türkiyəyə, hər birində 2,1 faiz olmaqla Tayvan (Çinin əyaləti) və Gürcüstana, 1,9 faizi Böyük Britaniyaya, hər birində 1,5 faiz olmaqla Avstriya və İraqa, 1,2 faizi Ukraynaya, qalan 9,1 faizi isə digər ölkələrə göndərilmişdir.

**2013-cü ilin yanvar-noyabr aylarında ixracda daha çox paya malik olan dövlətlər**
(milyon ABŞ dolları ilə)




On bir ay ərzində ölkəmizdən 2031 çeşiddə mal ixrac olunmuşdur. İxrac olunmuş malların ümumi həcminin 86,9 faizi

boru kəməri və elektrik ötürücü xətləri ilə nəqletmə, 7,6 faizi dəmiryolu, 3,8 faizi avtomobil, 0,9 faizi dəniz, 0,8 faizi hava nəqliyyatı vasitələri ilə göndərilmiş malların dəyəri hesabına formalaşmışdır.

İxracın strukturunda xam neft, neft məhsulları, təbii qaz, meyvə-tərəvəz, çay, bitki və heyvan mənşəli piylər və yağlar, şəkər, spitli və alkoqolsuz içkilər, kimya sənayesi məhsulları, pambıq iplik, qara metallar və onlardan hazırlanan məmulatlar, alüminium və ondan hazırlanan məmulatlar üstünlük təşkil etmişdir.

2012-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 2013-cü ilin yanvar-noyabr aylarında xarici ölkələrə göndərilmiş məhsullardan təzə tərəvəz 19,4 faiz, çay 5,0 faiz, marqarin, digər qida üçün yararlı qarışıqlar 18,5 faiz, bitki yağları 19,3 faiz, şəkər 21,9 faiz, pambıq parça ipliyi 51,4 faiz, maye qaz 35,8 faiz, neft koksu 7,9 faiz, polietilen 12,8 faiz, qara metallardan borular 10,4 faiz artmış, təzə meyvə 22,9 faiz, kartof 8,3 faiz, pambıq lifi 34,4 faiz, ağ neft 3,0 faiz, qazoyl 3,6 faiz, sürtkü yağları 22,2 faiz, emal olunmamış alüminiumun ixracı isə 8,5 faiz azalmışdır.

İxrac olunmuş, lakin 2013-cü ilin yanvar-noyabr aylarında məlumatları bəyan edilməmiş xam neft və təbii qazın həcmi də nəzərə alınmaqla, statistik məlumatlara əsasən xarici ticarət dövriyyəsinin həcmi 39,7 milyard ABŞ dollarına bərabər olmuş və 2012-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə onun fiziki həcmi 4,0 faiz artmışdır. Əmtəə dövriyyəsinin ümumi həcminin 75,5 faizini, yaxud 30,0 milyard dollarını ölkədən ixrac olunmuş mallar təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 36,0 milyard dolları, yaxud 90,6 faizi, o cümlədən ixracın 28,6 milyard dolları (95,3 faizi) MDB üzvü dövlətləri istisna olmaqla digər dövlətlərin payına düşmüşdür. Bu ölkələrlə ticarət dövriyyəsinin fiziki həcmi 3,2 faiz artmışdır.

**2013-cü ilin yanvar-noyabr aylarında MDB ölkələri ilə ticarət dövriyyəsi** (milyon ABŞ dolları ilə)




**2013-cü ilin yanvar-noyabr aylarında MDB-yə üzv ölkələr istisna olmaqla bəzi digər dövlətlərlə ticarət dövriyyəsi**
(milyon ABŞ dolları ilə)




2013-cü ilin yanvar-noyabr aylarında ölkəmizə 29,9 milyon dollarlıq humanitar və texniki yardım şəklində müxtəlif mallar gətirilmişdir.

## Əhalinin əmanətləri və manatın məzənnəsi

2013-cü il dekabr ayının 1-nə əhalinin banklardakı əmanətlərinin həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 34,8 faiz artaraq 6419,6 milyon manat təşkil etmişdir.

Əmanətlərin 3955,5 milyon manatı və ya 61,6 faizi milli, 2464,1 milyon manatı xarici valyutada qoyulmuş və əvvəlki ildəkinə nisbətən müvafiq olaraq 41,0 və 25,8 faiz artmışdır.

Əmanətlərin 75,5 faizi özəl banklarda yerləşdirilmişdir.

2013-ci ilin dekabr ayında manatın 1 ABŞ dollarına orta məzənnəsi 0,78 manat, 100 Rus rubluna 2,39 manat, 1 Avroya 1,07 manat, ilin əvvəlindən isə müvafiq olaraq 0,78 manat, 2,47 manat və 1,04 manat təşkil etmişdir.

### MANATIN 1 ABŞ DOLLARINA DƏYIŞMƏSI



# Təsərrüfat subyektlərinin xarakteristikası

2013-cü il ərzində müəssisə və təşkilatların sayı 8,9 faiz artaraq, 2014-cü il yanvarın 1-i vəziyyətinə 86010 olmuşdur.

Artım əsasən iqtisadiyyatın "Digər sahələrdə xidmətlərin göstərilməsi", "Təhsil", "İnformasiya və rabitə", "Peşə, elmi və texniki fəaliyyət", "Daşınmaz əmlakla əlaqədar əməliyyatlar" bölmələrində daha nəzərəçarpacaq dərəcədə olmuşdur.

| hərf işarəsi | Fəaliyyət növünün adı | 01.01.2014-cü il vəziyyətinə müəssisə və təşkilatların sayı | Ümumi saya görə %-lə | 01.01.2013-cü il vəziyyətinə olan müəssisə və təşkilatların sayına görə %-lə |
|---|---|---|---|---|
| | **CƏMİ** | **86010** | **100,0** | **108,9** |
| | o cümlədən: | | | |
| **A** | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 9034 | 10,5 | 100,5 |
| **B** | Mədənçıxarma sənayesi | 738 | 0,9 | 103,7 |
| **C** | Emal sənayesi | 5382 | 6,3 | 104,8 |
| **D** | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 293 | 0,3 | 106,2 |
| **E** | Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 448 | 0,5 | 106,9 |
| **F** | Tikinti | 9326 | 10,8 | 104,3 |
| **G** | Ticarət; nəqliyyat vasitələrinin təmiri | 23356 | 27,1 | 108,5 |
| **H** | Nəqliyyat və anbar təsərrüfatı | 1711 | 2,0 | 105,7 |
| **İ** | Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1109 | 1,3 | 108,4 |
| **J** | İnformasiya və rabitə | 1916 | 2,2 | 114,0 |
| **K** | Maliyyə və sığorta fəaliyyəti | 1423 | 1,7 | 103,3 |
| **L** | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 867 | 1,0 | 109,5 |
| **M** | Peşə, elmi və texniki fəaliyyət | 5290 | 6,2 | 113,2 |
| **N** | İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 3116 | 3,6 | 105,8 |
| **O** | Dövlət idarəetməsi və müdafiə, sosial təminat | 4936 | 5,7 | 101,6 |

...ardı

| hərf işarəsi | Fəaliyyət növünün Adı | 01.01.2014-cü il vəziyyətinə müəssisə və təşkilatların sayı | Ümumi saya görə %-lə | 01.01.2013-cü il vəziyyətinə olan müəssisə və təşkilatların sayına görə %-lə |
|---|---|---|---|---|
| **P** | Təhsil | 1428 | 1,7 | 117,7 |
| **Q** | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 1437 | 1,7 | 107,5 |
| **R** | İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 1388 | 1,6 | 106,6 |
| **S** | Digər sahələrdə xidmətlərin göstərilməsi | 12727 | 14,8 | 126,3 |
| **U** | Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti | 85 | 0,1 | 103,7 |

"Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Digər sahələrdə xidmətlərin göstərilməsi", "Tikinti", "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" və "Emal sənayesi" bölmələrində müəssisə və təşkilatların Dövlət registrindəki xüsusi çəkisi daha yüksək olmuşdur.

**Fəaliyyət növləri üzrə müəssisə və təşkilatların sayının strukturu, yekuna nisbətən**




2014-cü il yanvarın 1-i vəziyyətinə Statistik vahidlərin Dövlət registrində qeydiyyatda olan müəssisə və təşkilatların iqtisadi fəaliyyət üzrə mülkiyyət növlərinə görə bölgüsü aşağıdakı kimi olmuşdur:

| Fəaliyyət növləri | Mülkiyyət növlərinə görə | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Dövlət müəssisələri | | Bələdiyyə* müəssisələri | | Xüsusi müəssisələr | | Xarici müəssisələr | | Birgə müəssisələr | |
| | Sayı | % | Sayı | % | Sayı | % | Sayı | % | Sayı | % |
| **Cəmi** | **9087** | **10,6** | **1758** | **2,0** | **68642** | **79,8** | **4922** | **5,7** | **1601** | **1,9** |
| o cümlədən: | | | | | | | | | | |
| **A** | 512 | 5,7 | 4 | 0,0 | 8428 | 93,3 | 40 | 0,4 | 50 | 0,6 |
| **B** | 34 | 4,6 | 0 | 0,0 | 544 | 73,7 | 136 | 18,4 | 24 | 3,3 |
| **C** | 301 | 5,6 | 3 | 0,1 | 4502 | 83,6 | 293 | 5,4 | 283 | 5,3 |
| **D** | 239 | 81,6 | 0 | 0,0 | 41 | 14,0 | 10 | 3,4 | 3 | 1,0 |
| **E** | 205 | 45,8 | 2 | 0,4 | 210 | 46,9 | 16 | 3,6 | 15 | 3,3 |
| **F** | 511 | 5,5 | 16 | 0,2 | 7811 | 83,7 | 765 | 8,2 | 223 | 2,4 |
| **G** | 857 | 3,7 | 0 | 0,0 | 20704 | 88,7 | 1363 | 5,8 | 432 | 1,8 |
| **H** | 253 | 14,8 | 2 | 0,1 | 1225 | 71,6 | 187 | 10,9 | 44 | 2,6 |
| **İ** | 49 | 4,4 | 0 | 0,0 | 903 | 81,4 | 112 | 10,1 | 45 | 4,1 |
| **J** | 215 | 11,2 | 0 | 0,0 | 1545 | 80,6 | 103 | 5,4 | 53 | 2,8 |
| **K** | 215 | 15,1 | 0 | 0,0 | 1080 | 75,9 | 75 | 5,3 | 53 | 3,7 |
| **L** | 88 | 10,2 | 0 | 0,0 | 718 | 82,8 | 46 | 5,3 | 15 | 1,7 |
| **M** | 645 | 12,2 | 2 | 0,0 | 3664 | 69,3 | 873 | 16,5 | 106 | 2,0 |
| **N** | 277 | 8,9 | 1 | 0,0 | 2601 | 83,5 | 174 | 5,6 | 63 | 2,0 |
| **O** | 3162 | 64,1 | 1719 | 34,8 | 49 | 1,0 | 4 | 0,1 | 2 | 0,0 |
| **P** | 544 | 38,1 | 0 | 0,0 | 797 | 55,8 | 73 | 5,1 | 14 | 1,0 |
| **Q** | 417 | 29,0 | 0 | 0,0 | 922 | 64,2 | 72 | 5,0 | 26 | 1,8 |
| **R** | 401 | 28,9 | 3 | 0,2 | 949 | 68,4 | 19 | 1,4 | 16 | 1,1 |
| **S** | 161 | 1,3 | 6 | 0,0 | 11947 | 93,9 | 479 | 3,8 | 134 | 1,0 |
| **U** | 1 | 1,2 | 0 | 0,0 | 2 | 2,3 | 82 | 96,5 | 0 | 0,0 |

Xüsusi mülkiyyətə malik olan müəssisə və təşkilatların əsas hissəsi "Ticarət; nəqliyyat vasitələrinin təmiri" (30,2%), "Digər sahələrdə xidmətlərin göstərilməsi" (17,4%), "Kənd

* Bələdiyyələr də bu bölməyə daxildir

təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" (12,3%), "Tikinti" (11,4%), "Emal sənayesi" (6,6%) və "Peşə, elmi və texniki fəaliyyət" (5,3%) bölmələrinin payına düşür.

**Müəssisə və təşkilatların mülkiyyət növünə görə strukturu, yekuna nisbətən**




**Mülkiyyət növlərinə görə müəssisə və təşkilatların sayının dəyişməsi, keçən ilin müvafiq dövrü ilə müqayisədə**




Keçən ilin müvafiq dövrü ilə müqayisədə xarici investisiyalı, xüsusi və birgə müəssisələrin sayında nəzərəçarpacaq dərəcədə artım müşahidə olunur.

**100 faiz xarici investisiyalı və birgə müəssisələrin sayının ölkələr üzrə strukturu, yekuna nisbətən**




Statistik vahidlərin Dövlət registrində qeydiyyatdan keçmiş tam xarici investisiyalı və birgə müəssisələr əsasən Türkiyə (34,0%), Böyük Britaniya (9,9%), Rusiya (7,3%), İran (5,8%), ABŞ (3,9%), Almaniya (2,4%) və digər ölkələrin (36,7%) sahibkarları tərəfindən yaradılmışdır.

2014-cü ilin yanvarın 1-i vəziyyətinə müəssisə və təşkilatların demoqrafiyası aşağıdakı kimi xarakterizə olunur:

| Fəaliyyət növləri | 01.01.2014-cü il vəziyyətinə müəssisə və təşkilatların sayı | 2013-cü ilin yanvar-dekabr ayları ərzində yaranmış yeni müəssisə və təşkilatlar | | 2013-cü ilin yanvar-dekabr ayları ərzində ləğv edilmiş müəssisə və təşkilatlar | |
|---|---|---|---|---|---|
| | | cəmi | %-lə | cəmi | %-lə |
| **CƏMİ** | **86010** | **7879** | **9,2** | **395** | **0,5** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 9034 | 288 | 3,2 | 37 | 0,4 |
| Mədənçıxarma sənayesi | 738 | 32 | 4,3 | 9 | 1,2 |
| Emal sənayesi | 5382 | 312 | 5,8 | 31 | 0,6 |

…ardı

| Fəaliyyət növləri | 01.01.2014-cü il vəziyyətinə müəssisə və təşkilatların sayı | 2013-cü ilin yanvar-dekabr ayları ərzində yaranmış yeni müəssisə və təşkilatlar | | 2013-cü ilin yanvar-dekabr ayları ərzində ləğv edilmiş müəssisə və təşkilatlar | |
|---|---|---|---|---|---|
| | | cəmi | %-lə | cəmi | %-lə |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 293 | 5 | 1,7 | 1 | 0,3 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 448 | 31 | 6,9 | 3 | 0,7 |
| Tikinti | 9326 | 735 | 7,9 | 52 | 0,6 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 23356 | 1905 | 8,2 | 118 | 0,5 |
| Nəqliyyat və anbar təsərrüfatı | 1711 | 106 | 6,2 | 13 | 0,8 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1109 | 87 | 7,8 | 9 | 0,8 |
| İnformasiya və rabitə | 1916 | 237 | 12,4 | 10 | 0,5 |
| Maliyyə və sığorta fəaliyyəti | 1423 | 94 | 6,6 | 2 | 0,1 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 867 | 79 | 9,1 | 9 | 1,0 |
| Peşə, elmi və texniki fəaliyyət | 5290 | 629 | 11,9 | 29 | 0,5 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 3116 | 200 | 6,4 | 11 | 0,4 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 4936 | 77 | 1,6 | 1 | 0,0 |
| Təhsil | 1428 | 184 | 12,9 | 8 | 0,6 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 1437 | 99 | 6,9 | 7 | 0,5 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 1388 | 112 | 8,1 | 7 | 0,5 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 12727 | 2664 | 20,9 | 38 | 0,3 |
| Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti | 85 | 3 | 3,5 | 0 | 0,0 |

2013-cü il ərzində yeni yaranmış müəssisə və təşkilatların 33,8 faizi "Digər sahələrdə xidmətlərin göstərilməsi", 24,2 faizi "Ticarət; nəqliyyat vasitələrinin təmiri", 9,3 faizi "Tikinti", 8,0 faizi "Peşə, elmi və texniki fəaliyyət", 4,0 faizi "Emal sənayesi", 3,7 faiz "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" və qalanları isə digər bölmələrin payına düşür.

Bu dövrdə ləğv edilmiş müəssisə və təşkilatların 29,9 faizi "Ticarət; nəqliyyat vasitələrinin təmiri", 13,2 faizi "Tikinti", 9,6 faizi "Digər sahələrdə xidmətlərin göstərilməsi", 9,4 faizi "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", 7,9 faizi "Emal sənayesi", 7,4 faizi "Peşə elmi və texniki fəaliyyət" və qalanları isə digər bölmələrin payına düşür.

Yeni yaradılmış və ləğv edilmiş müəssisələrin sayının mülkiyyət növlərinə görə strukturu aşağıdakı məlumatlarla xarakterizə olunur.

| Mülkiyyət növləri | 01.01.2014-cü il vəziyyətinə müəssisə və təşkilatların sayı | 2013-cü ilin yanvar-dekabr ayları ərzində yaranmış yeni müəssisə və təşkilatlar | | 2013-cü ilin yanvar-dekabr ayları ərzində ləğv edilmiş müəssisə və təşkilatlar | |
|---|---|---|---|---|---|
| | | cəmi | %-lə | cəmi | %-lə |
| **CƏMİ** | **86010** | **7879** | **9,2** | **395** | **0,5** |
| o cümlədən: Dövlət mülkiyyətli müəssisələr | 9087 | 211 | 2,3 | 29 | 0,3 |
| Bələdiyyə mülkiyyətli müəssisələr* | 1758 | 6 | 0,3 | 0 | 0,0 |
| Xüsusi mülkiyyətli müəssisələr | 68642 | 6956 | 10,1 | 309 | 0,5 |
| Xarici mülkiyyətli müəssisələr (100%-li xarici investisiyalı müəssisələr) | 4922 | 568 | 11,5 | 48 | 1,0 |
| Birgə müəssisələr | 1601 | 138 | 8,6 | 9 | 0,6 |

2013-cü il ərzində yeni yaradılmış müəssisə və təşkilatların 88,3 faizi xüsusi mülkiyyətli, 7,2 faizi tam xarici investisiyalı,

* Bələdiyyələrin özləri də bu bölməyə daxil edilmişdir

2,7 faizi dövlət mülkiyyətli, 1,8 faizi birgə və 0,1 faizi isə bələdiyyə mülkiyyətli müəssisələrin payına düşür.

Statistik vahidlərin Dövlət registrinin tərkibinin dəyişməsi iqtisadi rayonlar üzrə aşağıdakı kimi olmuşdur.

| | 01.01.2014-cü il vəziyyətinə müəssisə və təşkilatların sayı | 2013-cü ilin yanvar-dekabr ayları ərzində yaranmış yeni müəssisə və təşkilatlar | | 2013-cü ilin yanvar-dekabr ayları ərzində ləğv edilmiş müəssisə və təşkilatlar | |
|---|---|---|---|---|---|
| | | cəmi | %-lə | cəmi | %-lə |
| **CƏMİ** | **86010** | **7879** | **9,2** | **395** | **0,5** |
| Bakı | 45942 | 4293 | 9,3 | 264 | 0,6 |
| İqtisadi rayonlar: Abşeron iqtisadi rayonu | 5300 | 514 | 9,7 | 30 | 0,6 |
| Gəncə-Qazax iqtisadi rayonu | 6024 | 552 | 9,2 | 27 | 0,4 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 3706 | 413 | 11,1 | 11 | 0,3 |
| Lənkəran iqtisadi rayonu | 4772 | 591 | 12,4 | 4 | 0,1 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 2524 | 204 | 8,1 | 13 | 0,5 |
| Aran iqtisadi rayonu | 12025 | 991 | 8,2 | 36 | 0,3 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 1845 | 133 | 7,2 | 0 | 0,0 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 551 | 4 | 0,7 | 0 | 0,0 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 1480 | 144 | 9,7 | 2 | 0,1 |
| Naxçıvan iqtisadi rayonu | 1841 | 40 | 2,2 | 8 | 4,9 |

Müəssisə və təşkilatların 53,4 faizi Bakıda qeydiyyatdan keçmişdir. Hesabat dövründə yeni yaranmış müəssisə və təşkilatların 54,5 faizi Bakıda, 12,6 faizi Aran, 7,5 faizi Lənkəran, 7,0 faizi Gəncə-Qazax, 6,5 faizi Abşeron iqtisadi rayonlarında qeydiyyata alınmışlar. Statistik vahidlərin yaradılması prosesi Lənkəran (12,4%), Şəki-Zaqatala (11,1%), Abşeron və Dağlıq Şirvan (hər birində 9,7%), Gəncə-Qazax (9,2%), Aran (8,2%), Quba-Xaçmaz (8,1%) iqtisadi rayonlarında və Bakı şəhərində (9,3%) daha fəal aparılmışdır.

Bu dövrdə Bakı şəhəri üzrə 264, Aran iqtisadi rayonu üzrə 36, Abşeron iqtisadi rayonu üzrə 30, Gəncə-Qazax iqtisadi rayonu üzrə 27, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 13, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 11, Naxçıvan iqtisadi rayonu üzrə 8 və Dağlıq Şirvan iqtisadi rayonları üzrə 2 müəssisə ləğv edilərək Statistik vahidlərin Dövlət registrindən çıxarılmışdır.

2014-cü il yanvarın 1-i vəziyyətinə ölkədə fəaliyyət göstərən kiçik müəssisələrin sayı və strukturu "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanunu və "İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarlarının hədləri"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə müəyyənləşdirilmiş işçilərin sayı və illik dövriyyə meyarına görə aşağıdakı kimi olmuşdur.

| Fəaliyyət növləri | 01.01.2014-cü il vəziyyətinə kiçik müəssisə və təşkilatların sayı | Kiçik müəssisə və təşkilatların ümumi sayına görə %-lə | Müəssisə və təşkilatların ümumi sayında kiçik müəssisələrin xüsusi çəkisi, %-lə |
|---|---|---|---|
| **CƏMİ** | **69219** | **100,0** | **80,5** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 8764 | 12,7 | 97,0 |
| Mədənçıxarma sənayesi | 669 | 1,0 | 90,7 |
| Emal sənayesi | 5008 | 7,2 | 93,1 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 121 | 0,2 | 41,3 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 330 | 0,5 | 73,7 |
| Tikinti | 8699 | 12,6 | 93,3 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 22430 | 32,4 | 96,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 1321 | 1,9 | 77,2 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 951 | 1,4 | 85,8 |
| İnformasiya və rabitə | 1680 | 2,4 | 87,7 |

…ardı

| Fəaliyyət növləri | 01.01.2014-cü il vəziyyətinə kiçik müəssisə və təşkilatların sayı | Kiçik müəssisə və təşkilatların ümumi sayına görə %-lə | Müəssisə və təşkilatların ümumi sayında kiçik müəssisələrin xüsusi çəkisi, %-lə |
|---|---|---|---|
| Maliyyə və sığorta fəaliyyəti | 872 | 1,2 | 61,3 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 747 | 1,1 | 86,2 |
| Peşə, elmi və texniki fəaliyyət | 4677 | 6,8 | 88,4 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 2865 | 4,1 | 91,9 |
| Təhsil | 886 | 1,3 | 62,0 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 911 | 1,3 | 63,4 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 1097 | 1,6 | 79,0 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 7191 | 10,4 | 56,5 |

Göründüyü kimi, 2014-cü il yanvarın 1-i vəziyyətinə ölkə üzrə müəssisələrin ümumi sayının 80,5 faizini kiçik müəssisələr təşkil etmiş və onların əsas hissəsi ticarət (32,4%), kənd təsərrüfatı (12,7%), tikinti (12,6%) və digər sahələrdə xidmətlərin göstərilməsi (10,4%) bölmələrində yaradılmışdır.

| | 01.01.2014-cü il vəziyyətinə kiçik müəssisə və təşkilatların sayı | Ümumi saya görə %-lə |
|---|---|---|
| **CƏMİ** | **69219** | **100,0** |
| Bakı | 38894 | 56,2 |
| İqtisadi rayonlar:<br>Abşeron iqtisadi rayonu | 4608 | 6,7 |
| Gəncə-Qazax iqtisadi rayonu | 4369 | 6,3 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 2765 | 4,0 |
| Lənkəran iqtisadi rayonu | 3897 | 5,6 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 1807 | 2,6 |
| Aran iqtisadi rayonu | 9390 | 13,6 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 1293 | 1,9 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 282 | 0,4 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 956 | 1,4 |
| Naxçıvan iqtisadi rayonu | 958 | 1,4 |

Kiçik müəssisələrin 56,2 faizi Bakıda, 13,6 faizi Aran, 6,7 faizi Abşeron, 6,3 faizi Gəncə-Qazax, 5,6 faizi Lənkəran, qalanları isə digər iqtisadi rayonlarda yaradılmışdır.

## Fərdi sahibkarların fəaliyyət növlərinə görə bölgüsü

2014-cü il yanvarın 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 454 mindən çox olmuşdur.

| Fəaliyyət növləri | 01.01.2014-cü il vəziyyətinə fərdi sahibkar-ların sayı | Ümumi saya görə %-lə |
|---|---|---|
| **CƏMİ** | **454997** | **100,0** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 63302 | 13,9 |
| Mədənçıxarma sənayesi | 570 | 0,1 |
| Emal sənayesi | 12948 | 2,9 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 72 | 0,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 155 | 0,0 |
| Tikinti | 4082 | 0,9 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 176327 | 38,8 |
| Nəqliyyat və anbar təsərrüfatı | 68205 | 15,0 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 25757 | 5,7 |
| İnformasiya və rabitə | 5024 | 1,1 |
| Maliyyə və sığorta fəaliyyəti | 1303 | 0,3 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 8390 | 1,8 |
| Peşə, elmi və texniki fəaliyyət | 8416 | 1,8 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 2514 | 0,6 |
| Təhsil | 2229 | 0,5 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 2211 | 0,5 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 5563 | 1,2 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 60074 | 13,2 |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | 7855 | 1,7 |

Hesabat dövründə fərdi sahibkarların çox hissəsi “Ticarət; nəqliyyat vasitələrinin təmiri” (38,8%), “Nəqliyyat və anbar təsərrüfatı” (15,0%), “Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq” (13,9%) və “Digər sahələrdə xidmətlərin göstərilməsi” (13,2%) bölmələrində qeydiyyatdan keçmişdir.

| | 01.01.2014-cü il vəziyyətinə sahibkarların sayı | Ümumi saya görə %-lə |
|---|---|---|
| **CƏMİ** | **454997** | **100,0** |
| Bakı | 158472 | 34,8 |
| İqtisadi rayonlar:<br>Abşeron iqtisadi rayonu | 21230 | 4,7 |
| Gəncə-Qazax iqtisadi rayonu | 56641 | 12,4 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 28445 | 6,3 |
| Lənkəran iqtisadi rayonu | 34141 | 7,5 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 25149 | 5,5 |
| Aran iqtisadi rayonu | 89781 | 19,7 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 10918 | 2,4 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 2072 | 0,5 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 13083 | 2,9 |
| Naxçıvan iqtisadi rayonu | 15065 | 3,3 |

Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (34,8%), Aran (19,7%), Gəncə-Qazax (12,4%) və Lənkəran (7,5%) iqtisadi rayonlarında qeydiyyata alınmışlar.

Fəaliyyət növləri üzrə fərdi sahibkarların gender bölgüsü aşağıdakı məlumatlarla səciyyələnir.

| Fəaliyyət növləri | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|
| | say | % | say | % |
| **CƏMİ** | **373350** | **100,0** | **81647** | **100,0** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 51524 | 13,8 | 11778 | 14,4 |
| Mədənçıxarma sənayesi | 538 | 0,2 | 32 | 0,1 |
| Emal sənayesi | 11280 | 3,0 | 1668 | 2,0 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 66 | 0,0 | 6 | 0,0 |

…ardı

| Fəaliyyət növləri | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|
| | say | % | say | % |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 142 | 0,1 | 13 | 0,0 |
| Tikinti | 3978 | 1,1 | 104 | 0,1 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 140792 | 37,7 | 35535 | 43,5 |
| Nəqliyyat və anbar təsərrüfatı | 67280 | 18,0 | 925 | 1,1 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 22269 | 6,0 | 3488 | 4,3 |
| İnformasiya və rabitə | 4178 | 1,1 | 846 | 1,0 |
| Maliyyə və sığorta fəaliyyəti | 1008 | 0,3 | 295 | 0,4 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 5770 | 1,6 | 2620 | 3,2 |
| Peşə, elmi və texniki fəaliyyət | 5748 | 1,5 | 2668 | 3,3 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 1966 | 0,5 | 548 | 0,7 |
| Təhsil | 842 | 0,2 | 1387 | 1,7 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 1626 | 0,4 | 585 | 0,7 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 4972 | 1,3 | 591 | 0,7 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 43455 | 11,6 | 16619 | 20,4 |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | 5916 | 1,6 | 1939 | 2,4 |

Sahibkarlıqla məşğul olan fərdi sahibkarların 82,1 faizini kişilər, 17,9 faizini isə qadınlar təşkil etmişdir.

Qadınlar "Ticarət; nəqliyyat vasitələrinin təmiri" fəaliyyət sahəsində fərdi sahibkarların 43,5 faizini, "Digər sahələrdə xidmətlərin göstərilməsi"ndə 20,4 faizini, "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq"da 14,4 faizini təşkil edir.

**İqtisadi rayonlar üzrə fərdi sahibkarların gender bölgüsü**

| | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|
| | say | % | say | % |
| **CƏMİ** | **373350** | **100,0** | **81647** | **100,0** |
| Bakı | 125687 | 33,7 | 32785 | 40,1 |
| İqtisadi rayonlar:<br>Abşeron iqtisadi rayonu | 17247 | 4,6 | 3983 | 4,9 |
| Gəncə-Qazax iqtisadi rayonu | 44453 | 11,9 | 12188 | 14,9 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 22829 | 6,1 | 5616 | 6,9 |
| Lənkəran iqtisadi rayonu | 30056 | 8,1 | 4085 | 5,0 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 20354 | 5,4 | 4795 | 5,9 |
| Aran iqtisadi rayonu | 76457 | 20,5 | 13324 | 16,3 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 9367 | 2,5 | 1551 | 1,9 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 1781 | 0,5 | 291 | 0,4 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 11651 | 3,1 | 1432 | 1,7 |
| Naxçıvan iqtisadi rayonu | 13468 | 3,6 | 1597 | 2,0 |

Sahibkar qadınların 40,1 faizi Bakıda, 16,3 faizi Aran, 14,9 faizi Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçmişlər.

Fərdi sahibkarların cins tərkibinin regionlar üzrə bölgüsündən aydın olur ki, Bakıda (20,7%), habelə Gəncə-Qazax (21,5%) və Şəki-Zaqatala (19,7%) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.

2014-cü il yanvarın 1-i vəziyyətinə Statistik vahidlərin Dövlət registrinə daxil edilmiş, torpaq payı almış ailələrin sayı 850 mini keçmişdir ki, bu da ölkədə torpaq payı alanların 98,0 faizini təşkil edir. Dövlət registrinə daxil edilmiş ailə təsərrüfatlarının iqtisadi rayonlar üzrə bölgüsü aşağıdakı kimi olmuşdur.

| | 01.01.2014-cü il vəziyyətinə ailə təsərrüfatlarının sayı | Ümumi saya görə %-lə |
|---|---|---|
| **CƏMİ** | **850798** | **100,0** |
| Bakı | 0 | 0,0 |
| İqtisadi rayonlar:<br>Abşeron iqtisadi rayonu | 7782 | 0,9 |
| Gəncə-Qazax iqtisadi rayonu | 170767 | 20,1 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 101150 | 11,9 |
| Lənkəran iqtisadi rayonu | 124957 | 14,7 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 80165 | 9,4 |
| Aran iqtisadi rayonu | 232195 | 27,3 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 19919 | 2,3 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 0 | 0,0 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 42915 | 5,1 |
| Naxçıvan iqtisadi rayonu | 70948 | 8,3 |

# Əhalinin gəlirləri

2013-cü ildə əhalinin gəlirləri əvvəlki ilə nisbətən 8,0 faiz artaraq 37,6 milyard manata çatmış, onun hər nəfərə düşən həcmi 4039,6 manat, və ya ayda orta hesabla 336,6 manat təşkil etmişdir. Hər nəfərə düşən gəlirlərin artımı istehlak qiymətlərinin bahalaşmasını 4,2 faiz bəndi üstələyərək 6,6 faiz olmuşdur.

Bu dövr ərzində gəlirlərin 64,3 faizi son istehlaka, 8,3 faizi vergilər, sosial sığorta və üzvlük haqlarının, 1,8 faizi kreditlər üzrə faizlərin ödənilməsinə, 25,6 faizi isə əmanətlərin və kapitalın artırılmasına yönəldilmişdir.

Əhalinin sərəncamında qalan 34,5 milyard manatlıq gəlir əvvəlki ildəki ilə müqayisədə 8,0 faiz çox olmuşdur.

## Əhalinin gəlirlərinin əsas göstəriciləri

| | 2013-cü il faktiki | 2012-ci ilə nisbətən, faizlə *) |
|---|---|---|
| Əhalinin nominal gəlirləri, mlyn. manat | 37555,5 | 108,0 |
| Hər nəfərə düşən gəlir, manat | 4039,6 | 106,6 |
| Sərəncamda qalan gəlirlər, mlyn. manat | 34451,4 | 108,0 |
| Hər nəfərin sərəncamında qalan gəlir, manat | 3705,7 | 106,6 |

*) 2012-ci ilin göstəriciləri əldə olunmuş yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

## Əmək haqqı

2013-cü ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,6 faiz artaraq 419,0 manat təşkil etmişdir.

Digər fəaliyyət növləri ilə müqayisədə mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyətində, informasiya və rabitədə, peşə, elmi və texniki fəaliyyət sahəsində, tikintidə, inzibati və yardımçı xidmətlərin göstərilməsi sahəsində orta aylıq nominal əmək haqqı daha yüksək olmuşdur.

Bu dövrdə müəssisə və təşkilatlarda çalışan kənar əvəzçilərin orta aylıq əmək haqqı 293,5 manat və mülki-hüquqi xarakterli müqavilələr üzrə işləyənlərin orta aylıq əmək haqqı 338,9 manat təşkil etmişdir.

## Demoqrafik vəziyyət

İlkin məlumatlara əsasən Azərbaycan Respublikasının əhalisinin sayı 2013-cü ilin əvvəlinə nisbətən 120,6 min nəfər və yaxud 1,3 faiz artaraq 2014-cü ilin əvvəlinə 9477,1min nəfər olmuşdur.

2013-cü ildə əhalinin ümumi artımı əsasən təbii artım hesabına baş vermişdir. Bununla yanaşı miqrasiya artımı da müşahidə olunmuş və bu amil əhalinin ümumi artımının1,8faizini təşkil etmişdir.

Ölkə əhalisinin ümumi sayından 53,1 faizi şəhər, 46,9 faizi kənd sakinlərinin, 49,7 faizi kişilərin, 50,3 faizi isə qadınların payına düşür. Hər 1000 kişiyə 1012 qadın düşür.

## Əhalinin təbii hərəkatinin əsas göstəriciləri

| | Min | | | Əhalininhər 1000 nəfərinə | | |
|---|---|---|---|---|---|---|
| | 2013 | 2012 | artım(+), azalma (-) | 2013 | 2012 | 2013-cü il 2012-ci ilə nisbətən, faizlə |
| Təbii artım | 118,4 | 119,5 | -1,1 | 12,8 | 13,0 | 98,5 |
| Doğulanlar | 172,6 | 174,5 | -1,9 | 18,6 | 19,0 | 97,9 |
| Ölənlər | 54,2 | 55,0 | -0,8 | 5,8 | 6,0 | 96,7 |
| Nikahlar | 86,3 | 79,1 | +7,2 | 9,3 | 8,6 | 108,1 |
| Boşanmalar | 11,7 | 11,1 | +0,6 | 1,3 | 1,2 | 108,3 |

Ötən il Azərbaycan Respublikası üzrə doğulanların sayı ölənlərin sayından 118,4 min nəfər çox olmuşdur. Belə ki, 2013-cü ildə 172,6 min körpə doğulmuş, 54,2 min nəfər ölüm halları qeydə alınmış və əhalinin hər 1000 nəfərinə hesabı ilə bu göstəricilər müvafiq olaraq 18,6 və 5,8 təşkil etmişdir.



Hazırda uşaq doğmaq qabiliyyətinə malik olan hər bir qadına bütün ömrü boyu orta hesabla 2,2 uşaq düşür və ölkədə əhalinin təkrar istehsalı təmin olunur.

Ölkədə ölənlərin sayı əhalinin hər 1000 nəfərinə hesabı ilə 2012-ci ilə nisbətən 2013-cü ildə 6,0-dan 5,8-ə qədər azalmışdır.

**Əhali arasında ölümün əsas səbəbləri**
*(Ölənlərin ümumi sayına nisbətən, faizlə)*




Ölənlərin ümumi sayına nisbətən ötən il qan dövranı sisteminin xəstəliklərindən ölənlər 63,2 faiz, yenitörəmələrdən 11,8 faiz,həzm sisteminin xəstəliklərindən5,2 faiz, travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən 4,8 faiz, tənəffüs orqanlarının xəstəliklərindən 2,7 faiz,infeksion və parazitar xəstəliklərdən 1,2 faiz, digər səbəblərdən isə 11,1 faiz təşkil etmişdir.

Ölkədə gənclərin problemlərinin həllinə yönəldilmiş dövlət siyasətinin həyata keçirilməsi, yeni iş yerlərinin açılması və gənclərin iqtisadiyyata daha çox cəlb olunması ilə əlaqədar əvvəllər Azərbaycandan xarici ölkələrə qazanc üçün getmiş gənclər Vətənə qayıdır.

**2013-cü ildə Azərbaycana daimi yaşamaq üçün gələnlərin ölkələr üzrə bölgüsü**
*(faizlə)*




**2013-cü ildə Azərbaycandan daimi yaşamaq üçün gedənlərin ölkələr üzrə bölgüsü**
*(faizlə)*




2013-cü ildə Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən Azərbaycana daimi yaşamaq üçün 3,0 min nəfər gələn və 0,8 min nəfər ölkədən gedən qeydə alınmışdır. 2013-cü il ərzində Azərbaycana daimi yaşamaq üçün gələnlərin sayı 2012-ci illə müqayisədə 828 nəfər və ya 38,1 faiz artmışdır. İmmiqrantların 33,7 faizini Rusiya Federasiyasından, 5,3 faizi Ukraynadan, 4,4 faizini Qazaxıstandan gələnlər, emiqrantların isə müvafiq olaraq 49,6 faizini, 7,8 faizini və 33,0 faizini həmin ölkələrə gedənlər təşkil etmişlər.

## Sosial təminat

Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması ölkədə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir.

2006-cı il yanvarın 1-dən tətbiq edilən sığorta-pensiya sistemi əmək pensiyalarının baza hissəsinin istehlak qiymətləri indeksi nəzərə alınmaqla bütün pensiyaçılar üzrə bərabər məbləğdə artırılmasını və sığorta hissəsinin indeksləşdirilməsini nəzərdə tutur ki, bu da bazar iqtisadiyyatı mühitində vətəndaşların pensiya təminatı hüququnun etibarlı müdafiəsini ifadə edir.

İlkin məlumatlara əsasən, 2014-cü ilin əvvəlinə ölkədə pensiyaçıların sayı 1275,2 min nəfər olmuş və ölkə əhalisinin 13,6 faizini təşkil etmişdir. Təyin olunmuş aylıq pensiyaların orta məbləği 170,5 manata çatmış və orta əmək haqqının 40,3 faizini təşkil etmişdir.

Cari ilin əvvəlinə 316,8 min nəfər sosial müavinət, 35,2 min nəfər Azərbaycan Respublikası qarşısında xüsusi xidmətlərə görə təqaüd və 141,1 min ailənin 615,2 min nəfər üzvü ünvanlı dövlət sosial yardımı almışdır. 2013-cü il ərzində birdəfəlik müavinət alanların sayı 123,8 min nəfər olmuşdur.

## Səhiyyə

Son zamanlar ölkəmizdə səhiyyə sistemində mühüm islahatlar həyata keçirilmişdir. Azərbaycanın dövlət büdcəsində səhiyyə sahəsinin inkişafına ayrılan vəsaitin məbləği artır, ölkədə yeni müasir müalicə ocaqları inşa edilir və yenidən qurulur. Respublikada səhiyyəyə ayrılan büdcə vəsaiti 2003-cü illə müqayisədə 2013-ci ildə 12 dəfə artmışdır.

Son 10 il ərzində ümumilikdə 500-ə yaxın səhiyyə müəssisəsində təmir və tikinti işləri aparılmışdır. Onlardan təxminən 70 faizi regionların payına düşür.

Ötən il ərzində ölkədə səhiyyə sahəsində 81 tibb müəssisəsində təmir-tikinti işləri aparılmışdır. Bütün müəssisələr ən müasir tibbi avadanlıq və ləvazimatlarla təchiz olunmuşdur.

Son illər ölkəmizdə 7 Perinatal mərkəz yaradılmışdır. 14 şəhərdə ən müasir standartlara cavab verən Müalicə-Diaqnostika mərkəzləri tikilmişdir və orada hemodializ qurğuları quraşdırılmışdır. 2014-cü ilin ilk günlərində ən müasir səviyyədə inşa və təchiz edilmiş 550 çarpayılıq Bakı Sağlamlıq Mərkəzi istifadəyə verilmişdir.

Əhaliyə göstərilən tibbi xidmətin həcminin genişləndirilməsində və keyfiyyətinin artırılmasında səhiyyənin ayrı-ayrı sahələri üzrə qəbul edilmiş və budcədən maliyyələşdirilən dövlət proqramların əhatə etdiyi sahələr üzrə həyata keçirilən tədbirlər nəticəsində ana və uşaqlara, onkoloji, endokrinoloji, irsi qan xəstəliyi, böyrək çatışmazlığı və sair xəstələrə göstərilən tibbi xidmətin səviyyəsi xeyli yüksəlmiş, bu xəstəliklər üzrə müayinələrin həcmi artırılmış, xəstələrin dərmanla təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

İlbəil proqramların icrasına ayrılan vəsait artırılır.Təkcə 2013-cü ildə proqramların icrası məqsədilə 80,1 milyon manat vəsait sərf olunmuşdur. 2014-cü ilə isə 86,0 milyon manat vəsaitin ayrılması planlaşdırılır.

İlkin məlumatlara əsasən, 2014-cü ilin əvvəlinə ölkədə 33,3 min həkim və 58,2 min orta tibb işçisi çalışan 550 xəstəxana və 1734 ambulatoriya-poliklinika müəssisəsi fəaliyyət göstərir və əhalinin hər 10 min nəfərinə orta hesabla 36 həkim və 62 orta tibb işçisi düşür.

Ötən il qeydə alınmış xəstəliklər arasında tənəffüs, əsəb sistemi və hissiyyat orqanlarının, həzm orqanlarının, qan dövranı sisteminin, yoluxucu və parazitar xəstəlikləri üstünlük təşkil etmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin məlumatlarına əsasən, ötən ilin yanvar-noyabr aylarında 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə ölkədə göyöskürək ilə xəstələnənlərin sayı - 76,5 faiz, quduzluq ilə - 60,0 faiz, tetanus ilə - 42,9 faiz, epidemik parotit ilə - 38,3 faiz, qarayara ilə - 33,3 faiz, pedikulyoz ilə - 32,1 faiz, viruslu hepatit ilə - 28,1 faiz, qoturluq ilə - 15,0 faiz, brusellyoz ilə - 13,9 faiz, ağciyər vərəmi ilə - 9,9 faiz, kəskin bağırsaq infeksiyaları ilə

xəstələnənlərin sayı isə 2,3 faiz azalmış, kəskin poliomielit, tulyaremiya, məxmərək, anadangəlmə məxmərək sindromu, difteriya və yeni doğulmuşlarda tetanus xəstəlikləri qeydə alınmamışdır.

## Ekologiya

Ətraf mühitin mühafizəsi, ölkə vətəndaşlarının təhlükəsiz və sağlam mühitdə yaşamasının təmin edilməsi, təbii sərvətlərdən xalqın rifahının yaxşılaşdırılması naminə səmərəli istifadə edilməsi, ekoloji problemlərin aradan qaldırılması istiqamətindəki işlər ötən ildə də davam etdirilmişdir.

2014-cü ilin əvvəlinə flora və faunanın qorunub saxlanması və təkrar istehsalı üçün ölkədə ümumi sahəsi 209,1 min hektar olan 11 dövlət təbiət qoruğu, sahəsi 322,3 min hektar olan 9 milli park və sahəsi 361,2 min hektar olan 24 yasaqlıq mövcuddur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin monitorinq xidmətləri tərəfindən 2013-cü ildə 1879 müəssisədə müvafiq müayinələr aparılmış və nəticədə su hövzələrinin çirkləndirilməsi üzrə tədqiq olunmuş hər dörd müəssisədən birində və atmosfer havasının çirkləndirilməsi üzrə müayinəyə cəlb olunmuş hər beş müəssisədən birində atılan tullantıların icazə verilən həddən artıq olması qeydə alınmışdır. Təbiəti mühafizə qanunvericiliyinin pozulmasına görə ötən il inzibati məsuliyyətə cəlb olunmuş 842 nəfər vəzifəli şəxs və vətəndaşdan 1344,6 min manat məbləğində cərimə tutulmuşdur.

## Təhsil

Azərbaycan Respublikasında təhsil sistemi milli, mənəvi və ümumbəşəri dəyərlərə əsaslanır və Boloniya prosesində yaxından iştirak etməklə ümumdünya təhsil sisteminə inteqrasiya yolu ilə inkişaf etməkdədir.

Təhsil sistemində aparılan uğurlu islahatlar nəticəsində əhalinin təhsil səviyyəsi ilbəil artır və bu gün 15 və yuxarı yaşda

olan əhalinin hər 1000 nəfərindən 969-u ali, orta ixtisas və orta təhsilə malikdir.

İlkin məlumatlara əsasən, 2014-cü ilin yanvar ayının 1-i vəziyyətinə ölkədə fəaliyyət göstərən 1637 dövlət və 40 qeyri-dövlət məktəbəqədər təhsil müəssisəsində 112 min uşaq və ya 1-5 yaşlı uşaqların 15,0 faizi tərbiyə alır.

2013/2014-cü tədris ilinin əvvəlinə ölkənin 4477 dövlət və 28 qeyri-dövlət əyani ümumi təhsil müəssisələrində 1,3 milyon şagird təhsil almışdır. Bundan əlavə, sağlamlıq imkanları məhdud olan 6352 uşağın təhsil aldığı 17 xüsusi məktəb və ya ümumi təhsil müəssisələrində xüsusi siniflər fəaliyyət göstərmişdir.

Son illər ikinci və üçüncü növbələrdə məşğul olan şagirdlərin xüsusi çəkisinin azalması müşahidə olunur. Belə ki, şəhər yerlərində yerləşən ümumi təhsil müəssisələrində bu göstərici 18,2 faizdən 17,0 faizə, kənd yerlərində isə 14,2 faizdən 12,6 faizə düşmüşdür.

**2013/2014-cü tədris ilinin əvvəlinə əyani ümumi təhsil müəssisələri**




Dövlət ümumi təhsil müəssisələrinin sayında lisey və gimnaziyalar şəbəkəsinin inkişafı davam edir. 2013/2014-cü tədris ilinin əvvəlinə şagirdlərinin sayı 49,9 min nəfərdən artıq olan 81 dövlət liseyi və gimnaziyası fəaliyyət göstərmişdir.

Dövlət müəssisələrinin ümumi sayında məcburi köçkün uşaqlar üçün 620 əyani ümumi təhsil müəssisəsi fəaliyyət göstərir və burada 78 min nəfər şagird təhsil alır.

2013-cü ildə əyani ümumi təhsil müəssisələrini bitirən 88,4 min nəfər məzundan 88,1 min nəfəri və ya 99,6 faizi tam orta təhsil haqqında attestat almışdır.

Dövlət Statistika Komitəsi tərəfindən 2013-cü ilin sentyabr ayında dövlət əyani ümumi təhsil müəssisələrində keçirilmiş statistik müayinənin nəticələrinə görə, məktəblərin 88,3 faizi, o cümlədən şəhər yerlərində 97,4 faizi, kənd yerlərində isə 85,0 faizi kompyuterlərlə təmin olunmuşdur.

Əvvəlki illə müqayisədə kompyuterlərin sayı 5,8 min ədəd və ya 12,6 faiz artaraq, 51,6 minə çatmışdır. Hazırda hər 25 şagirdə orta hesabla bir kompyuter düşür, halbuki 7 il əvvəl 101 şagirdə bir kompyuter düşürdü.

Cari tədris ilinin əvvəlinə 79,9 faiz şəhər, 37,1 faiz kənd ümümi təhsil müəssisələrinin internetə çıxışı, 36,1 faiz şəhər, 6,3 faiz kənd ümümi təhsil müəssisələrinin isə elektron poçtu olmuşdur.

Müayinə ilə əhatə olunmuş məktəb rəhbərlərinin məlumatlarına görə, cari tədris ilinin əvvəlinə bütün sinif otaqlarında istilik sistemi mövcuddur və onların 9,6 faizi mərkəzləşdirilmiş istilik sisteminə, qalanları isə fərdi istilik sisteminə qoşulmuşdur. Şəhər yerləri üzrə təhsil müəssisələrinin 77,3 faizi, kənd yerlərində isə 95,0 faizi fərdi istilik sisteminə malikdir. Fərdi istilik sisteminə malik təhsil müəssisələrinin qızdırılması üçün şəhər məktəblərinin 64,2 faizində qazdan, 12,9 faizində maye yanacaqdan, 12,4 faizində isə bərk yanacaqdan istifadə edilir. Kənd məktəblərinin 55,5 faizi bərk yanacaqdan, 30,8 faizi maye yanacaqdan və 12,5 faizi isə qazdan istifadə edilməklə qızdırılır. Eyni zamanda, fərdi istilik sistemi vasitəsilə qızdırılan təhsil müəssisələrinin 6,9 faizində elektrik qızdırıcılarından istifadə edilir.

2013/2014-cü tədris ilinin əvvəlinə ölkədə fəaliyyət göstərən 58 orta ixtisas təhsil müəssisəsində 63,3 min tələbə təhsil almış, onların üçdə iki hissəsini qadınlar təşkil etmişdir.

Azərbaycanda bakalavr və magistrlərın hazırlanmasını həyata keçirən 37 dövlət və 15 qeyri-dövlət ali təhsil müəssisəsində təhsil alanların sayı 151,3 min nəfər olmuşdur ki, onların da 48,4 faizini qadınlar təşkil edir.

**Dövlət və qeyri-dövlət ali və orta ixtisas təhsil müəssisələrində tələbə qəbulu və buraxılışı, min nəfər**




2013-cü ildə ölkənin ali təhsil müəssisələrinə 35,4 min nəfər tələbə qəbul olunmuş və qəbul geniş profilli ixtisas siyahısına uyğun olaraq həyata keçirilmişdir. Boloniya Deklarasiyasının tələblərinə tam cavab verən bu yeni siyahının təsdiq olunması Azərbaycan ali təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası yolunda atılan mühüm addımlardan biridir.

Bakalavriata qəbul olunan tələbələrin ümumi sayında ödənişli əsaslarla təhsilə qəbul olunanların xüsusi çəkisi 65,7 faiz olmuşdur ki, onların da 79,7 faizi dövlət ali təhsil müəssisələrinin payına düşür.

Hazırda dövlət ali təhsil müəssisələrinin əyani şöbələrində oxuyan tələbələrin 36,4 faizi təqaüd alır. Tələbələrin aldığı təqaüdün orta məbləği bakalavr səviyyəsi üzrə 71 manat 50 qəpik, magistratura səviyyəsi üzrə 77 manat, əlacılığa görə müvafiq olaraq 88 manat və 93 manat 50 qəpik olmuşdur.

Ölkənin ali təhsil müəssisələrində Azərbaycan vətəndaşları ilə birgə 54 xarici ölkənin 4374 nəfər vətəndaşı da təhsil alır. Əcnəbi tələbələrin sırasında Türkiyə, İran, Gürcüstan, Rusiya,

Türkmənistan, Çin Xalq Respublikası və İraq vətəndaşları üstünlük təşkil edirlər.

2013/2014-cü tədris ilinin əvvəlinə xarici ölkələrdə dövlət xətti ilə təhsil alan tələbələrin sayı 3035 nəfər təşkil etmişdir. Xaricdə təhsil alan gənclərin 62,6 faizi Bakı, 37,4 faizi isə Azərbaycanın müxtəlif regionlarında yerləşən məktəblərin məzunlarıdır. Tələbələrin əksəriyyəti Türkiyə və Rusiyanın ali təhsil müəssisələrində təhsil alır.

## Elm

Ölkədə elmin inkişafına dövlət tərəfindən xüsusi diqqət və dəstək göstərilir və Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycanda 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" uğurla həyata keçirilir.

2014-cü ilin əvvəlinə ölkədə müxtəlif elmi-texniki xidmətləri həyata keçirən 140 elmi təşkilat və müəssisə fəaliyyət göstərmişdir. Bu elm ocaqlarında elmi tədqiqat və işləmələrlə 21,6 minə yaxın mütəxəssis məşğul olur, onların da 71,1 faizi tədqiqatçılardır. Mütəxəssislərin hər üç nəfərindən birinin elmlər doktoru və fəlsəfə doktoru alimlik dərəcəsi vardır.

Bundan əlavə, elmi-tədqiqat bölmələrində ştatda olmayan və ali təhsil müəssisələrində çalışan 10 min nəfər elmi pedaqoji işçi elmi-tədqiqat bölmələrində tədqiqat və işləmələri yerinə yetirirlər. Onların da yarıdan çoxu elmlər doktoru və fəlsəfə doktoru alimlik dərəcəsinə malikdirlər.

2014-cü ilin əvvəlinə Milli Elmlər Akademiyasının 52 akademiki və 100 müxbir üzvü vardır.

## Mədəniyyət

Hazırda ölkədə mədəniyyət sahəsinin inkişafı ilə əlaqədar bir sıra əhəmiyyətli layihələr həyata keçirilmiş, milli mədəniyyətimizin dünyada tanıdılması, ölkəmizin dünyanın mədəniyyət məkanına uğurla inteqrasiya olunması, milli mədəni

irsimizin, dəyər və sərvətlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi istiqamətində mühüm nəticələrə nail olunmuşdur.

Dövlət siyasətinin əsas prioritetlərindən biri də mədəniyyət ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin qorunub saxlanmasından ibarətdir.

Bu gün Azərbaycanda 35 milyon kitabxana fondu olan 3389 kütləvi kitabxana, 2747 klub müəssisəsi, 227 muzey, 28 peşəkar teatr və 347 mədəniyyət və istirahət parkı əhaliyə xidmət göstərir.

2013-cü ildə muzeylərə gələnlərin sayı 2,1 milyon nəfər, teatrlara gələnlərin sayı 582 min nəfər olmuşdur. Teatrlarda repertuar müntəzəm olaraq təzələnir və tamaşalar azərbaycan dili ilə yanaşı, rus və ləzgi dillərində də göstərilir.

Hazırda Azərbaycanda dövlət əhəmiyyətli tarix, mədəniyyət, memarlıq, bədii və etnoqrafiya qoruqlarının sayı 28-ə çatmışdır.

## İdman

2013-cü il Azərbaycan idmanı üçün uğurlu il olmuşdur. 2012-ci ildə Olimpiya Oyunlarında qazanılmış qələbələr 2013-cü ildə də davam etdirilmişdir. Azərbaycan idmançıları Tələbələrin Yay Universiadasında böyük uğurlara imza atmış və 16 medal qazanaraq komanda hesabında 15-ci yerə layiq görülmüşlər. Ümumiyyətlə, müxtəlif beynəlxalq yarışlarda qazanılmış 782 medalın 280-i qızıl, 233-ü gümüş, 269-u isə bürünc əyarlıdır. Olimpiya idman növləri üzrə qazanılan medalların sayı 296-dır. Eyni zamanda, Olimpiya idman növləri üzrə dörd idmançımız dünya çempionu olmuşdur.

Azərbaycanda mütəmadi qaydada beynəlxalq yarışlar, dünya, Avropa çempionatları keçirilir. Yeniyetmələr və gənclər idmana böyük maraq göstərirlər. Müstəqillik dövründə respublikamızın şəhər və rayonlarında 38 Olimpiya İdman Kompleksi tikilib istifadəyə verilmişdir ki, bundan da 4-ü 2013-cü ilin payına düşür. Göygöl Olimpiya İdman Kompleksinin tikintisi

tam başa çatdırılmış və tezliklə əhalinin istifadəsinə veriləcəkdir. Abşeron, Ağcabədi, Yardımlı Olimpiya İdman Komplekslərinin tikintisi və Lənkəran Olimpiya İdman Kompleksinin yenidən qurulması işləri davam etdirilir.

İlkin məlumatlara görə, 2014-cü ilin əvvəlinə ölkədə idman qurğularının sayı 10,3 minə çatmış, idmanla məşğul olanların sayı müntəzəm olaraq artmaqdadır. Əhali arasında futbol, voleybol, şahmat, yüngül atletika, dama, basketbol, sərbəst güləş, cüdo və stolüstü tennis kimi idman növlərinə daha çox maraq göstərilir.

2014-cü il Avropa Oyunlarına hazırlıq üçün həlledici il olacaqdır. Hazırda Bakıda 65 minlik Olimpiya Stadionu, Böyük Su İdman Növləri Sarayı, Gimnastika Mərkəzi, Stend Atıcılığı Mərkəzi tikilir. Eyni zamanda, Əl Oyunları Sarayında, Heydər Əliyev İdman Mərkəzində əsaslı təmir işləri aparılır.

Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi dövlətimizin və xalqımızın böyük qələbəsidir.

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**sədrinin birinci müavini** **Həmid Bağırov**